**HARUN YƏHYA**

**ADNAN OKTAR**

# Hz. Mehdi (ə.s.)
# hz. İbrahimin nəslindəndir

**Bu kitabda istifadə edilən ayələr Z.Bünyadov və V.Məmmədəliyevin tərcümə etdiyi Qurani-kərim məalından götürülmüşdür.**

**Birinci nəşr: Yanvar, 2008**

**Araşdırma**

**Nəşriyyat**

Talatpaşa məh. Əmirqazi küçəsi

İbrahim Almaz İş Mərkəzi

A blok, mərtəbə 4, Okmeydanı- İstanbul

Tel: (0 212) 222 00 88

Nəşr: Seçil ofset

100 il məhəlləsi, Mas- SİT, Mətbəəçilər saytı

4-cü küçə, Nömrə: 77, Bağçılar- İstanbul

Tel: (0 212) 629 06 15

www.harunyahya.org- www.harunyahya.net

www.harunyahya.az

MÜNDƏRİCAT:

Müsəlmanların Tövrat və İncilə münasibətləri ilə əlaqədar vacib izahlar

Giriş: Yaşadığımız axır zaman və Mehdi (ə.s.) müjdəsi

Mehdinin (ə.s.) çıxışı bütün müqəddəs kitablarda müjdələnir

Hz. İbrahimin hənif dininə tabe olmaq

Axır zamanda dünyaya din əxlaqı hakim olacaq

Yəhudi qaynaqlarında hz. İbrahimin nəslinə vəd edilən hakimiyyət və Mehdinin (ə.s.) hz. İbrahimin nəslindən olması

Tövratda hakimiyyət vəd edilən birliyin xüsusiyyətləri

Tövratda israiloğulları deyə xitab edilən qövm Mehdi camaatıdır

Tövratda və digər yəhudi qaynaqlarında Mehdiyə (ə.s.) işarələr

İncildə Mehdiyə (ə.s.) işarələr

Quranda və digər islami qaynaqlarda Mehdinin (ə.s.) işarələri

Nəticə: Allah vədindən dönməz

Təkamül yalanı

## Yazıçı və əsərləri haqqında

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v.) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayınlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq "son söz"ü söyləməyi hədəfləmişdir. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhürü bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçıın bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-Hersoqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın

olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc hədəflənməmişdir.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

**Oxucuya**

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi bir yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəslə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət mühiti şəklində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük bir xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görəcək, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

## Müsəlmanların Tövrat və İncilə münasibətləri ilə əlaqədar vacib izahlar

Allah Quranda müsəlmanların peyğəmbərimiz hz. Muhəmmədə (s.ə.s.), ondan əvvəl göndərilən bütün peyğəmbərlərə və bu peyğəmbərlərə verilənlərə iman etdiklərini bildirir. "Bəqərə" surəsinin 4-cü ayəsində Rəbbimiz müsəlmanlar üçün: **"O kəslər ki, sənə göndərilənə və səndən əvvəl göndərilənlərə iman gətirir və axirətə də şəksiz inanırlar", -** deyə buyurur.

Quranda bildirildiyi kimi, İncil, Tövrat, Zəbur və hz. İbrahimin səhifələri keçmişdə yaşamış peyğəmbərlərə endirilmiş kitablardır. Bu kitabların bir qismi yox olmuş, bir qismi də dəyişdirilmişdir. Lakin buna baxmayaraq, içlərində haqq dinə aid çoxlu sayda doğru izah da vardır. Müsəlmanlar bu kitabları Quran və sünnəyə görə qiymətləndirib ayə və hədislərə uyğun olan açıqlamaların doğru olduğuna hüsnü-zənn edirlər. Buna görə də, Quran və sünnəyə uyğun Tövrat və İncil izahlarını müsəlmanlar istifadə edə bilərlər. Ancaq bunların təməli Quran ayələrinə və hədislərə uyğun olmalıdır.

Allah, bu kitabların göndərildikləri dövrdə insanlar üçün yol göstərici olduqlarını bildirmişdir. Ayələrdə belə buyurulur:

**Sənə özündən əvvəlkiləri təsdiq edən Kitabı haqq olaraq O nazil etdi. Tövratı da, İncili də O endirdi. Daha öncə insanları hidayət etmək üçün. Furqanı da O nazil etdi. Allahın ayələrini inkar edənlər şiddətli əzaba düçar olacaqlar. Allah yenilməz qüvvət, intiqam sahibidir! ( Ali-İmran surəsi, 3-4)**

Bir başqa ayədə Tövrat üçün belə bildirilir:

**Şübhəsiz ki, Tövratı da Biz nazil etdik. Onda haqq yol və nur vardır. (Allaha) təslim olan peyğəmbərlər yəhudilər arasında onunla, din alimləri və fəqihlər isə kitabdan qorunub saxlanılanlarla hökm edərdilər. Onlar ona şahiddirlər. İnsanlardan qorxmayın, Məndən qorxun. Mənim ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, kafirdirlər! (Maidə surəsi, 44)**

Oxumaqda olduğunuz bu kitabda da Tövrat və İncildə bəhs olunan axır zaman əlamətləri araşdırılmış və yalnız Qurana və peyğəmbərimizin (s.ə.s.) hədislərinə uyğun açıqlamalardan istifadə edilmişdir.

# Giriş:
# Yaşadığımız axır zaman və Mehdi (ə.s.) müjdəsi

Axır zaman dünyanın son dövrlərini ifadə edən sözdür. İslam əqidəsinə görə, qiyamətdən əvvəlki bu son dövrdə insanlıq ilk olaraq böyük bir pozulma ilə qarşı qarşıya qalacaq. Haqsızlığın, zülmün, aclıq və yoxsulluğun, əxlaqi pozuntunun, müharibə və qarşıdurmaların, qarışıqlıq və anarxiyanın artdığı bu qaranlıq dövr insanların din əxlaqına yönəlmələri ilə sona çatacaq. Yoxsulluğun yerini bolluq, haqsızlığın və zülmün yerini ədalət və anlayış, anarxiya və qarışıqlığın yerini sülh və etibar alacaq, dünya tarixdə heç olmadığı qədər gözəllik və bərəkət içində olacaq. Allah dünyada aydınlıq və bərəkət üçün hz. İsanın yenidən dünyaya zühurunu və "Mehdi" sifətini daşıyan müqəddəs bir şəxsi vəsilə edəcək. Bütün bunlar bizə peyğəmbərimiz (s.ə.s.) tərəfindən müjdələnən, Quranda da işarə edilən çox qiymətli müjdələrdir.

Axır zamanın əlamətlərinin nələr olduğunu, bu dövrdə gəlməli olan hz. Mehdinin xüsusiyyətlərini, hz. Mehdi gəldikdən sonra dünyada nələr olacağını və hz. İsanın dünyaya gəlişini daha əvvəl nəşr etdiyimiz kitablarımızda ətraflı olaraq izah etmişdik. (Ətraflı məlumat üçün baxın: Hz. Mehdinin çıxış əlamətləri və xüsusiyyətləri, Mehdi və Qızıl əsr, Peyğəmbərimizin (s.ə.s.) dilindən hz. Mehdi, Qiyamət əlamətləri, Qızıl əsr, Axır zaman və Dəbbətül-ərz, Hz. İsanın əlamətləri, Axır zamanı Bədiüzzamanla anlamaq, Harun Yəhya)

Bu kitabımızda isə Tövrat, İncil və Qurani-kərimdə hz. Mehdinin çıxış dövrü olan axır zaman əlamətlərinə yer verəcəyik. Həmçinin yəhudilərin "Olam Ha-Ba" (gözlənilən dünya), isəvilərin "Milenyum" (min il) olaraq ifadə etdikləri, peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.s.) isə "Qızıl əsr" olaraq adlandırdığı din əxlaqının hakimiyyət dövrünün xüsusiyyətlərini araşdıracağıq.

Yəhudi qaynaqlarında təsvir edilən istər axır zamanda hz. Mehdinin çıxacağı dövrün əlamətləri, istərsə də hz. Mehdinin hakimiyyətindəki Qızıl əsr dövrü islami qaynaqlarda verilən izahlarla çox bənzərdir. Hər iki dində də insanların din əxlaqından uzaqlaşacaqları, bu səbəblə bir çox çətinliklə qarşılaşacaqları, çətin bir dövrün arxasından gözəl və aydın bir dövrün başlayacağı ifadə edilir. Eyni şəkildə, İncildə izah edilən axır zaman əlamətləri və din əxlaqının hakim olacağı dövrlə əlaqədar izahların çox hissəsi islami qaynaqlarla uyğunlaşır.

Bu kitabda Quran ayələri, peyğəmbərin (s.ə.s.) hədisləri və islam alimlərinin izahlarından əlavə, Tövrat və İncildən bəzi hissələri araşdıraraq hz. Mehdinin çıxışından əvvəlki dövrün əlamətlərinin müasir dövrə nə qədər əks olunduğuna birlikdə baxacağıq.

Həmçinin kitabda Tövratda bəhs olunan və hakimiyyət vəd edilən israiloğulları qövmünün əslində Mehdi camaatı olduğu, Mehdi camaatını təyin edəcək ünsürün nəsil deyil, səmimi iman olduğu vurğulanır. Mehdi (ə.s.) və camaatı Allah üçün etdikləri işlərin müvəffəqiyyətli olması ilə tanınacaq. Allah dinini hakim etmək üçün qədərdə kimi vəsilə etsə, bu xüsusiyyətə malik olanlar da onlar olacaq.

Əsl din əxlaqının bütün dünyaya hakim olması və bu sayədə insanların hər cür maddi-mənəvi çətinlikdən xilas olmaları bütün iman edənlərin arzusudur. Mehdinin (ə.s.) çıxışından əvvəl əlamətlərdə göründüyü kimi, yaşanan bir çox hadisə əsrlərlə gözlənilən bu mübarək dövrün başladığını göstərir. Bütün möminlər kimi, bizim də duamız Allahın bizlərə din əxlaqının dünyaya yayılması üçün aparılacaq fikri mübarizədə iştirak etmə imkanı verməsi və bizləri də bu müqəddəs dövrə şahid etməsidir.

## Mehdinin (ə.s.) çıxışı bütün müqəddəs kitablarda müjdələnir

Dünyanın sonundan əvvəlki dövr, yəni "axır zaman" Allahın bütün müqəddəs kitablarında bildirdiyi bəzi əlamətləri ehtiva edir. Fitnə və qarışıqlığın ən çox yayıldığı, din əxlaqından uzaqlaşmanın və qarışıq həyatın çox qabarıq şəkildə yaşandığı bu xüsusi dövrdə Rəbbimiz "hidayət verici" sifəti ilə hz. Mehdini göndərəcək. Allahın bu əhəmiyyətli vəzifə üçün göndərdiyi hz. Mehdi imanındakı səmimiyyət, güclü Allah sevgisi və qorxusu ilə bütün dünyanın hidayətinə vəsilə olacaq. Allahın diləməsi ilə hz. Mehdi qədərində olan bu üstün vəzifədə müvəffəq olacaq və din əxlaqını bütün dünyaya hakim edəcək.

Bu səbəblə, hz. Mehdinin zühuru dünya tarixinin ən böyük hadisəsidir və bu böyük hadisəyə bütün müqəddəs kitablarda işarə edilir. Hz. Mehdinin gəlişi yalnız peyğəmbər (s.ə.s.) zamanından deyil, minlərlə ildən bu yana bilinən və gözlənilən bir müjdədir. Peyğəmbərimiz (s.ə.s.) hədislərində Allahın vəhyi olan bütün kitablarda hz. Mehdinin zühurunun xəbər verir:

Naim buyurdu ki: Mən hz. Mehdini (ə.s.) peyğəmbərlərin suhufunda (səhifələrdə; Adəm, Şit, İdris və İbrahim peyğəmbərlərə endirilən səhifə şəklindəki

kitablarda) belə tapıram: "Hz. Mehdinin (ə.s.) əməlində nə zülm, nə də eyib yoxdur". (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 21)

Peyğəmbərlərə dair kitablarda "Hz. Mehdinin (ə.s.) işi zülm və pislik deyil" şəklində ifadələr vardır. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 49)

İbni Münavi deyir ki: "Danyalın (ə.s.) kitabında belə yazılıb: "Hz. Mehdi (ə.s.) çıxacaq və Allahu-təala daha əvvəl fəsada düçar olanları və iman əhlini onunla qurtaracaq. Sünnələr onunla canlandırılacaq."". (Bu hədis "Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman adlı kitabın Süleymaniyyə kitabxanasında olan nüsxəsində mövcuddur.)

Bu hədislərdən aydın olur ki, Mehdi mövzusu bütün haqq dinlərin kitablarında yer almışdır. Tövrat və İncildə də hz. Mehdinin gələcəyi, xüsusiyyətlərinin nə olacağı, fəaliyyətləri və vəsiləsi ilə həyata keçəcək din əxlaqının hakimiyyət dövrü minlərlə il əvvəldən bildirilmişdir. Hər nə qədər hazırkı dövrdə təhrif olunmuş halları olsa belə, Tövrat və İncilin pozulmadan qaldığına hüsnü-zənn etdiyimiz hissələrinin Quran ayələri və Peyğəmbərimizin (s.ə.s.) hədisləri ilə uyğun olduğunu görürük.

Allahın vəhyi olan kitablarda minlərlə il əvvəldən hz. Mehdinin çıxışı ilə əlaqədar təriflərin olması, bu hadisənin çox əhəmiyyətli olduğunun bir başqa dəlilidir. Axır zamanda, qiyamətə yaxın bu dövrdə Allahın son xəbərdar edici və müjdə verici olaraq göndərdiyi elçisi hz. Mehdinin xüsusiyyətlərini və fəaliyyətlərini bilmək son dərəcə əhəmiyyətlidir. Həmçinin bu həyati mövzudan hər kəsi xəbərdar etmək və bu mübarək şəxsin mənəvi yardımçısı olmaq bütün iman edənlərin üzərinə düşən əhəmiyyətli bir vəzifədir.

## Hz. İbrahimin hənif dininə tabe olmaq

Müsəlmanlar və kitab əhli: yəhudilər və xristianlar fərqli şəriətlərə malikdir. Ancaq istər yəhudi və xristianlardan, istərsə də müsəlmanlardan səmimi olaraq iman edənlər eyni təməl dəyərlərə görə yaşayırlar: Allaha qəti olaraq iman etmək, Allaha heç bir şeyi şərik qoşmamaq, Allahın razılığı, rəhməti və cənnəti üçün yaşamaq. Bütün cəmiyyətlər Allahın özlərinə əmr etdiklərini əskiksiz olaraq yerinə yetirməklə və Allah rızası üçün Rəbbimizə könüldən təslim olub xeyir işlərdə yarışmaqla məsuldurlar. Allahın varlığına və birliyinə inanan, axirətə qəti iman edən və saleh əməllər işləyən hər üç ilahi dinin mənsubları da əslində Rəbbimizin hz. İbrahimə endirdiyi haqq dinə tabedirlər.

Hz. İbrahim Allahın özünə dost seçdiyi mübarək və seçilmiş peyğəmbərlərdən biridir. Göndərildiyi cəmiyyəti şirkdən uzaqlaşdıraraq bir və tək olan Rəbbimizə iman etməyə dəvət etmiş, səmimiyyət və gözəl əxlaqı ilə bütün iman edənlərə nümunə olmuş saleh bir quldur. Quranda Allah iman edənlərə hz. İbrahim kimi könüldən təslim olaraq iman etmələrini bildirmişdir:

**Yaxşı əməl sahibi olun ozünü Allaha təslim edən, İbrahimin hənif millətinə tabe olan şəxsdən din etibarilə daha gözəl kim ola bilər? Həqiqətən, Allah İbrahimi dost tutmuşdur! (Nisa surəsi, 125)**

Quranda hz. İbrahimin dininin "hənif" din olduğu bildirilir. Hənif sözü "Allahın əmrinə təslim olan, Allahın dinindən heç bir mövzuda dönməyən ixlaslı adam" mənasındadır. Bir ayədə Rəbbimiz peyğəmbərimiz hz. Muhəmmədə (s.ə.s.) hz. İbrahimin hənif dininə tabe olmasını belə bildirmişdir:

**Sonra sənə: "Batildən haqqa dönərək müşriklərdən olmayan İbrahimin dininə tabe ol!" - deyə vəhy etdik. (Nəhl surəsi, 123)**

Hz. İbrahimdən sonra oğulları, nəvələri və onun nəslindən olan digər saleh möminlər Allahın hz. İbrahimə vəhy etdiyi haqq dinə tabe olaraq yaşamışlar. Bu həqiqət Quran ayələrində bu şəkildə bildirilir:

**Özünü səfehliyə qoyanlardan başqa kim İbrahimin dinindən üz çevirər? Həqiqətən, Biz onu dünyada seçdik. Şübhə yoxdur ki, o, axirətdə də əməlisaleh olanlardandır. Rəbbi İbrahimə: "Təslim ol!", -dedikdə, o: "Aləmlərin Rəbbinə təslim oldum!" - deyə cavab vermişdi. İbrahim və Yəqub bunu öz oğlanlarına vəsiyyət edib: "Ey oğlanlarım, həqiqətən, Allah sizin üçün din seçdi, siz də ancaq müsəlman olaraq ölməlisiniz!" Yoxsa Yəqubun ölümü yetişdikdə siz onun yanında idiniz?! O: "Məndən sonra nəyə ibadət edəcəksiniz?" - deyə oğlanlarından soruşduğu zaman, onlar: "Sənin Allahına və ataların - İbrahimin, İsmailin və İshaqın Allahı olan tək Allaha təslim olacağıq!", - dedilər. (Bəqərə surəsi, 130-133)**

Yuxarıdakı ayələrdən də aydın olduğu kimi, "müsəlman" sözünün mənası "Allaha təslim olan insan" deməkdir. Hz. İbrahimin hənif dini Allaha təslim olan yəhudilər, xristianlar və müsəlmanlar arasında ortaq sözdür. Hz. İbrahimə iman etmək, ona sevgi və hörmətlə yanaşmaq, yəhudi və xristianlar üçün olduğu kimi, müsəlmanlar üçün də son dərəcə əhəmiyyətlidir. Ancaq unutmamaq lazımdır ki, Allaha olan güclü imanı, dərin sevgisi, Rəbbimizin bütün əmrlərinə könüldən itaəti və üstün əxlaqı ilə bütün inananlara nümunə olan hz. İbrahimə ən yaxın olanlar, heç şübhəsiz, ona və təbliğ etdiyi əxlaqa tabe olanlardır. Rəbbimiz Quranda belə buyurur:

**Şübhəsiz ki, insanların İbrahimə ən yaxın olanı onun ardınca gedənlər, bu Peyğəmbər və ona iman gətirənlərdir. Allah möminlərin dostudur! (Ali-İmran surəsi, 68)**

Bu səbəbdən, Allaha könüldən iman edən yəhudi və xristianlar hz. İbrahim və ona tabe olan saleh möminlər kimi, yalnız Allaha yönəlməli, hz. İbrahimin göstərdiyi gözəl əxlaqı, səmimiyyəti və dərinliyi nümunə götürməlidirlər. Şübhəsiz, inananların Peyğəmbərə olan sevgilərini, itaət və yaxınlıqlarını göstərmələrinin ən gözəl yollarından biri onlar kimi saleh olmaq üçün səy göstərməkdir. Müsəlmanlar isə Rəbbimizin Quranda əmr etdiyi kimi, bütün peyğəmbərlərə endirilənlərə heç bir ayrı seçkilik etmədən iman edirlər.

**Belə deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladına göndərilənlərə, Musaya və İsaya verilənlərə, Rəbbi tərəfindən peyğəmbərlərə verilən şeylərə inanmışıq. Onlardan heç birini digərindən ayırmırıq. Biz ancaq Allaha boyun əyən müsəlmanlarıq!" (Bəqərə surəsi, 136)**

Həmçinin bunu da xatırlatmaq lazımdır ki, tarix boyu bütün peyğəmbərlər Allah qatında haqq olan din əxlaqını insanlara təbliğ etmişlər. Hz. İbrahim, hz. Yaqub, hz. Yusif, hz. Musa, hz. İsa, hz. Nuh, hz. Şüeyb və digər peyğəmbərlərin hamısı insanları bir və tək olan Allaha şəriksiz olaraq iman etməyə, yalnız Onun razılığı üçün yaşamağa və Onun əmrlərini yerinə yetirməyə dəvət etmişlər. Bir ayədə belə deyilir:

**Allah: "Dini doğru-dürüst tutun, onda ayrılığa düşməyin!" - deyə Nuha tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, İbrahimə, Musaya, və İsaya tövsiyə etdiyini dində sizin üçün də qanuni etdi. Sənin dəvət etdiyin müşriklərə ağır gəldi. Allah istədiyi kimsəni özünə seçər və tövbə edib Ona tərəf qayıdan kimsəni də doğru yola yönəldər! (Şura surəsi, 13)**

Göründüyü kimi, yəhudilərə və xristianlara (bəzi hökm fərqləri olmaqla birlikdə) endirilən din eynidir. Hər üç dinin mənsubları da əslində hz. İbrahimin nəvələridir. Yəhudi və xristianlar da eyni ilə müsəlmanlar kimi, heç şərik qoşmadan hz. İbrahimin hənif (Tövhid: bir Allaha inanıb yalnız Ona qulluq etmək) dininə tabe olmaqla məsuldurlar. Bir Quran ayəsində Rəbbimiz bütün iman edənlərə hz. İbrahimin dininə tabe olmaqla məsul olduqlarını belə bildirir:

**"Doğru yolu tapmaq üçün yəhudi, yaxud da xaçpərəst olun!" - deyirlər. Sən de: "Biz batildən haqqa tapınan İbrahim dinindəyik, çünki o, Allaha şərik qoşanlardan deyildi. (Bəqərə surəsi, 135)**

Yəhudi və xristianların müqəddəs kitablarında yazılan bir çox ifadə, əmr və əxlaqi məsuliyyətlərin Qurani-kərimlə eyni olması da əhəmiyyətli bir işarədir. (Əlavə məlumat üçün baxın: *"Gəlin birlik olaq", Harun Yəhya)*

## Axır zamanda dünyaya din əxlaqı hakim olacaq

Allah Quranda haqq din olan islam əxlaqını bütün dünyaya hakim edəcəyini, inanan qullarına güc və iqtidar verəcəyini vəd etmişdir. Allahın izni ilə gerçəkləşəcək olan bu vəd Quranda belə bildirilir:

**Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə - yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə - onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, onlar üçün onların Allahın Özü bəyəndiyi dinini möhkəmləndirəcəyini və onların qorxusunu sonra əmin-amanlıqla əvəz edəcəyini vəd buyurmuşdur. Bundan sonra küfr edənlər, şübhəsiz ki, əsl fasiqlərdir! (Nur surəsi, 55)**

**Onlar Allahın nurunu öz ağızları ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, öz nurunu tamamlayacaqdır. Müşriklərin xoşuna gəlməsə də, onu bütün dinlərdən üstün etmək üçün Öz Peyğəmbərini hidayət və haqq dinlə göndərən Odur! (Saf surəsi, 8-9)**

**Onlar Allahın nurunu ağızları ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq öz nurunu tamamlamaq istər. Müşriklərin xoşuna gəlməsə də, onu bütün dinlərin fövqündə etmək üçün Öz Peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur! (Tövbə surəsi, 32-33)**

Quranda bildirildiyi kimi, islam əxlaqının hakimiyyəti Allahın vədidir. Rəbbimiz bu vədini, şübhəsiz, yerinə yetirəcək. Dünyaya Rəbbimizin qatında haqq olan din əxlaqı hakim olacaq. Bu dinin hz. İbrahimin hənif olan dini, yəni islam əxlaqı olduğu isə son haqq kitab olan Quranda bu şəkildə bildirilmişdir:

**Allah yanında din, əlbəttə, islamdır. Kitab verilmiş şəxslər ancaq bildikdən sonra aralarındakı paxıllıq üzündən ixtilafa başladılar. Allahın hökmlərini inkar edənlərlə, şübhəsiz ki, Allah tezliklə haqq-hesab çəkəcəkdir. (Ali-İmran surəsi, 19)**

Həmçinin Quranda möminlərin bir lideri olduğu da bildirilir. Yaşadığımız bu dövrdə (axır zamanda) isə Peyğəmbərimizin (s.ə.s.) mütəvatir hədislərində bildirildiyi kimi, islam əxlaqının hakimiyyətində möminlərin lideri hz. Mehdi olacaq.

Bir çox hədisdə hz. Mehdinin adının Peyğəmbərimizin (s.ə.s.) adına "müvafiq", yəni "uyğun" olacağı da bildirilir. Bu hədislərdən bəziləri belədir:

Ey insanlar, şübhəsiz, Allahu-təala zalımları, münafiqləri və onlara tabe olanları əməllərindən daşınmağa çağırmış və sizə ümməti-Muhəmmədin ən xeyirlisini və Məkkədə olanı, adı Əhməd, atasının adı Abdullah olan hz. Mehdini rəhbər etmişdir. Ona tabe olun. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh 31)

Göydən belə bir səs eşidiləcək: "Ey insanlar, artıq Allah cabbarları, münafiq və köməkçilərini sizdən uzaqlaşdırdı. Ümməti-Muhəmmədin ən xeyirlisini sizə hakim gətirdi. Məkkədə ona qoşulun. O, Mehdidir. Adı da Əhməd bin Abdullahdır".

Digər bir rəvayət: "Sizə Muhəmməd ümmətinin ən xeyirlisi olan Cabiri təyin etdi. Məkkədə ona qoşulun. O, Mehdidir. Adı Muhəmməd bin Abdullahdır!" (Qiyamət əlamətləri, Mədinəli Əllamə Muhəmməd bin Rəsul əl-Hüseyn əl-Bərzənci, Pambıq nəşriyyat, 8-ci nəşr, səh. 165)

Peyğəmbərimizin (s.ə.s.) adı olan "Muhəmməd" və hədislərdə Mehdiyə işarə edən "Əhməd" adları ərəbcədə eyni kökdən gəlir: "Əhməd" daha çox təriflənməyə layiq, ən çox mədh edilmiş olan mənasını verərkən, "Muhəmməd" dəfələrlə təriflənmiş, mədh edilmiş mənasını verir. Bu səbəbdən, mənaları hədislərdə ifadə edildiyi kimi, bir-birinə "müvafiq", yəni "uyğun"dur. Mövzu ilə əlaqədar işari mənada bir ayədə isə belə bildirilir:

**"... məndən sonra adı Əhməd olan bir elçinin də müjdələyicisiyəm" demişdi... (Saff surəsi, 6)**

Yəhudi qaynaqlarında isə bu şəxsə "Məsih" (yaxud müqəddəs hesab edilmiş kral) deyilir. Ancaq əhəmiyyətli olan bu şəxsə nə ad verildiyi deyil. Bu mübarək şəxs müxtəlif şəkillərdə də adlandırıla bilər. Əsas olan Allahın "İslam əxlaqının hakimiyyəti" vədinin gerçəkləşəcəyi və bu hadisəyə vəsilə olacaq xalis möminlərdən bir qrup və onlara başçılıq edəcək mübarək bir şəxsin olacağıdır.

## Yəhudilərin "Məsih", müsəlmanların "Mehdi" olaraq gözlədikləri eyni mübarək şəxsdir

İlahi dinlərdə "gözlənilən xilaskar" olaraq da ifadə edilən "Məsih" termini müsəlmanlarda "Mehdi" inancının təzahürüdür. İslamdakı "Mehdiyyət" anlayışı yəhudilərin müqəddəs qaynaqlarında "Məsih" olaraq ifadə olunur. Ancaq xristianların "Məsih" olaraq dünyaya ikinici gəlişini gözlədikləri hz. İsa "Mehdi" (ə.s.) deyil. Müsəlmanlar da hz. İsanın axır zamanda yenidən dünyaya gələcəyinə

inanırlar, ancaq hz. İsa gəldiyində Mehdiyə (ə.s.) tabe olacaq. Allahın izni ilə yeganə haqq din olan islam dininin dünyaya hakim olmasına bu iki mübarək insan birlikdə vəsilə olacaqlar.

Peyğəmbərimizdən (s.ə.s.) nəql edilən səhih rəvayətlərə görə, "Hz. İsa namazını hz. Mehdinin arxasında qılacaq." (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 24) Bu rəvayət digər hədislərdə belə bildirilir:

Hz. İsa səmadan nüzul edəcək və onun əmirliyini qəbul edəcək. Hz. İsaya "bizə namaz qıldır" deyiləcək, ancaq o, "əmir sizin içinizdədir" cavabını verərək: "Bu Allahın ümməti-Muhəmmədə bir hədiyyəsidir", -deyəcək. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 24)

Hz. Mehdi möminlərlə birlikdə Beytul-müqəddəsdə səhər namazı qılarkən bu zaman nüzul edən Hz. İsanı namaz qıldırmağa dəvət edəcək və hz. İsa əllərini onun çiyninə qoyaraq: "Namazın iqaməsi sənin üçün gətirildi, buna görə namazı sən qıldır", -deyəcək və nəhayət hz. Mehdi hz. İsa və möminlərə imam olaraq namazı qıldıracaq. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, sf. 25)

Peyğəmbərimizin (s.ə.s.) səhih hədislərində hz. İsa və hz. Mehdinin eyni dövrdə zühur edəcəkləri və İslam əxlaqını bütün dünyada yaymaq üçün birlikdə mübarizə aparacaqları bildirilmişdir. Bir çox səhih hədisdə bildirilən bu məlumatlar hz. İsa ilə hz. Mehdinin ortaya çıxdıqları dövrdə bir yerdə və qarşılıqlı ünsiyyətdə olacaqlarını göstərir.

Yəhudilərin gözlədikləri Məsih isə əslində Mehdidir (ə.s.). Yəhudi yazılarında Məsih termini bütün krallar, yüksək rahiblər, bəzi döyüşçülər üçün də istifadə edilmişdir. Dolayısı ilə, "Məsih" anlayışı yəhudilikdə "Allaha xidmətlə vəzifələndirilmiş, Ona yaxın" kəsləri xarakterizə edən bir sifət olaraq istifadə edilir. Ancaq yəhudilərin hazırda gözlədikləri Məsih Allah tərəfindən axır zamanda dünyaya göndəriləcək və dünyanı hakimiyyəti altına alaraq insanları Allaha, Onun doğru yoluna yönəldəcək bir elçi, bir dini liderdir. Bu xüsusiyyətlər də müsəlmanların gözlədikləri Mehdiyə (ə.s.) aiddir.

Həmçinin Tövrata və yəhudilərin digər müqəddəs qaynaqlarına baxıldığında "Məsih" olaraq izah edilən şəxsin Mehdinin (ə.s.) xüsusiyyətlərinə sahib olduğu, fəaliyyətlərinin və dünyada vəsilə olacağı dəyişikliklərin də eyni olduğu görülür. Bu səbəbdən, yəhudilərin axır zamanda gözlədikləri Məsih əslində Mehdidir (ə.s.).

Peyğəmbərimizin (s.ə.s.) hədislərində hz. Mehdinin peyğəmbər nəsli olan israiloğullarına bənzədilməsi bu baxımdan mənalıdır. Bəhs olunan hədislərdən bir qismi belədir:

**Hz. Mehdinin boyu, bədən quruluşu sanki israiloğulları görünüşündədir.** (əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 36-29)

**Cismi İsrail cismidir.** (Kitabül-bürhan fi ələmətil-Mehdiyyil-axır zaman, səh 24)

**Mehdi sanki israiloğullarından bir nəfərdir.** (Davranışları onlara bənzəyir, yəni heybətli və ağıllıdır.) (Kitabül-bürhan fi ələmətil-Mehdiyyil-axır zaman, səh 23-30)

**Hz. Mehdinin bədəni israilidir.** (İbn-Həcər əl-Məkki)

**Cismi İsrail bünyəsi kimidir.** (Məriy bin Yusif bin Əbu Bəkir bin Əhməd bin Yusif əl-Məqdisi "Fəvaidu-fəvaidil-fikir fil imam əl-Mehdi əl-Müntəzər")

**(Xarici görünüşü) sanki israiloğullarından bir insana bənzəyir.** (Ukaylı "ən-Nəcmus-sakıb-fi-bəyan Ənnəl Mehdi bin Əli bin Əbu Talib vəl-kamal")

**Sanki o, israiloğullarından bir şəxs kimidir.** (Nuaym bin Həmmad, vr. 52a; Məriy bin Yusif bin Əbu Bəkir bin Əhməd bin Yusif əl-Makdisi "Fəvaidu-fəvaidil-fikir fil imam əl-Mehdi əl-Müntəzər")

Allah Quranda hz. İbrahimi və onun nəslindən gələnləri seçdiyini və onları mübarək etdiyini bildirir. (Bəqərə surəsi, 130; Ali-İmran surəsi, 33) Bu, yəhudilərin müqəddəs kitabı Tövratda da bildirilir. (Yaradılış, 22:17; 12:2)

## Yəhudi qaynaqlarında hz. İbrahimin nəslinə vəd edilən hakimiyyət və Mehdinin (ə.s.) hz. İbrahimin nəslindən olması

Hz. İbrahimin nəsli iki oğlu olan hz. İsmayıl və hz. İshaqla davam etmişdir. Hz. İshaqın nəslindən olan israiloğullarına tarix boyu bir çox peyğəmbər gəlmişdir: hz. Yaqub, hz. Yusif, hz. Musa, hz. Harun, hz. Yunis, hz. Əyyub, hz. İlyas, hz. Davud, hz. Süleyman, hz. Zəkəriyya, hz. Yəhya və hz. İsa. Hz. İsmayılın nəslindən isə islam peyğəmbəri hz. Muhəmməd (s.ə.s.), onun ailəsindən gələn imamlar və ən son olaraq da imam Muhəmməd əl-Mehdi gəlir.

Dolayısı ilə, Tövratda bəhs olunan israiloğulları, ishaqoğulları və ismayiloğullarının hamısı İbrahimin nəslindəndir. Hamısı Allahın mübarək etdiyi nəsil olan hz. İbrahimin soyudur. İbrahimi dinlərdə "hidayət verən" sifəti ilə tanınan, axır zamanda gələcək və din əxlaqının dünyaya hakimiyyətinə vəsilə olacaq olan mübarək şəxs də hz. İbrahimin nəslindəndir. Dolayısı ilə, Mehdi (ə.s.) hz. İbrahimin nəslindən sayılır.

### Allah hz. İbrahimin nəslinə hakimiyyət vəd etmişdir

Allah hakimiyyətini gerçəkləşdirmək üçün hz. İbrahim nəslinin iki qolundan gələn son nümayəndələri qorumuşdur. Axır zamanda əmrinin gerçəkləşməsi üçün imam əl-Mehdi və İsa peyğəmbəri birlikdə göndərəcək. Quranda və peyğəmbərimizin (s.ə.s.) hədislərində bildirilən bu hakimiyyət dövrü Tövratda hz. İbrahimin nəslindən gələn bir birliyə vəd edilir və belə bildirilir:

Səni çox mübarək edəcəyəm, sənin nəslini göylərin ulduzları kimi, dəniz kənarında olan qum kimi çoxaldacağam. Sənin nəslin düşmənlərin qapısına hakim olacaq və nəslinin vasitəsi ilə dünyada bütün millətlər xöşbəxt olacaqlar, çünki sözümü dinlədin. (Yaradılış, 22:17-18)

Və Rəbb Abrama (İbrahimə) dedi ki: ... səni üstün edəcəyəm və səni mübarək edəcəyəm və sənin adını məşhur edəcəyəm və səni mübarək edənləri mübarək edəcəyəm və sənə lənət edənə lənət edəcəyəm və dünyanın bütün qəbilələri səndə mübarək olacaq. (Yaradılış, 12:1-3)

Nəslini göydəki ulduzlar qədər çoxaldacağam. Bu ölkələrin hamısını onlara verəcəyəm. Dünyada bütün xalqlar sənin nəslin vasitəsi ilə müqəddəs hesab ediləcək. (Yaradılış, 26:4)

Dünya tozu qədər saysız bir nəslə sahib olacaqsan. Şərqə, qərbə, şimala, cənuba doğru yayılacaqsınız. Dünyada bütün xalqlar sən və nəslin vasitəsi ilə müqəddəs hesab ediləcək. (Yaradılış, 28:4)

Tövratda dünyanın son dövründə Allaha könüldən iman edənlərin dünyada güc sahibi olacaqlarını, din əxlaqının dünyaya hakim olacağını izah edən hissələrdən bir qismi bu şəkildədir:

Allah buyurdu:... and olsun ki, bütün dünya Allahın cəlalı ilə dolacaq. (Saylar, 14:21)

Təvazökarlara gəlincə, onlar dünyanın varisi olacaqlar... Pislərin biləkləri qırılacaq və Allah doğruların dayağıdır. Allah salehlərin günlərini bilir və onların mirası əbədi olacaq. (Məzmurlar, 37:11, 17-18)

Dünyanın dörd tərəfi də Rəbbə dönəcək, xalqların bütün nəsilləri Onun qarşısında əyiləcəklər. Çünki hakimiyyət Rəbbindir... (Məzmurlar, 22:27-28)

Çünki pislərin kökü kəsiləcək, amma Rəbbə ümid bağlayanlar sevinəcəklər. Yaxında pisin sonu gələcək, yerini axtarsan da, tapmayacaqsan. Amma təvazökarlar hüzurun zövqünü dadacaqlar... (Məzmurlar, 37:9-11)

Çünki pislərin gücü kəsiləcək, amma doğrulara Rəbb dəstək olacaq... pislər dağılacaqlar; Rəbbin düşmənləri tarla çiçəkləri kimi quruyub gedəcəklər, tüstü kimi dağılıb yox olacaqlar. (Məzmurlar, 37:17-20)

Rəbbə ümid bağla, Onun yolunu tut... Amma baş qaldıranlardan hamısı yox olacaq... Doğruların qurtuluşu Rəbdən gəlir... Rəbb onlara kömək edər, qurtarar onları, pislərin əlindən alıb azad edər, çünki Özünə sığınarlar. (Məzmurlar, 37:34, 39-40)

Bunlardan da aydın olduğu kimi, Tövratda xəbər verilən hakimiyyət müəyyən bir qrupun və ya irqin digər cəmiyyətlər üzərində güc və iqtidar sahibi olması deyil, Allahın bütün insanlara əmr etdiyi həqiqi din əxlaqının dünyaya hakim olmasıdır. Bununla yanaşı, Tövratda yəhudilərin sözdə irqi üstünlüyünə və hakimiyyətinə işarə edən ifadələr də vardır. Sözü gedən ifadələr Tövratın endirildiyi dövrdə yaşayan səmimi möminlərə xəbər verilən müjdələrin səhv nəql olunmasından və bu səhvlərin Hz. Musanın ardından Tövrata daxil edilməsindən qaynaqlanır. Bəzi yəhudilərin bütün bunları din əxlaqına uyğun olmayacaq şəkildə öz irqlərinin və ya cəmiyyətlərinin dünyaya hakim olması şəklində izah etmələri də həqiqəti əks etdirmir.

Belə ki, islamiyyətdə olan “din əxlaqının hakimiyyəti” anlayışı da dünyada din əxlaqının yaşanmamasından qaynaqlanan pislik və çətinliklərin din əxlaqının yaşanmağa başlanması ilə ortadan qalxması və gözəl əxlaqın yayılmasını ifadə edir. Müsəlmanların arzusu uca Rəbbimizin əmr etdiyi əxlaqın, yəni birləşmənin, ədalətin, dürüstlüyün, sədaqətin, bağışlayıcı olmağın, mərhəmətin insanlar arasındakı münasibətlərdə əsas olması, hər kəsin Allahın razılığını qazanmaq üçün ən gözəl əxlaqı göstərməklə yarışdığı bir mühitin təsis edilməsidir. Belə bir

mühitin təmin edilməsi, heç şübhəsiz, hər cür problemi aradan qaldırar. Bu anlayışa sahib olan müsəlmanların məqsədi güc və iqtidar sahibi olmaq deyil, Allah özlərinə belə bir nemət lütf etsə, bu neməti din əxlaqını daha çox yaymaq üçün ən yaxşı şəkildə istifadə etməkdir. Möminlərin bu gözəl xüsusiyyəti bir Quran ayəsində bu şəkildə xəbər verilmişdir:

**O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək, namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin sonu Allaha aiddir. (Həcc surəsi, 41)**

## Tövratda hakimiyyət vəd edilən birliyin xüsusiyyətləri

Allah yəhudiləri haqq dinə sadiq qaldıqları, peyğəmbərlərə itaət etdikləri və yalnız Allaha könüldən iman etdikləri təqdirdə üstün edəcəyini bildirmişdir. Allahın hakimiyyət vəd etdiyi qullarının xüsusiyyətləri Tövratda belə bildirilir:

Tabe olmanız üçün sizə bildirdiyim bu əmrləri əskiksiz yerinə yetirər, Rəbbi sevər, yolunda gedər və Ona bağlı qalsanız, sizdən daha böyük, daha güclü xalqların torpaqlarını əldə edəcəksiniz. Ayaq basacağınız hər yer sizin olacaq... (Qanunun təkrarı, 11:22-24)

Allah israiloğullarına hakimiyyət üçün Özünə bağlılığı, Allahın əmrlərini əskiksiz yerinə yetirməyi və Allah sevgisini vacib saymışdır. Tövratdakı bu hissənin davamında isə yəhudilərə iki yol göstərildiyi, imanı seçsələr, nemət, imandan üz çevirsələr, bəla ilə qarşılaşacaqları belə bildirilir:

Və baxın, bu gün önünüzə müqəddəs hesab etməyi və lənəti qoyuram: Bu gün sizə bildirdiyim Allahınız Rəbbin əmrlərini əməl etsəniz, müqəddəs hesab ediləcəksiniz. Amma Allahınız Rəbbin əmrlərini dinləməz, bilmədiyiniz başqa ilahların ardınca gedərək bu gün sizə buyurduğum yoldan uzaqlaşsanız, lənətə uğrayacaqsınız. (Qanunun təkrarı, 11:26-28)

Hakimiyyət vəd edilən birliyin xüsusiyyətləri Tövratın digər hissələrində belə bildirilir:

.. Allahın Rəbb, Allah Odur, Özünü sevənlər və əmrlərinə riayət edənlər üçün min nəslə qədər əhdi və inayəti qoruyan,... sadiq Allahdır... (Qanunların təkrarı, 7: 9-10)

Allahınız Rəbbi sevin, sözünə tabe olub Ona bağlanın... söz verdiyi ölkədə uzun müddət yaşamanızı təmin edəcək. (Qanunların təkrarı, 30:20)

Allahınız Rəbb əl atdığınız hər işdə sizi müvəffəq edəcək; çoxlu sayda uşağınız olacaq, heyvanlarınızın balaları, torpağınızın məhsulu bol olacaq. Rəbb atalarınızdan necə razı qaldısa, sizdən də elə razı qalacaq və sizi müvəffəqiyyətli edəcək. Təki Allahınız Rəbbin sözünü dinləyin, bu Qanun kitabında yazılı əmrlərinə, qaydalarına tabe olun və bütün ürəyinizlə, bütün canınızla Ona dönün. (Qanunların təkrarı, 30:9-10)

Tövratdan bir başqa hissədə isə hakimiyyətin Allahdan qorxanlara vəd edildiyi bildirilir:

Rəbdən qorxan o adam kimdir?... Canı salamat olacaq; onun nəsli dünyanın varisi olacaq. Rəbbin sirrini ondan qorxanlar anlayacaq... (Məzmurlar, 25:12-14)

Yenə Tövratda Allaha təvəkkül edən (etibar edən), təvazökar olan, Allaha imandan həzz alan kəslərin hakimiyyətə və Allahın nemətlərinə varis olduqları bildirilir:

Sən Rəbbə etibar et və yaxşılıq et... Rəbbdən zövq al, O sənin içindəki istəkləri yerinə yetirəcək. Hər şeyi Rəbbə burax, Ona etibar et... Rəbbə ümid bağlayanlar dünyanın varisi olacaqlar... təvazökarlar ölkəni miras alacaqlar, dərin bir hüzurun zövqünü dadacaqlar. (Məzmurlar, 37:3-11)

Əgər Allahın olan Rəbbin əmrlərinə tabe olsan və Onun yolunda getsən,... sizə söz verdiyi ölkədə bolluq içində yaşamanızı təmin edəcək: Rəbbinizin meyvəsi müqəddəs hesab ediləcək, heyvanlarınızın balaları, torpağınızın məhsulu bol olacaq. Rəbb ölkənizə yağışı vaxtında yağdırmaq və bütün əməyinizi məhsuldar etmək üçün göylərdəki zəngin xəzinəsini açacaq. Bir çox xalqa borc verəcəksiniz, siz borc almayacaqsınız. Və əgər bu gün sənə əmr etməkdə olduğum Allahın olan Rəbbin əmrlərinə tabe olmaq üçün onları dinləsən və başqa ilahlara qulluq etmək məqsədi ilə onların ardınca getmək üçün bu gün sənə əmr etməkdə olduğum bütün sözlərdən sağa və sola dönməsən, Rəbb səni quyruq deyil, baş edəcək və ancaq üstün olacaqsan. (Qanunun təkrarı, 28:9-14)

Tövratda hakimiyyət vəd edilən birliyin xüsusiyyətləri toplu olaraq qiymətləndirildiyində Allahın hakimiyyət nəsib edəcəyi kəslər bu xüsusiyyətlərə sahib olacaqlar:

-Allah yolunda yaşamaq

-Hər şeyi ilə yalnız Allaha dönmək

-Allahın əmrlərini əskiksiz yerinə yetirmək

-Allahı sevmək

-Allahdan qorxmaq

-Allaha şərik qoşmamaq

-Allaha bağlı və sadiq olmaq

-Allaha etibar etmək

-Allaha olan imandan zövq almaq

-Yaxşılıq etmək

-Təvazökar olmaq

Tövratda bildirilən hakimiyyət səmimi olaraq iman edənlərə müjdələnən haqq din əxlaqının hakimiyyətidir. Bu haqq din isə **"Kim İslamdan başqa bir din axtarsa, əsla ondan qəbul edilməz..." (Ali-İmran surəsi 85)** ayəsində buyurulduğu kimi, Allah qatında İslamdır.

## Tövratda israiloğulları kimi xitab edilən qövm Mehdi camaatıdır

Axır zamanda gələcək Mehdinin (ə.s.) və camaatının xüsusiyyətləri, vəsilə olacaqları müjdəli dövr İbrahimi dinlərin öz müqəddəs qaynaqlarında çox ətraflı təsvir edilir. Hikmətli bir şəkildə rəvayət olunan bütün bu izahlar hər üç dində də bir-birinə uyğun gəlir. Bundan əsrlərlə əvvəl təsvir edilən bir mühitin müasir dövrdə yüzlərlə dəlilə tam olaraq uyğun gəlməsi bizlərə Mehdinin (ə.s.) çıxışının çox yaxın olduğunu göstərir.

Peyğəmbərimizin (s.ə.s.) hədislərinə görə, hz. Mehdi və camaatı bütün dünya insanlarının gələcəyi üçün çox əhəmiyyətli və çox faydalı işlər gördükləri halda, ilk dövrlərdə tanınmayacaqlar və çox az saydakı mömin topluluğundan başqa onlara yardım edən olmayacaq. Ancaq iman gözü ilə baxanlar hz. Mehdini və camaatını üstün qənaətləri ilə tanıyacaqlar. Bu mübarək şəxsin Mehdiliyi, mehdiyyət mövqeyinə sahib olması Allahın dinini yaymaqdakı müvəffəqiyyəti ilə dəqiqləşəcək. Bir ayədə kitab əhlinin Peyğəmbərimizi (s.ə.s.) "uşaqlarını tanıyırmış kimi" tanıyacaqları bildirilir:

**Kitab verdiyimiz şəxslər onu öz oğullarını tanıdıqları kimi tanıyırlar. Onların bir qismi, şübhəsiz ki, həqiqəti bilə-bilə gizlədir. (Bəqərə surəsi, 146)**

Bu ayə işari mənada hz. Mehdinin tanınacağına da işarə edir. (Doğrusunu Allah bilir). Hz. Mehdi də ortaya çıxdığında Peyğəmbərimizin (s.ə.s.) təsvirləri ilə insanlar onu uşaqlarını tanıyırmış kimi tanıyacaqlar. Ancaq buna baxmayaraq, bəzi insanlar bu mübarək şəxsi tanımamazlıqdan gələcək və inkar edəcəklər.

**Allahın hakimiyyət vədində ölçü irq deyil, saf imandır**

Bəzi yəhudilər Tövratda hakim olacaq birliyin yəhudi irqi olduğunu iddia edirlər. Ancaq axır zamanda reallaşacaq haqq din əxlaqının hakimiyyəti nəsil üstünlüyü ilə deyil, iman və əxlaq üstünlüyü ilə olacaq.

Hazırki dövrdə yəhudilərin böyük qisminin belə imana və din əxlaqını dünyaya hakim edəcək əxlaqi üstünlüyə malik olmadıqları aydın görünür. (İçlərindən Allaha səmimi iman edənlərdən başqa). Məlumdur ki, Tövratda bəhs edilən və hakimiyyət vəd olunan birliyin xüsusiyyətlərinə kim sahibdirsə, Allah din əxlaqının hakimiyyətinə onları vəsilə edəcək. Başqa cür desək, din əxlaqını hakim edəcək olanlar: səmimi olaraq iman edən, Allahdan qorxan, Allahın bildirdiyi əxlaqı qoruyan, könüldən təslim olan, şəfqəti, mərhəməti və sevgini yaşayan möminlərdir. Hakimiyyət bir cəmiyyətə və ya bir irqə deyil, səmimi möminlərə vəd edilmiş bir müjdədir.

Bir insanın yalnız yəhudi qövmündən olduğu üçün özünə hakimiyyət vəd edildiyini düşünməsi isə çox böyük səhv olar. Önəmli olan bir kimsənin yəhudi olub olmaması deyil, Allaha, din əxlaqına və peyğəmbərlərə olan bağlılığı, sədaqəti, itaəti və təslimiyyətidir. Bir insan Allahın varlığını qəbul etmirsə və ya Allahın qüdrətini lazımi kimi təqdir edə bilmirsə, dinə inanmırsa, yaxud da din əxlaqını tam mənası ilə yaşamırsa və peyğəmbərlərə inanıb onların mübarək sünnələrini davam etdirmirsə, bu insanın hansı irqə və ya nəslə mənsub olduğunun bir mənası yoxdur. Allaha inanmayan, Ona könüldən təslim olmayan bir kimsənin hz. İbrahimin, hz. Yaqubun, hz. Musanın nəslindən olması bir məna kəsb etməz, çünki bu insan mübarək peyğəmbərləri rədd etmişdir. Bir kimsənin iman sahibi olmadan yalnız peyğəmbərlər nəslindən gəlməsi o şəxsi mübarək etmir. Hz. İbrahimi, hz. İshaqı, hz. Yaqubu və hz. Musanı qəbul etməyən, Allahı sevməyən, Allahdan qorxmayan bir insanın hansı nəsildən gəldiyinin Allah qatında bir əhəmiyyəti yoxdur. Allah Quranda insanı dəyərli edən tək ölçünün təqva olduğunu bildirmişdir:

**Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır. Həqiqətən, Allah biləndir, xəbərdardır. (Hucurat surəsi, 13)**

Bir başqa ayədə isə təqva sahibləri üçün belə buyurulur:

**Bunlar sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Bundan qabaq onları nə sən, nə də ümmətin bilirdi. Səbr et. Həqiqətən, (gözəl) aqibət müttəqilərindir! (Hud surəsi, 49)**

Təqva sahibi olanlar: Allah yolunda səmimi səy göstərərək nəticəsini Allahdan ümid edən, Allahın rızasından başqa bir qarşılıq gözləməyən, canını və malını Allaha satan, Allahdan şiddətlə qorxan və Allahı eşqlə sevən kimsələrdir. Haqq din əxlaqının hakimiyyəti üçün Allahın varisləri də onlardır.

Göründüyü kimi, Allahın hakimiyyət vədindəki əsl ölçü səmimi imandır. Tövratda nəzərdə tutulan yalnız müəyyən bir qövmdən olmaq deyil. Müsəlman olan, yəni Allaha təslim olan və Allaha şirk qoşmadan səmimi inanan kimdirsə, Tövratda bəhs edilən israiloğulları qövmü də odur. Başqa sözlə, "israiloğulları" "müsəlman (Allaha təslim olmuş)" olmağın digər adıdır. Allahın hakimiyyət vəd etdiyi birlik "Nur" surəsinin 55-ci ayəsində bildirildiyi kimi, bu xüsusiyyətlərə sahib olacaq:

**1.Allaha iman etmək**

**2.Saleh əməllər işləmək**

**3.Yalnız Allaha ibadət etmək**

**4.Allaha heç bir şeyi ortaq qoşmamaq**

Allahın vəd etdiyi hakimiyyət bu cür birliyə aiddir. Yoxsa israiloğulları nəslindən olub dindar olmayan bir qövmün dünyaya hakim olması gözlənilə bilməz.

Digər tərəfdən şərt olaraq saf irq axtarılması da məqbul bir iddia deyil. Çünki tarix boyunca bir-birinə çox yaxın məkanlarda yaşayan nəsillərin kəskin bir şəkildə bir-birlərinə qarışmadan davam etmələri mümkün deyil. Dolayısı ilə, hz. İbrahimin oğulları olan hz. İshaq və hz. İsmailin nəsillərinin qarışmaması da imkansızdır. Nəzərdə tutulanın nəsil deyil, əqidə birliyi olduğu açıqdır.

Necə ki, Tövratın "Yaradılış" hissəsində hz. İshaqın oğlunun hz. İsmailin qızı ilə evləndiyi bildirilir. (Yaradılış, 28:7-10). Tövratda bildirilən bu hal nəsillərin daha əvvəldən qarışa bildiyinə açıq bir nümunədir. Qaldı ki, yaxın bölgələrdə yaşayan hz. İshaq və hz. İsmailin nəsilləri hz. İbrahimin oğulları kimi hərtərəfli qohumdurlar. Bu halda, hz. İshaqın nəslinin heç bir qarışıqlıq olmadan bu günə

qədər gəldiyi, yəhudilərin də bu "saf" irqdən olduqları iddia edilə bilməz. Dolayısı ilə, din əxlaqını hakim edəcəyi xəbər verilən birlik hər hansı bir nəsil və ya irq deyil, hz. İbrahimin haqq dinini, yəni "İslam" dinini hakim edəcək olan birlikdir.

Həmçinin Allah Quranda bütün elçilərin tək bir nəsil olduqlarını bildirir.

**Allah Adəmi, Nuhu, İbrahim övladını və İmran ailəsini aləmlər üzərində seçilmiş etdi. Onlar biri digərindən törəmiş bir nəsil idilər. Allah eşidəndir, biləndir! (Ali-İmran surəsi, 33-34)**

Allah "Ənam" surəsində də bir-birlərinin nəslindən gələn elçilərdən bəhs edir:

**İman gətirib imanlarını zülmə qatışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır! Bu bizim İbrahimə öz tayfasına qarşı verdiyimiz dəlildir. Biz istədiyimiz şəxsi dərəcə-dərəcə yüksəldərik. Şübhəsiz ki, Rəbbin hikmət sahibi, elm sahibidir. Biz İshaqı və Yəqubu Ona əta etdik. Onların hər birini hidayətə çatdırdıq. Bundan əvvəl Nuhu və onun nəslindən olan Davudu, Süleymanı, Əyyubu, Yusifi, Musanı və Harunu da hidayətə qovuşdurmuşduq. Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. Zəkəriyyanı, Yəhyanı, İsanı, İlyası da. Onların hamısı əməlisalehlərdən idi. Biz həmçinin İsmaili, Əlyəsəni, Yunisi və Lutu da (hidayətə qovuşdurduq) və onları aləmlərdən üstün tutduq. Biz onların atalarından, nəsillərindən və qardaşlarından da (bir qismini hidayətə çatdırdıq), onları seçdik və düz yola yönəltdik. (Ənam surəsi, 82-87)**

Bütün peyğəmbərlər bir-birinin nəslindən gəlir. Hz. Yaqubun, hz. Süleymanın və ya hz. Davudun nəslindən bəhs edilərkən hz. İbrahimin nəsli nəzərdə tutulur və hakimiyyət peyğəmbərlər nəsli olan hz. İbrahimə vəd edilir. Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.s.) də bu mübarək nəsildəndir. Hz. Mehdi də hədislərdə ifadə edildiyinə görə bu nəsildən gəlir. Xalq arasında bu nəsildən gələnlərə "seyid" deyilir. Hz. Mehdi də seyid olacaq. Peyğəmbərimizin (s.ə.s.) hədislərində mövzu ilə əlaqədar belə bildirilir:

Qiyamətin qopması üçün əgər bir gün belə qalmış olsa, Allah mənim əhli-beytimdən (nəslimdən) bir şəxsi (hz. Mehdini) göndərəcək. (Sünəni-Əbu Davud, 5/92)

Mənim əhli-beytimdən bir şəxs (hz. Mehdi) bütün dünyaya hakim olana qədər günlər və gecələr bitməz. (Ən-Nəcmus-Sakıb, Ukaylı)

**Hz. Mehdi və camaatı qədərdə bəllidir**

İnsan həm öz qədərinin, həm də dünya qədərinin tamaşaçısıdır. Heç kimin bu qədəri dəyişdirməsi mümkün deyil. Həmçinin bu qədərə etiraz etməsi Allahın vədini və qədərdə təqdir etdiklərinin reallaşmasını qətiyyən dəyişdirə bilməz. Allah kimi seçib kimin vasitəsi ilə dünyaya din əxlaqını hakim etsə, Mehdi (ə.s.) də o şəxs olacaq.

Yoxsa heç kim Mehdi olduğunu iddia edə bilməz. Qaldı ki, Mehdilik iddia deyil. Cəhd etməklə və ya çalışmaqla əldə edilən bir mövqe də deyil. Mehdi ola bilmək üçün, bu, insanın qədərində olmalı, yəni Mehdi olaraq yaradılmalıdır.

Hədislərdə və islam alimlərinin izahlarında ifadə edildiyi kimi, hz. Mehdi nəslindən çox fəaliyyəti ilə tanınacaq. Hz. Mehdi və camaatının əsas fəaliyyəti dinsizliklə fikri mübarizə və haqq din əxlaqını bütün dünyaya yaymaq olacaq. Dinsiz və imansız ideologiyaları fikirlə məğlub edən, Allahın varlığının dəlillərini açıq şəkildə göstərən, insanların imanlarına vəsilə olan, din əxlaqını dünyaya yayan şəxs hz. Mehdidir. Bu fəaliyyətlər və işlər olmadan bir şəxsin və ya camaatın hər hansı bir iddiasının mənası yoxdur.

## Tövratda və digər yəhudi qaynaqlarında Mehdiyə (ə.s.) işarələr

Hz. Mehdinin gələcəyinə inanmaq yəhudiliyin təməl inanc əsaslarından biridir. Yəhudilərin XII əsrdən bu günə kimi ən böyük Tövrat alimi olaraq qəbul etdikləri haham Maimoni-des (İbni-Meymun) yəhudiliyin 13 təməl inanc əsasından on ikincisini "Məsihin (Mehdinin) gələcəyinə inanmaq" olaraq açıqlamışdır. Bu əsaslara görə, yəhudilərin "Mehdi" ilə əlaqədar inancları bu sözlərlə bildirilmişdir: "Məsihin (Mehdinin) gələcəyinə könüldən inanıram, gəlişi geciksə belə, hər gün onun gəlişini gözləyirəm".

Hz. Mehdinin gəlişini inkar edənlərin vəziyyəti isə yəhudilərin müqəddəs qaynaqlarından Mişnada belə açıqlanır:

Məsihin (Mehdinin) gələcəyinə inanmayan və ya onun gəlişini gözləməyən bir adam bütün peyğəmbərlərə qarşı gəlməklə yanaşı, Tövratı və müəllimimiz Musanı da inkar etmiş olur. (Maimonides, Mişna Tora, Kralların qanunları, 11:1)

Həmçinin yəhudilərin hər gün üç dəfə etdikləri "Shmoneh Esrei" adlı duada hz. Mehdinin gəlişinin yaxın olması üçün dua edilir. Bu dua din əxlaqının gərəyi olan ədalətin yenidən bərpası, əxlaqsızlığın, günahın və pisliyin sona çatması, doğruluğun hakim olması üçün hz. Mehdi arzusu ilə edilir. Kitabın bu hissəsində isə Tövratın Quran və Peyğəmbərimizin (s.ə.s.) hədisləri ilə uyğun olan hissələrində Mehdiyə (ə.s.) işarə edən qisimlərindən bəhs olunacaq.

**Yəhudi qaynaqlarında Mehdinin (ə.s.) çıxışından əvvəlki dövr**

Yəhudilərə görə Mehdi gəlmədən əvvəlki dövrdə dünyaya dinsizlikdən qaynaqlanan əxlaqi tənəzzül hakim olacaq. İnsanlarda utanma hissi azalacaq, zülm və qürur artacaq, mərhəmətli insan qalmayacaq, dindarlar çox az olacaq, küfr və fitnə yayılacaq, digər tərəfdən fəlakətlər, zülm və müharibələr bir-birini izləyəcək, torpaqların bərəkəti azalacaq, bahalılıq, qıtlıq və yoxsulluq artacaq.

Yəhudilər tərəfindən müqəddəs qəbul edilən qaynaqlarda hz. Mehdinin çıxışından əvvəlki dövrün xüsusiyyətlərindən bəziləri belə bildirilir:

1. Axır zamanda əlamətlərin meydana çıxması:

... bütün millətləri və dilləri bir yerə yığacağım vaxt gəlir və gəlib. Mənim izzətimi görəcəklər. Və aralarına bir əlamət qoyacağam. (Yeşaya, 66:18-19)

2. Ateizmin yayılması:

Peyğəmbər də, kahin də Allahsızdır, məbədimdə belə pis əməllərini gördüm- deyir Rəbb. (Yeremya, 23:11)

3. Din əxlaqından uzaqlaşmaq:

(Mehdinin) gələcəyi nəsildə... Haqdan uzaqlaşacaqlar... (Talmud, Sanhedrin 97a)

4. Dindarların xor görülməsi:

... pis əməllərdən uzaq olan adam özünü ov edəcək... Pisliyi tərk edən adamı öz xalqı lağa qoyacaq. (Talmud, Sanhedrin 97a)

5. Pis insanların təqdir olunması:

... sizlər ki, yaxşıdan nifrət edərsiniz və pisi sevərsiniz... (Mika, 3:2)

6. Dini təhsildən uzaqlaşmaq:

... şagirdlərin (Allahın sözünü öyrənənlərin) sayı azalmadıqca (Mehdi) gəlməyəcək... (Talmud, Sanhedrin 97a)

7. Ölkə idarəçilərinin din əxlaqından uzaqlaşması.

8. İdarəçilərin işinin əhli olmaması:

Uşaqları onlara idarəçi təyin edəcək, kiçik uşaqlar onlara hakim olacaq. (Yeşaya, 3:4)

9. Qadın idarəçilərin artması:

... Uşaqlar onları əzir, qadınlar onu idarə edir... (Yeşaya, 3:12)

10. Liderlərin öz mənfəətlərini düşünməsi:

(Mehdinin) gələcəyi nəsil... bu nəslin liderləri itlər kimi davranacaq... (Talmud, Sanhedrin 97a)

... öndərləri axşam gəzən ac qurdlar kimi səhərə bir şey saxlamazlar. (Sefanya, 3:3)

11. Pislərin iqtidar sahibi olması:

... Pislik edənləri gücləndirdiklərinə görə, heç kim pisliyindən dönmür... (Yeremya, 23:14)

... izlədikləri yol pisdir, güclərindən haqsız yerə istifadə edirlər... (Yeremya, 23:10)

İdarəçiləri nərildəyən aslanlar (kimi)... (Sefanya, 3:3)

12. Ədaləti qoruyanların qalmaması:

... (Mehdi) bütün hakimlər və idarəçilər gedənə qədər gəlməyəcək... (Talmud, Sanhedrin 98a)

13. Bahalığın artması.

14. Kasıblığın artması.

15. Haqsız qazancın artması:

... Evləriniz kasıblardan zorla götürdüyünüz malla dolu... Nə haqla... kasıbı soyursunuz? (Yeşaya, 3:14)

16. Aclıq və qıtlığın olması.

17. Torpaqların bərəkətinin azalması:

... yığılası meyvə tapılmayacaq. Gözəl tarlalar, məhsuldar asma bağlar, xalqımın tikan və kol bitmiş torpaqları üçün, şən şəhərdəki xoşbəxtlik dolu evlər üçün sinənizi döyün... (Yeşaya, 32:9-13)

Toxumlar kəsəklərin altında çürüdü, taxıl yox oldu, anbarlar boş qaldı, anbarlar yıxıldı... alov otlaqları yox etdi, bütün ağacları qovurdu... (Yoel, 1:17, 19)

Tarlalar xarab oldu, torpaq acı çəkir. Çünki taxıl məhv oldu... Arpa, buğda üçün döyünün... çünki tarlaların məhsulu yox oldu. (Yoel, 1:10-11)

18. Təmiz su qaynaqlarının azalması:

... (Mehdi) xəstə üçün bir balıq tapılmayanadək gəlməyəcək, çünki yazılmışdır ki, o zaman suları dərinlərdə axıdacağam və çayların yağ kimi axmasına səbəb olacağam... (Talmud, Sanhedrin 98a)

... axar sular qurudu... (Yoel, 1:20)

19. Quraqlığın olması:

Dünya quruyub büzülür, dünya solub büzülür... (Yeşaya, 24:4)

... Otlaqlar qurumuş... (Yeremya, 23:10)

... asmalar solmuş idi... (Yeşaya, 24:7)

Asmalar qurudu, əncir ağacları quru idi. Nar, xurma, alma, bütün meyvə ağacları qurudu... (Yoel, 1:12)

20. Heyvanların tələf olması:

Heyvanlar necə də inləyir! Mal sürüləri çarəsiz... Qoyun sürüləri pərişan oldu... Yabanı heyvanlar belə sənə səslənir. (Yoel, 1:18-20)

... bütün heyvanlar - at, qatır, dəvə, ulaq bənzər bir bəlaya düşəcək. (Zəkəriyya, 14:15)

21. Çətin dövr olması:

... ən igid əsgər belə fəryad edəcək... Acı və çətinlik, dağıntı və fəlakət, zülmət bir gün olacaq. Buludlu, qapqaranlıq bir gün. (Sefanya, 1:14-15)

... getdikləri yol onlar üçün sürüşkən olacaq, qaranlığa düşəcək və orada sürüşüb yıxılacaqlar... (Yeremya, 23:12)

(Mehdi) gəlsin... Bir kimsə tarlaya çıxıb gözətçi ilə qarşılaşdığında sanki bir aslanla qarşılaşmış kimidir. Şəhərə girib vergi yığan birinə yanaşdığında sanki bir ayı ilə qarşılaşmış kimidir. Evinə girib qızlarını və oğullarını aclıq sıxıntısı içində görəndə sanki bir ilan tərəfindən vurulmuş kimidir...

doğum sancısı çəkən bir kimsə gördünmü? Buna görə, hər insanın sanki doğum sancısı çəkən bir qadın kimi əlləri bellərində və üzləri saralmış olacaq... (Talmud, Sanhedrin 98b)

22. Bəlaların ard-arda gəlməsi:

(Mehdinin) gələcəyi nəsildə... imtahan arxasınca imtahan gələcək... (Talmud, Kethuboth 112b)

... lənət dünyanı yeyib bitirdi... (Yeşaya, 24:6)

Dəhşət xəbərindən qaçan çuxura düşəcək, çuxurdan çıxan tələyə düşəcək... (Yeşaya, 24:18)

23. Fitnənin artması:

... (Mehdinin) gəldiyi nəsildə... Təxribatçılıq törədən qərarlar daima qüvvədə olacaq... (Talmud, Sanhedrin 97a)

... sənə yol göstərənlər səni yoldan azdırır. (Sefanya, 3:12)

... Amma hər cür pisliyi etməyə hazır görünürlər. (Sefanya, 3:7)

24. Ümidsizliyin hakim olması.

25. Fahişəliyin yayılması:

... Fahişələrə ödəniş olaraq oğlanları verdilər... (Yoel, 3:3)

... ölkə zina edənlərlə dolu... (Yeremya, 23:10)

26. İnsanlarda utanma hissinin azalması:

(Mehdinin) gələcəyi nəsil... atası özünü danladığına görə oğlu utanmayacaq... (Talmud, Sanhedrin 97a)

... (Mehdinin) dövründən əvvəlki dövrdə... oğul Rəbbi qarşısında utanmayacaq... (Talmud, Sota 49:2)

... Gənc yaşlıya, sadə insanlar üstün əxlaq sahiblərinə pis münasibət göstərəcək. (Yeşaya, 3:5)

27. Əxlaqsızlığın artması:

... hamısı Sodom kimi... Qomorro kimi oldu... (Yeremya, 23:14)

28. Yalan və saxtakarlıqların artması:

... yalan arxasındadılar... (Yeremya, 23:14)

İnsan insana, qonşu qonşuya haqsızlıq edəcək... (Yeşaya, 3:5)

29. Üzlərin zillətli olması.

30. Mərhəmət, şəfqət duyğularının korlanması:

... (Mehdinin) dövründən əvvəlki dövrdə... heç kimin onlara yazığı gəlməyəcək... (Talmud, Sota 49:2)

31. Hörmətsizliyin artması:

... (Mehdinin) dövründən əvvəlki dövrdə nalayiq davranışlar çox olacaq... (Talmud, Sota 49:2)

32. Üsyankarlığın artması:

... (Mehdinin) gələcəyi nəsildə... qızı anasına üsyan edəcək, gəlini qaynanasına üsyan edəcək... (Talmud, Sanhedrin 97a)

... (Mehdinin) dövrü gəlmədən əvvəl... oğul atasına, gəlin qaynanasına qarşı olacaq... (Talmud, Sota 49:2)

33. Ailəvi bağların zəifləməsi:

(Mehdinin) dövrü gəlmədən əvvəl... insanın ailəsi öz düşməni olacaq... (Talmud, Sota 49:2)

34. Münafiqlərin artması:

... Xainlər xainliklərini davam etdirir. Bəli, xainlər davamlı xainlik edirlər. (Yeşaya, 24:16)

35. Elm adamlarının sayının azalması:

(Mehdinin) gəldiyi nəsildə alimlər az olacaq... (Talmud, Sanhedrin 97a)

36. Elm adamlarının korlanması:

(Mehdinin) gəldiyi nəsildə alimlər muhakimə olunacaq... (Talmud, Kethuboth 112b)

... Kahinləri (dini liderləri) müqəddəs olanı pozub, Qanunu (Allahın hökmlərini) təhrif edərlər. (Sefanya, 3:4)

37. Müharibələrin  artması:

... döyüşmələri üçün bütün xalqları bir yerə toplayacağam... evlər qarət olunacaq, qadınlara təcavüz ediləcək. Şəhərdə yaşayanların yarısı sürgünə göndəriləcək... (Zəkəriyya, 14:2)

... göylərdə və yerdə əlamətlər göstərəcəyəm; qan, alov və tüstü dirəkləri. (Yoel, 2:30)

38. Orta şərqdə qan tökülməsi:

... (Mehdi) nə vaxt gələcək?... Bizə bir işarə söylə... - Paneas* mağarasının suları qana dönüncə... (Talmud, Sanhedrin 98a)

*Paneas: İordaniya çayı ətrafında, Qüdsə 200 km uzaqlıqda qədim bir şəhər adıdır.

39. Orta şərqdə dağıntının olması:

... (Mehdinin) dövrü gəlmədən əvvəl... Cəlilə* dağıdılacaq və Qablan* bölgəsi tərk ediləcək... (Talmud, Sanhedrin 97a; Sota 49:2)

* Cəlilə: İordaniya çayının qərbində qalan bölgə. Müasir İsrail və qədim Fələstin torpaqlarını meydana gətirən bölgə.

** Qablan: Bu günkü Golan təpələrinin bir qismini əhatə edən, Şimal-qərbi İordaniya və Cənub-qərbi Suriyadakı bölgə.

40. Günahsız insanların öldürülməsi:

... Günahsız insanların qanı töküləcək. (Yoel, 3:19)

41. Mühacirlərin artması

... (Mehdinin) dövrü gəlmədən əvvəl... sərhəddəki insanlar kimsənin onlara yazığı gəlmədən şəhər-şəhər gəzəcəklər... (Talmud, Sota 49:2)

42. Üsyanların, qiyamların artması:

... Üsyanların ağırlığı altında çökəcək və bir daha qalxa bilməyəcək. (Yeşaya, 24:20)

43. Qarətlərin olması:

Dünya tamamilə qarət olunub viranəyə çevriləcək... (Yeşaya, 24:3)

... evlər soyulacaq... (Zəkəriyya, 14:2)

44. Gənclərin tez yaşlanması.

45. Haqqa qarşı çıxanların bədənlərində əlamət olması:

... döyüşən bütün xalqları Rəbb bu bəla ilə cəzalandıracaq: daha sağ ikən bədənləri, gözləri, dilləri çürüyəcək. (Zəkəriyya, 14:12)

... Çünki söylədikləri də, etdikləri də Rəbbə qarşı... Üzlərindəki ifadə onlara qarşı şahidlik edər. Sodom kimi günahlarını açıq söyləyir, gizlətmirlər... (Yeşaya, 3:8-9)

46. İnsanların bədbəxt olması:

... vaxtilə sevincli olanların hamısı inləyir. (Yeşaya, 24:7)

... İnsanın sevinci yox oldu. (Yoel, 1:12)

... Sevincdən əsər qalmadı, dünyanın coşğusu yox oldu. (Yeşaya, 24:11)

... Əylənənlərin səs-küyü dayandı... (Yeşaya, 24:8)

47. Din adamlarının ümidsizlik içində olmaları:

... Rəbbə xidmət edən kahinlər yas tutarlar. (Yoel, 1:9)

Ey kahinlər, yas tutun. Ey xidmət edənlər, ağı deyin... (Yoel, 1:13)

48. Şərabın qiymətli sayılması:

(Mehdinin) gələcəyi nəsildə... şərab qiymətli olacaq... (Talmud, Sanhedrin 97a)

49. Günəş və Ay tutulmalarının olması:

... Günəş və ay qaralır və ulduzlar işıqlarını gizlədirlər... (Yoel, 3:14-16)

Göydəki ulduzlar işıldamayacaq. Doğan günəş qaralacaq, Ay işığını verməyəcək. (Yeşaya, 13:10)

Ayın üzü qızaracaq. (Yeşaya, 24:23)

50. Zəlzələlərin olması:

Dünyanın təməlləri sarsılacaq. Dünya tamamilə çatlayıb yarılacaq, sarsıldıqca sarsılacaq. Dünya... yırğalanacaq, bir daxma kimi yellənəcək... (Yeşaya, 24:18-20)

... Göy və yer sarsılacaq... (Yoel, 3:16)

Bundan ötrü göyləri titrədəcəyəm və... dünya yerindən oynayacaq. (Yeşaya, 13:13)

O zaman dünya sarsılıb titrədi. Dağların təməlləri də sarsıldı... Suların dərinlikləri göründü və dünyanın təməlləri açıldı. (Məzmurlar, 18:7, 15)

51. Təbii fəlakətlərin artması:

... göylərdə və yerdə əlamətlər göstərəcəyəm... (Yoel, 2:30)

... Göylərin qapaqları açılacaq. (Yeşaya, 24:18)

52. Bir yerdə sel olarkən, digər bir yerdə quraqlıq olması:

... (Mehdinin) gələcəyi yeddi illik dövrün sonunda, ilk ildə bu ayə reallaşacaq: Bir şəhərə yağış yağdırarkən, digərinə yağış yağdırmayacağam... (Talmud, Sanhedrin 97a)

53. Məhsullara çəyirtkə daraşması:

Gənc çəyirtkədən qalan məhsulu yetkinləşmiş çəyirtkə yedi, ondan qalanı yumurtadan yeni çıxan çəyirtkə yedi, ondan qalanı da bala çəyirtkələr yedi... Güclü və sayıla bilməyəcək qədər böyük çəyirtkə ordusu hücum etdi... (Yoel, 1:4-6)

54. Ətraf mühitdə natəmizliyin artması:

Dünyada yaşayanlar onu çirklətdi... (Yeşaya, 24:5)

55. Hz. İlyasın hz. Mehdinin qabaqcılı kimi gəlişi:

... (Mehdinin) doğum sancıları, "o gün" burada yazılıdır; bu, yazılarkən Allahın böyük və dəhşətli günü gəlmədən əvvəl İlyas peyğəmbəri göndərəcəyəm... (Talmud, Shabbath, 118a)

Rəbbin böyük və qorxunc günü gəlmədən əvvəl sizə peyğəmbər İlyası göndərəcəyəm. (Malaki, 4:5)

56. İnsanların ruhən qocalmış olmaları.

57. İraq torpaqlarında müharibə olması.

57.1. Uzaq ölkələrdən olan İraq torpaqlarında müharibəyə getmək:

... Yeşayanın Babillə* bağlı məlumatı... uzaq bir ölkədən, dünyanın o biri ucundan bütün ölkəni yerlə bir etmək üçün gəlir. (Yeşaya, 13:1, 5)

*Babil: Müasir İraq torpaqlarında olan qədim bir şəhər adıdır.

57.2. Uşaq və gənclərin ölməsi:

Oxları ilə gəncləri parçalayacaq, körpələrə yazıqları gəlməyəcək. (Yeşaya, 13:18)

57.3. Evlərin qarət olunması:

... evləri soyulacaq... (Yeşaya, 13:16)

57.4. Çoxlu qan axıdılması:

Tutulanın bədəni deşik-deşik ediləcək, ələ keçən qılıncdan keçiriləcək. Balaları gözləri qarşısında parçalanacaq... (Yeşaya, 13:15-16)

57.5. Xalqın qorxu və əzab içində olması:

Hər kəsi dəhşət bürüyəcək, hamı əzab və iztirab içində boğulacaq. (Yeşaya, 13:18)

57.6. Xalqın qonşu ölkələrə qaçması:

Hər kəs qovulan ceyran kimi, çobansız qoyunlar kimi, xalqına dönəcək, ölkəsinə qaçacaq. (Yeşaya, 13:14)

57.7. Müharibədən sonra şəhərlərin kimsəsizləşməsi:

... orada (Babildə) çölün yabanı heyvanları yatacaq və onların evləri bayquşlarla dolu olacaq və orada dəvə quşları yerləşəcəklər və yabanı keçilər orada oynaşacaqlar. Və saraylarında qurdlar və çaqqallar ulayacaq... (Yeşaya, 13:21-22)

57.8. İraq şəhərlərinin yerlə bir olması:

... Krallıqların ən gözəli olan Babili də yerlə bir edəcəyəm. (Yeşaya, 13:19)

58. Yəcuc və Məcuc qövmünün ortaya çıxması:

... (Mehdinin) doğum sancıları, "o gün" burada yazılıdır... Yəcuc və Məcuc döyüşləri, "o gün" burada yazılıdır. Bu yazılarkən o gündə Məcuc gələcək. (Talmud, Shabbath, 118a)

(Dünyadakı zamanın)... bir qismi Yəcuc və Məcuc ilə döyüşərək (keçəcək) və geri qalan (dövr)... (Mehdi) dövrü olacaq... (Talmud, Sanhedrin 97b)

58.1. İzdihamlı ordu olmaları:

... toplanmış böyük izdihamla birlikdə... (Yezekel, 38:7)

... ölkəni əhatə edən bir bulud kimi... (Yezekel, 38:16)

... hamısı qılıncdan istifadə edən böyük kütlə... (Yezekel, 38:2, 4)

58.2. Çoxmillətli ordu olmaları:

... hamısı atlı və bir çox xalqdan ibarət olan böyük bir izdiham... (Yezekel, 38:15)

... bütün əsgərlərin və səninlə olan xalqların çox hissəsi: qasırğa kimi gələcəksiniz... (Yezekel, 38:9)

58.3. Silahlı böyük bir orduya sahib olmaları:

... bütün ordusu; atları, tam bəzənmiş atlıları, kiçik-böyük qalxanlı, hamısı qılınclı olan böyük kütlə... (Yezekel, 38:4)

... hamısı atlı böyük bir izdiham, güclü bir ordu... (Yezekel, 38:15)

58.4. Şimali Asiyadan (Orta şərqin uzaq şimalından) çıxmaları:

... uzaq şimaldan gələcəksiniz. (Yezekel, 38:15)

... Səni uzaq şimaldan çıxarıb... (Yezekel, 39:2)

58.5. Təxribatçılıq törətmələri:

... pis nizamlar hazırlayacaqsan. (Yezekel, 38:10)

Deyəcəksən ki... sağlamlıq və təhlükəsizlik içində yaşayan insanların üstünə gedəcəyəm. (Yezekel, 38:11)

... Hər kəs bir-birinə qılınc çəkəcək. (Yezekel, 38:21)

58.6. Təcavüzkar, soyğunçu bir ordu olması:

Deyəcəksən ki... Viran olmuş şəhərlərdə yaşayan xalqı soyub malını qarət edəcəyəm... (Yezekel, 38:12)

... (Xalq) "Soymaq üçünmü gəldin? Soyğun malı yığmaq, qızıl, gümüş daşımaq, heyvan, mal aparmaq, bol qənimət əldə etmək üçünmü bu kütləni yığdın?" - deyəcək. (Yezekel, 38:13)

58.7. Dağlarda döyüşmələri:

Bütün dağlarımda Qoqa qarşı qılınc qaldıracağam... (Yezekel, 38:21)

... səni İsrail dağları üzərinə gətirəcəyəm. (Yezekel, 39:2)

... İsrail dağlarında toplanmış, müharibələrədən uzaq qalmış bir ölkəyə hücum edəcəksən... (Yezekel, 38:8)

58.8. Epidemik xəstəlik və fəlakətlərlə həlak edilmələri:

... epidemik xəstəliklə, qanla cəzalandıracağam. (Yezekel, 38:22)

... onu dəstəkləyən bir çox xalqın üstünə fasiləsiz yağış, dolu, kükürd yağdıracağam. (Yezekel, 38:22)

Ölkəni təmizləmək üçün insanlara vəzifə veriləcək... (Yezekel, 39:14)

58.9. Kütləvi ölümlər:

... (Xalq) ölkəni təmizləmək üçün onları basdıracaq. Bu yeddi ay davam edəcək. (Yezekel, 39:12)

Onları bütün ölkə xalqı basdıracaq... (Yezekel, 39:13)

58.10. Çıxdıqları dövrdə böyük bir zəlzələnin olması:

... böyük bir yer sarsıntısı olacaq. (Yezekel, 38:19)

## Mehdinin (ə.s.) yəhudi qaynaqlarinda təsvir edilən xüsusiyyətləri

Yəhudilikdə gözlənilən Mehdi bütün dünyada sülhü bərqərar edəcək bir növ siyasi liderdir. Liderliyi ilə yanaşı, həmişə məqsədə uyğun qərarlar alıb ədalətlə hökm edəcək, Allah qorxusu və sevgisinə görə üstün əxlaq nümunəsi olacaq. Yəhudilər hz. Mehdinin gələcəkdə dünyanı ədalətlə dolduracaq, təxribat törədən cəmiyyətləri zərərsizləşdirəcək və bütün millətlərin özünü izləyəcəyi bir xilaskar olduğuna görə, ondan "Yaheb və ya Şaheb" (yenidən nizam verən) sifəti ilə bəhs edirlər. Həmçinin yəhudilərə görə, hz. Mehdi insanları təsirinə salan şəxsiyyətə və ruh gözəlliyinə sahib olacaq, onları hikmətli sözləri ilə imana yönəldəcək. Lakin Allahın seçib dəstəklədiyi bu qul qətiyyən fövqəlbəşər varlıq olmayacaq, normal şəkildə doğulmuş insan olacaq. Yəhudi qaynaqlarına görə Mehdinin (ə.s.) xüsusiyyətlərindən bir qismi belədir:

- **Ədalət sahibi olması:**

Davranışının təməli ədalət və sədaqət olacaq. (Yeşaya, 11:5)

... Krallığının məqsədi ədalətli olmaqdır... (Məzmurlar, 45:6-7)

... Mühakimə edərkən ədaləti axtaracaq... (Yeşaya, 16:5)

... (Mehdi) Ədalətlidir... (Zəkəriyyə, 9:9)

... ölkədə ədalətli və doğru olanı edəcək. (Yeremya, 23:5)

... Xalqa ədalətlə hakimlik etsin! (Məzmurlar, 72:3)

- **Məzlumun haqqını qoruması:**

Məzlumlara haqqını versin, yoxsulların uşaqlarını qurtarsın... (Məzmurlar, 72:4)

... Məzlum qullarını ədalətli şəkildə muhakimə etsin! (Məzmurlar, 72:2)

Yoxsulları ədalətlə muhakimə edəcək... (Yeşaya, 11:4)

... yoxsullara müjdə vermək üçün... Ürəyi əzik olanların yaralarını sarımaq üçün, məhbuslara azadlığa buraxılacaqlarını, zindanlardan xilas olacaqlarını... bildirmək, yas tutanların hamısını ovundurmaq üçün.. (Yeşaya, 61:1-2)

- **Bütün dünyada ədaləti təmin etməsi:**

... Ədaləti insanlara gətirəcək. (Yeşaya, 42:1)

Ədaləti sədaqətlə gətirəcək. Dünyada ədaləti təmin edənə qədər ümidini, cəsarətini itirməyəcək... (Yeşaya, 42:4)

Şərqdən ədaləti yayan, insanlara xidmət edən kimdir? Xalqları tabe edir, krallara baş əydirir... (Yeşaya, 41:2)

- **Dürüst və doğru olması:**

Doğruluğu sevər, pislikdən nifrət edər... (Məzmurlar, 45:7)

... dünyada əzilənlər üçün dürüst qərar verəcək... (Yeşaya, 11:4)

... Ölkədə ədalətli və doğru olanı edəcək. (Yeremya, 33:15)

... doğru olanı etməkdə dürüst davranacaq. (Yeşaya, 16:5)

... (Mehdi) düzgünlüklə krallıq edəcək... (Yeşaya, 32:1)

Saleh və dürüst... (Mehdi) tərəfindən idarə olunacaq... (Maimonides, Mişna təfsiri, Sanhedrin 10:1)

- **Xilaskar xüsusiyyəti olması:**

... (Mehdi) xilaskardır... (Zəkəriyya, 9:9)

... belə yazılmışdır, sən (Mehdi) bəlalara məruz qalanları qurtaracaqsan. (Talmud, Sanhedrin 98a)

- **Dünyaya təbliği ilə təsir etməsi:**

... Dünyaya ağzının dəyənəyi ilə vuracaq* və pisi ağzının nəfəsi ilə öldürəcək. (Yeşaya, 11:4)

*Sözün digər mənası: Qüvvətlə təsir etmək.

... Onun adı möcüzəvi nəsihətçi... olacaq. (Yeşaya, 9:6)

- **Qəlbə təsir edən sözlər söyləməsi:**

Oxların itidir, kral düşmənlərinin ürəyinə batar... (Məzmurlar, 45:5)

- **Bütün dünyanı Allaha yönəltməsi:**

... bütün dünyanı Allaha qulluq etmələri üçün islah edəcək, çünki belə yazılmışdır: "Bundan sonra xalqlara pislikdən uzaq bir danışıq dili verəcəyəm, beləcə, hamısı Allaha qulluq etmək üçün yönələcəklər". (Maimonides, Mişna Tora, Kralların qanunları, 11:4)

- **İnsanları ruhən təmizləməsi:**

Onun gələcəyi günə kim dözə bilər? O, meydana çıxınca kim dayana bilər? Çünki o, gümüşü əridib təmizləyən kimi davranacaq... insanların ruhunu qızıl, gümüş təmizləyirmiş kimi təmizləyəcək. (Malaki, 3:2-3)

- **Şiddətə yönəlmədən iman gücü ilə müvəffəq olması:**

"... Güc və qüvvətlə deyil, ancaq Mənim Ruhumla bacaraqsan" - deyir. Belə deyir hər şeyə hakim Rəbb. (Zəkəriyya, 4:6)

- **Güc və iqtidar sahibi olması:**

... güclü bir kral (Mehdi) çıxaracağam,... nəslini işıq olaraq davam etdirəcəyəm... (Məzmurlar, 132:17-18)

... Uca olanın inayəti ilə sarsılmaz. (Məzmurlar, 21:1-7)

... (Rəbb Mehdiyə) qüvvət verəcək və ... (Mehdinin) qüvvətini yüksəldəcək. (Samuel, 2:10)

... Rəhbərlik onun çiyinlərində olacaq... (Yəşaya, 9:6)

- **Siyasi lider olması:**

... (Mehdi) möhtəşəm bir kral olacaq... (Maimonides, Mişna təfsiri, Sanhedrin 10:1)

Və millətlər arasında hökm edəcək və qövmlərin çoxu haqqında qərar verəcək... (Yeşaya, 2:4)

... Bütün xalqlar və hər dildən insan ona xidmət etdi... (Daniel, 7:14)

... bütün xalqlar ona xidmət edib sözünü dinləyəcək. (Daniel, 7:27)

- **Millətlərin öz razılıqları ilə ona tabe olmaları:**

Və sənin işığına millətlər və sənə doğan günün parlaqlığına krallar gələcəklər. (Yeşaya, 60:3)

... Xalqlara bayraq olacaq, xalqlar ona yönələcək... (Yeşaya, 11:10)

... Bütün millətlər onu dinləməyə gələcək... (Maimonides, Mişna Tora, Tövbə 9:2)

... Sahil xalqları onun qanununa ümid bağlayacaq. (Yeşaya, 42:4)

- **Xalqların ondan razi olması:**

... (Mehdinin) adı sonsuza qədər yaşasın, Günəş var olduqca adı var olsun, onun vasitəsi ilə insanlar müqəddəs hesab edilsin, bütün xalqlar: "O, nə xoşbəxtdir!" - desin! (Məzmurlar, 72:17)

Onun (Mehdinin) doğruluğu və onun gətirəcəyi kəramətlər... bütün millətlərin ona xidmət etməsinə səbəb olacaq... (Maimonides, Mişna təfsiri, Sanhedrin 10:1)

... Bütün xalqlar onun (Mehdinin) fövqəladə dindarlığı səbəbilə ona xidmət edəcəklər... (Maimonides, Mişna təfsiri, Sanhedrin hissə 10)

... xalqlar ayaqlarının altına sərilər. (Məzmurlar, 45:5)

- **Hakimiyyət sahibi olması:**

Ona hakimlik, ucalıq və krallıq verildi... Hakimiyyəti heç bitməyəcək. Krallığı heç yıxılmayacaq bir krallıqdır. (Daniel, 7:14)

... onun hakimiyyəti bir dənizdən bir dənizə, Fəratdan dünyanın kənarlarına qədər uzanacaq. (Zəkəriyya, 9:10)

... (Mehdi) müdrikliklə hakimiyyətinə davam edəcək... (Yeremya, 23:5)

Hakimiyyəti ədalətlə və düzgünlüklə quracaq və sonsuza qədər davam etdirəcək... (Yeşaya, 9:7)

... Düşmənlərini utandıracağam, amma onun başındakı tac parıldayacaq. (Məzmurlar, 132:17-18)

Rəbb... (Mehdiyə) böyük zəfərlər nəsib edər... ( Samuel, 22:51)

... (Mehdinin) çıxışı və Davud krallığını keçmişin ehtişamına və başlanğıcındakı hakimiyyətinə yenidən qovuşduracağı əvvəldən təyin olunmuşdur... (Maimonides, Mişna Tora, Kralların qanunları, 11:4)

- **Dünyanı olduğu yerdən idarə edəcək:**

...(Mehdi) yalnız evindən hökmdarlıq edəcək... (Talmud, Sanhedrin 20b)

- **Dünyanı camaatı vasitəsi ilə idarə edəcək:**

... (Mehdi) yalnız öz heyəti ilə hökmdarlıq edəcək... (Talmud, Sanhedrin 20b)

- **Dünya səviyyəsində sülhü təmin etməsi:**

... (Mehdi) xalqlara sülhü gətirəcək ... (Zəkəriyya, 9:10)

Onun (Mehdinin) doğruluğu və gətirəcəyi kəramətlər bütün insanların onunla sülh bağlamalarına... səbəb olacaq... (Maimonides, Mişna təfsiri, Sanhedrin 10:1)

(Mehdi)... müharibələr olmayacaq və bir millət başqa millətlərə qılınc qaldırmayacaq... (Maimonides, Mişna təfsiri, Sanhedrin 10:1)

- **İzzət sahibi olması:**

... Rəbbin izzəti sənin üzərinə doğuldu... İzzəti sənin üzərində görünəcək. (Yeşaya, 60:1-2)

... Sənin xilasınla izzəti böyükdür... (Məzmurlar, 21:1-7)

- **Allaha etibar etməsi.**

- **Çox dindar olması:**

... (Mehdinin) fövqəladə dindarlığı səbəbilə... (Maimonides, Mişna təfsiri, Sanhedrin hissə 10)

- **Allahın hər cəhətdən onu dəstəkləməsi:**

Rəbbin Ruhu, müdriklik və anlayış ruhu, öyüd və güc ruhu, bilik və Rəbb qorxusu ruhu onun üzərində olacaq... (Yeşaya, 11:2)

Özünə dəstək olduğum, Könlümün razı olduğu, seçdiyim qulum! Ruhumu onun üzərinə qoydum... (Yeşaya, 42:1)

Hakim Rəbbin Ruhu üzərimdədir... (Yeşaya, 61:1)

- **Ağıllı olması:**

... ağıllı davranacaq... (Yeremya, 23:5)

... (Mehdi) Süleymandan belə ağıllı olacaq... (Maimonides, Mişna Tora, Tövbə 9:2)

... Ağılda fövqəladə olan... (Mehdi) tərəfindən idarə olunacaq... (Maimonides, Mişna təfsiri, Sanhedrin 10:1)

... (Mehdi) dövrü... yaxşılıq və ağılla hakim olacaq... (Maimonides, Mişna təfsiri, Sanhedrin 10:1)

- **Allahın sevdiyi qulu olması:**

(Mehdiyə)... sonsuza qədər sevgi göstərər. (2. Samuel, 22:51)

- **Allah qorxusu ilə dolu olması:**

... Rəbb qorxusu onun üzərində olacaq. Rəbb qorxusu xoşuna gələcək... (Yeşaya, 11:2-3)

Allahdan qorxan o adam kimdir?... (Məzmurlar, 25:12-14)

- **Allaha yaxın olması:**

... Allaha yaxın olan... (Mehdi) tərəfindən idarə olunacaq... (Maimonides, Mişna təfsiri, Sanhedrin 10:1)

- **Gözəl insan olması:**

(Xalq Mehdini) bütün gözəlliyi ilə görəcək... (Yeşaya, 33:17)

Sən insanların ən gözəlisən... (Məzmurlar, 45:2)

- **Allahın nurunun üzərində olması:**

Qalx, işıqlan, çünki nurun gəldi və Rəbbin izzəti sənin üzərinə doğuldu... (Yeşaya: 60:1-2)

- **Hikmətli danışması:**

... lütf saçılmış dodaqlarına... (Məzmurlar, 45:2)

- **İnsanları Allahın yoluna dəvət edib öyrətməsi.**

- **Allahın hökmləri üzərində dərin düşünməsi:**

... zövqü Rəbbin şəriətindədir. Və gecə-gündüz Onun şəriətini dərin-dərin düşünər. (Məzmurlar, 1:2)

- **Heybətli və görkəmli olması:**

... üzərinə cəlal qoydum... (Məzmurlar, 21:1-7)

- **Olduğu məkanın ehtişamlı olması:**

... Qaldığı yer ehtişamlı olacaq. (Yeşaya, 11:10)

- **Təvazökar olması:**

... O, ədalətli xilaskar və təvazökardır... (Zəkəriyya, 9:9)

- **Allah rizasına görə hərəkət etməsi:**

Və Özüm üçün sadiq bir kahin (dini lider) çıxaracağam, o ürəyimdə və canımda olana görə hökm edəcək... (1. Samuel, 2:35)

(Mehdi) çıxdığında... Allahın mübarizəsini davam etdirəcək... (Maimonides, Mişna Tora, Kralların qanunları 11:4)

O, sənin doğruluğunu işıq kimi, haqqını günorta günəşi kimi ortalığa çıxarar. Sənin ədalətini nur kimi  çölə çıxaracaq. (Məzmurlar, 37:6)

- **Zahirə görə deyil, lədün elmi ilə hökm edəcək:**

... Gözüylə gördüyünə görə mühakimə etməyəcək, qulağıyla eşitdiyinə görə qərar verməyəcək. (Yeşaya, 11:3)

- **Şəfqət və mərhəmət sahibi olması:**

... kömək istəyən yoxsulu, dayağı olmayan məzlumu o qurtarar. (Məzmurlar, 72:12)

Yoxsula, məzluma acıyar, məzlumların canını qurtarar. (Məzmurlar, 72:13)

Təzyiqdən, zülmdən azad edər onları, çünki onun gözündə onların qanı qiymətlidir. (Məzmurlar, 72:14)

Əzilmiş qamışı qırmayacaq, tüstüləyən fitili söndürməyəcək... (Yeşaya, 42:3)

- **Gözəl xasiyyətli olması:**

Qışqırmayacaq və səsini yüksəltməyəcək və onu küçədə eşitdirməyəcək... (Yeşaya, 42:2)

Şiddətə yönəlmədiyi, ağzından hiyləli söz çıxmadığı halda... (Yeşaya, 53:9)

- **Cəsur olması:**

Ey igid döyüşçü, tax qılıncını belinə! Görkəminə, ucalığına bürün. (Məzmurlar, 45:3)

... Dünyada ədaləti təmin edənə qədər ümidini, cəsarətini itirməyəcək... (Yeşaya, 42:4)

- **Bərəkət verilmiş olması:**

... dənizin bolluğu sənə çevriləcək, millətlərin zənginliyi sənə gələcək... qızıl və gümüş gətirəcəklər... (Yeşaya, 60:5-6)

O (Mehdi) Rəbbin qarşısında bir cücərti kimi, quraq yerdəki kök kimi böyüdü... (Yeşaya, 53:2)

- **Müjdə verən olması:**
-

... O müjdələyici ki, sağlamlıq eşitdirir. Yaxşılıq müjdəsi gətirir, qurtuluş xəbəri verir... (Yeşaya, 52:7)

- **Allahın salam sifətinin təcəlli etməsi:**

... Onun adı... əmin-amanlıq öndəri olacaq. (Yeşaya, 9:6)

... hər tərəfə əmin-amanlıq yayacaq... (Yeşaya, 9:7)

- **İnsan surətində olması, Adəm övladı ünvanını daşıması:**

Gecələrin birində Adəm övladına bənzər birinin göyün buludları ilə gəldiyini gördüm... (Daniel, 7:13)

... əgər o, (Mehdi) (hazırkı dövrdə) yaşayanlardan çıxacaqsa, mənə (Haham Nahman) bənzər biri ola bilər, çünki belə yazılmışdır: Onların zadəganları öz içlərindən çıxacaq və idarəçiləri öz aralarından gələcək... (Talmud, Sanhedrin 98b)

- **Möcüzə göstərmədən dünyaya hakim olması:**

Bir kimsə... (Mehdinin) möcüzələr göstərəcəyi, dünyaya yeni fövqəladəliklər gətirəcəyi, ölüləri dirildəcəyi və ya bənzər işlər edəcəyi fikrində olmamalıdır. Bu, doğru deyil. (Maimonides, Mişna Tora, Kralların qanunları 12:3)

... (Mehdi) dövründə təbiətdəki nizamın hər hansı bir ünsürünün etibarsız olacağı və ya yaradılışda bir dəyişiklik olacağı düşünülməməlidir. Daha doğrusu, dünya öz nizamında davam edəcək. (Maimonides, Mişna Tora, Kralların qanunları, 12:1)

(Mehdi) dövründə... dünyadakı həyatın və ya təbiət qanunlarının dəyişəcəyini düşünməyin. Dünya olduğu kimi davam edəcək... (Maimonides, Mişna Təfsiri, Sanhedrin 10:1)

- **Bütün dünyada tanınması:**

(Mehdi) böyük şöhrət qazanacaq və onun şanı bütpərəst millətlər arasında Kral Süleymandan daha çox olacaq... (Maimonides, Mişna Təfsiri, Sanhedrin 10:1)

- **Axır zamanda ortaya çıxması:**

... (Mehdi) son jubiledə* gələcək... (Talmud, Sanhedrin 97b)
*Jubile: Yəhudi dinində əlli ildən bir keçirilən mərasim.

- **Birdən ortaya çıxması:**

... (Mehdinin çıxışını hesablamaqla əlaqəli olaraq) onlara belə deyərdim:... Üç şey birdən ortaya çıxar: Məsih (Mehdi), tapılan bir əşya və bir əqrəb. (Talmud, Sanhedrin 97a)

... (Mehdi) unudulduğu bir zamanda gələcək. (Talmud, Sanhedrin 97a)

- **Allahın insanlara lütfü olması:**

... (Mehdinin) xətri üçün. (Mehdinin) adı nədir? ... Onun adı Shiloh (göndərilmiş olan, Allahın hədiyyəsi)... Onun adı Yinnon (sonsuza qədər yaşayacaq olan)... Onun adı Haninah (inayət, lütf, Allah tərəfindən müqəddəs hesab edilmiş)... Onun adı Menahem (rahatlaşdırıcı, təsəlli edən)... Çünki Mənim ruhumu rahatlaşdıracaq olan Menahem (rahatlaşdırıcı)... Qətiyyətlə Bizim acılarımıza dözdü və dərdlərimizi daşıdı... (Talmud, Sanhedrin 98b)

- **Əvvəllər dəyərinin bilinməməsi:**

İnsanlar tərəfindən uzaqlaşdırıldı, tənha buraxıldı. Çətinliyə alışmışdı, xəstəliyi yaxından tanıdı. İnsanların üz çevirdiyi biri kimi tanındı, ona dəyər vermədik. (Yeşaya, 53:3)

- **Səbirli və təslimiyyətli olması:**

O, təzyiqə məruz qalıb əziyyət çəksə də, ağzını açmadı... (Yeşaya, 53:7)

- **Camaatının əsas vəzifəsinin Allaha xidmət olması:**

... sizə Rəbbin kahinləri (dini liderləri) deyiləcək; sizə Allahımızın xidmətçiləri deyiləcək... (Yeşaya, 61:6)

- **Camaatının imanda dərinləşməsi:**

... sizə Rəbbin kahinləri (dini liderləri) deyiləcək... (Yeşaya, 61:6)

### Musəvi qaynaqlarında Mehdinin (ə.s.) hakimiyyət dövrü

Musəvilərə görə, hz. Mehdinin gəlişindən sonrakı dövrdə nifrət və müharibələr sona çatacaq, sülh və ədalət təsis ediləcək, sevgiyə əsaslanan bir sistem qurulacaqdır. Həmçinin hz. Mehdi dövründə texnologiya yüksək səviyyədə inkişaf edəcək, şəhərlər gözəlləşəcək, yaşayış səviyyəsi yüksələcək, torpaqlar bərəkətli, su qaynaqları bol olacaq, zənginlik və bolluq olduğu üçün heç kim ehtiyac içində qalmayacaq. İnsanlar əsas olaraq Allaha yaxınlaşmaq üçün səy göstərəcək və maddədən çox mənəviyyata əhəmiyyət verəcəklər. Din əxlaqının hakimiyyəti ilə anlaşmazlıqlar ortadan qalxacaq, insanlar hüzur və etibar içində yaşayacaq və dünya Allahın elmi ilə dolacaqdır.

Musəvilərin "Olam Ha-ba" (Gözlənən dünya) adlandırdıqları hz. Mehdinin hakimiyyət dövrünü izah edən ifadələri hz. Muhəmmədin (s.ə.s.) "Qızıl əsr"i izah

edən hədisləri ilə çox uyğundur. Musəvi qaynaqlarında olan bu təsvirlərdən bir qismi bu şəkildədir:

- **Sıxıntıların sona çatması:**

... Hakim Rəbb bütün üzlərdən göz yaşlarını siləcək... (Yeşaya, 25:8)

O zaman korların gözləri, karların qulaqları açılacaq, topallar maral kimi qaçacaq, dilsizlərin dili sevinclə açılacaq... (Yeşaya, 35:5-6)

... Onun hakimiyyətində... Ay işıldadıqca sağlamlıq artsın! (Məzmurlar, 72:7)

... əmin-amanlıqdan həzz alacaqlar. (Məzmurlar, 37:11)

... onlara yük olanı, bellərini döyən dəyənəyi, onlara əziyyət verənlərin çubuğunu parça-parça edəcəksən... (Yeşaya, 9:4)

... Allah onlara qəlblərin bütün istəklərini verəcək. (Məzmurlar, 37:4)

Əbəs iş görməyəcəklər... (Yeşaya, 65:23)

- **Su qaynaqlarının bollaşması:**

Çılpaq təpələr üzərində çaylar, vadilərdə bulaqlar axıdacağam. Çölü hovuza, quraq torpağı bulağa çevirəcəyəm... (Yeşaya, 41:18-19)

... çöldə sular fışqıracaq, çaylar axacaq. Qızğın qum hovuza, susuz torpaq bulağa dönəcək... (Yeşaya, 35:6-7)

... dərələrində su axacaq... (Yoel, 3:18)

- **Bolluq və bərəkət olması:**

... o zaman çöl meyvə bağçasına, meyvə baxçası meşəyə dönəcək. (Yeşaya, 32:15)

... Buğdanı çoxaldacağam... ağacların meyvəsini, tarlaların məhsulunu çoxaldacağam. (Yezekel, 36:29-30)

Çöl və quraq torpaq sevinəcək, çöl coşub çiyələk kimi çiçəklənəcək. Hər yer çiçəklənib sevinclə coşacaq, sevincini hayqıracaq... çaqqalların yatdığı yerlərdə qamış və ot bitəcək. (Yeşaya, 35:1-2, 35:7)

Yaxşı olan hər şey bol olacaq və bütün incəlik və gözəlliklər çox rahat əldə olunacaq. (Maimonides, Mişna Tora, Kralların qanunları 12:5)

... Onun günlərində torpaq çiçəklənsin və Ay yox olana qədər əmin-amanlıq olsun. (Məzmurlar, 72:6-7)

... təpələrdən süd damlayacaq... (Yoel, 3:18)

... ikiqat mülk qazanacaqsınız... (Yeşaya, 61:7)

Gün gəlir, Rəbb deyir: "Bağlar salıb meyvəsini yeyəcəklər". (Amos, 9:14)

- **Aclıq və qıtlığın sona çatması:**

Artıq sizə qıtlıq göndərməyəcəyəm... (Yezekel, 36:29-30)

... (Mehdi) dövründə tox olmaları qədərlərindədir... (Talmud, Sanhedrin 98b)

... tox qarına yatacaqlar... (Sefenya, 3:13)

... Yol boyu bəslənəcək, hər çılpaq təpədə otlaq tapacaqlar. Acmayacaq, susamayacaqlar... (Yeşaya, 49:9-10)

- **Meyvə bağçalarının bollaşması:**

(Mehdinin gələcəyi) zamanda, bütün yabanı ağaclar meyvə verəcəklər. (Talmud, Kethuboth 112b)

... bağlar salacaqlar... və bağçalar düzəldib onların meyvəsini yeyəcəklər. (Amos, 9:14)

... o zaman səhra meyvə bağçasına... dönəcək. (Yeşaya, 32:15)

- **Ateist ideologiyaların puç olması:**

Rəbb ilə çəkişənlər parçalanacaqlar... (1. Samuel, 2:10)

Rəbb bütün dünyanın kralı olacaq. O gün yalnız Rəbb, yalnız Onun adı qalacaq... (Zəkəriyya, 14:9)

- **Allaha imanın bütün dünyada hakim olması:**

... sular dənizi necə doldurursa, dünya da Rəbbin elmi ilə dolacaq... (Yeşaya, 11:9)

O dövrdə... Dünyanın tək məşğuliyyəti Allahı tanımaq olacaq... (Maimonides, Mişna Tora, Kralların qanunları 12:5)

(Mehdinin) o günlərində elm, hikmət və həqiqət bütün dünyada artacaq, çünki belə deyilmişdir: "Dünya Allahın elmi ilə dolacaq...". (Maimonides, Mişna Tora, Tövbə 9:2)

- **İnsanların Allahın ucalığını gərəyi kimi təqdir etməyə başlamaları:**

(Mehdi)... Yaradıcılarını mümkün olan ən üst səviyyədə anlamaları mümkün olacaq... (Maimonides, Mişna Tora, Krallların qanunları 12:5)

... İnsanlar Rəbbin ucalığını, Allahımızın görkəmini görəcək. (Yeşaya, 35:2)

O zaman Rəbbin ucalığı görünəcək, bütün insanlar birlikdə Onu görəcək... (Yeşaya, 40:5)

- **İnsanların Allah qorxusu ilə Ona yönəlmələri:**

... Son günlərdə qorxaraq Rəbbə və Onun yaxşılığına yönələcəklər. (Hoşea, 3:5)

Dünyanın dörd tərəfi Rəbbə dönəcək, bütün xalqlar Onun qarşısında əyiləcəklər. Çünki hakimiyyət Rəbbindir... (Məzmurlar, 22:27-28)

- **Allahın bir və tək ilah olaraq xatırlanması:**

... o gün bir olan Rəbb ucaldılacaq. (Yeşaya, 2:17)

- **Allahın əmr və qadağalarına tabe olunması:**

... Buyruqlarımı izləyəcək, qaydalarıma tabe olacaq, onları tətbiq edəcəklər. (Yezekel, 37:23-24)

... ürəklə Rəbbə qulluq etsinlər, hamısı Rəbbin adını çağırsınlar deyə, qövmlərə təmiz səs verəcəyəm. (Sefenya, 3:9)

- **İnsanların günahdan uzaq, iman təmizliyi ilə yaşamaları:**

... günah işlədikləri yerlərdən qurtarıb təmizləyəcəyəm... (Yezekel, 37:23-24)

Onları mənə qarşı işlədikləri bütün günahlardan təmizləyəcəyəm... (Yeremya, 33:8)

Xalqının hamısı doğru insanlar olacaq... (Yeşaya, 60:21)

Orada bir yol, bir əsas yol olacaq, “müqəddəs yol” deyə xatırlanacaq, murdar insanlar keçə bilməyəcək oradan. O yol xilas olanların yoludur. O yolda gedənlər axmaq insanlar da olsa, yoldan sapmayacaq. (Yeşaya, 35:8)

Salehlər yeri miras alar və onda əbədi olaraq qalarlar. (Məzmurlar, 37:29)

Utanmaq yerinə ikiqat qürur tapacaqsınız. (Yeşaya, 61:7)

- **Yalan və saxtakarlığın sona çatması:**

... (Mehdi dövründə xalq) haqsızlıq etməyəcək, yalan danışmayacaq, kimsəni aldatmayacaq... (Sefenya, 3:13)

... Saxta peyğəmbərləri də, çirkli ruhu da ölkədən uzaqlaşdıracağam. (Zəkəriyya, 13:2)

... onun günlərində düzgünlük inkişaf etsin... (Məzmurlar, 72:7)

- **Dünyaya ədalətin hakim olması:**

O zaman ədalət səhraya qədər yayılacaq, düzgünlük meyvə bağçasında məskunlaşacaq... (Yeşaya, 32:16)

- **İdarəçilərin ədalətli olması:**

... öndərlər ədalətlə idarə edəcək. Hər biri küləyə qarşı bir sığınacaq, fırtınaya qarşı bir sığınacaq, səhrada axar su, quraq yerdə kölgə salan böyük bir qaya kimi olacaq. (Yeşaya, 32:1-2)

- **Döyüşlərin sona çatması:**

... Xalq xalqa qılınc qaldırmayacaq, müharibə üçün təhsil almayacaqlar artıq. (Yeşaya, 2:4; Mika, 4:3)

Müharibə avadanıqlarını Efrayimdən, atları Yerusəlimdən uzaqlaşdıracağam. Döyüş yayları qırılacaq... (Zəkəriyya, 9:10)

O dövrdə aclıq  və ya döyüş, həsəd və ya düşmənlik olmayacaq... (Maimonides, Mişna Tora, Kralların qanunları 12:5)

- **Silahlanmanın sona çatması:**

... silahları yanacaq. Böyük-kiçik qalxanları, yayları, oxları, çubuqları, mizraqları alova atacaqlar... Yandırmaq üçün silahlardan istifadə edəcəklər... (Yezekel, 39:9-10)

... İnsanlar qılınclarını çəkiclə döyüb şum dəmiri, mizraqlarını bağça bıçağı edəcəklər... (Yeşaya, 2:4; Mikeya, 4:3)

- **Şiddət və terrorun sona çatması:**

... kimsə zərər verməyəcək, yox etməyəcək... (Yeşaya, 11:9)

... qurdla quzu birlikdə otlayacaq, aslan mal kimi saman yeyəcək. İlanın yeməyi isə torpaq olacaq... (Yeşaya, 65:25)

- **Sülh və etibarlı mühit olması:**

Hər kəs öz çardağının və əncir ağacının altında oturacaq. Heç kim heç kimi qorxutmayacaq... (Mikeya, 4:4)

... Doğruluğun məhsulu, sağlamlığın nəticəsi davamlı hüzur və etibarlılıq olacaq. (Yeşaya, 32:16-18)

Onun dövründə qurdla quzu bir yerdə yaşaycaq, bəbirlə oğlaq birlikdə yatacaq, buzov, gənc aslan və mal yan-yana dayanacaq, onları kiçik bir uşaq otaracaq. İnəklə ayı birlikdə otlayacaq, balaları bir yerdə yatacaq... Əmzikdəki körpə ilan yuvası üzərində oynayacaq, süddən kəsilmiş uşaq əlini ilan yuvasına salacaq... heç kimə zərər verməyəcək, yox etməyəcək... (Yeşaya, 11:6-9)

... onları qorxudan olmayacaq. (Sefenya, 3:13)

.... Onu hər yandan əhatə edən düşmənlərindən qurtarıb rahatlığa qovuşduracağam... (1. Salnamələr, 22:9)

- **İnsanların xöşbəxt olması və sevincli şəkildə yaşamaları:**

... Üzlərində sonsuz sevinc olacaq. Sevinc onların olacaq, kədər və inilti bitəcək. (Yeşaya, 51:11)

... Orada şadlıq və sevinc, təşəkkür və əylənmək olacaq. (Yeşaya, 51:3)

Əkin biçənlərin sevindiyi, qənimət paylaşanların coşduğu kimi, onlar da sevinəcək sənin qarşında. (Yeşaya, 9:3)

... sevinciniz sonsuz olacaq. (Yeşaya, 61:7)

- **İnsanların hüzur və əmin-amanlıq mühitində yaşamaları:**

... hüzur  və təhlükəsizlik içində olacaq... (Yeremya, 30:10)

İnsanlar oraya yerləşib təhlükəsilzik içində yaşayacaq... (Zəkəriyya, 14:11)

... şəfa, bol sağlamlıq verib amanlıqda yaşamalarını təmin edəcəyəm. (Yeremya, 33:6)

- **Dolanışıq çətinliyinin olmaması:**

(Mehdi dövründə) insanların ruzi qazanmaları çox asan olacaq... (Maimonides Mişna təfsiri, Sanhedrin 10:1)

... Sevgisi səni yeniləyəcək... Görəcəksiniz, sizi yenidən mütərəqqi edəcək... (Sefenya, 3:17, 20)

- **Təhlükə və narahatlığın qalmaması:**

Aslan olmayacaq orada, yırtıcı heyvan o yola çıxmayacaq, orada olmayacaqlar... (Yeşaya, 35:9)

... kimsə onu qorxutmayacaq. (Yeremya, 30:10)

- **Yıxılan şəhərlərin abadlaşdırılması:**

... xarab olan şəhərləri abadlaşdıracaqlar  və orda yaşayacaqlar... (Amos, 9:14)

O zaman köhnə xarabalıqları yenidən tikəcəklər, çoxdan viranəyə dönmüş yerləri yenidən quracaq, dağılmış şəhərləri təmir edəcəklər. (Yeşaya, 61:4)

... əvvəlki rifahına qovuşduracaq, əvvəllər olduğu halını bərpa edəcəyəm. (Yeremya, 33:7)

- **Qlobal istiləşməyə çarə tapılması:**

... qovurucu isti və günəş vurmayacaq onları... (Yeşaya, 49:9-11)

- **Yol və körpülərin artması:**

... Bütün dağlarımı yola çevirəcəyəm, əsas yollarım yüksəldiləcək. (Yeşaya, 49:9-11)

- **Qürurluların yerini təvazökarların alması:**

... qürurlu, həyasız olanları uzaqlaşdıracağam aralarından... bir daha loğvalanmayacaqlar. (Sefenya, 3:11)

Orada yalnız mənim adıma sığınan itaətli və təvazökarları saxlayacağam. (Sefenya, 3:12)

İnsanların qüruru qırılacaq... (Yeşaya, 2:17)

- **İnsanların ürəklərinin imanla yumşalması:**

(Mehdinin) o günlərində... "daş kimi qatılaşmış ürəklərinizi bədəninizdən söküb götürəcəyəm". (Maimonides Mişna Tora, Tövbə 9:2)

- **Ağıl və hikmətin artması:**

Düşüncəsizin ağlı hikmətə dönəcək... (Yeşaya, 32:4)

(Mehdi dövrü)... ağıllı insanların sayının artacağı bir dövr olacaq... (Maimonides Mişna təfsiri, Sanhedrin 10:1)

(Mehdi dövründə)... çox azla çox şey bacaracaqlar... (Maimonides Mişna təfsiri, Sanhedrin 10:1)

- **Batini elmlərin öyrənilməsi:**

O dövrdə... batini həqiqətləri qavrayacaqlar və qavradıqları qədəri ilə Yaradıcının ağlını idrak edəcəklər. Çünki belə yazılmışdır: "Çünki dünya da suyun dənizi örtməsi kimi Allahın elmi ilə dolacaq...". (Maimonides Mişna Tora, Kralların qanunları 12:5)

- **Dəyər mühakimələrinin düzəlməsi:**

Artıq axmağa əsil-nəcabətli, alçağa hörmətli deyilməyəcək. (Yeşaya, 32:5)

- **Şirk qoşmadan iman edilməsi:**

"O gün ölkədən bütlərin adlarını qaldıracağam, bir daha xatırlanmayacaqlar", - deyir hər şeyə hakim Rəbb... (Zəkəriyyə, 13:2)

Artıq bütləri ilə, iyrənc əməlləri ilə, üsyanları ilə özlərini çirkləndirməyəcəklər... (Yezekel, 37:23)

- **Tövratın əvvəlki halına qaytarılması:**

... Onun (Mehdinin) dövründə (Tövratın) bütün qanunları əvvəldən olduğu kimi əvvəlki halına gətiriləcək... (Maimonides, Mişna Tora, Kralların qanunları 11:4)

## İncildə Mehdiyə (ə.s.) işarələr

İncildə axır zaman və hz. İsanın ikinci gəlişi ilə əlaqədar çox sayda izaha rast gəlmək mümkündür. Müasir İncilin bəzi hissələri pozulmuş olsa da, Quran ayələri və Peyğəmbərimizin (s.ə.s.) hədislərinə uyğun qisimlərində hz. İsanın gəlişindən əvvəl və sonra baş verəcək təbiət hadisələri, ictimai hadisələr izah edilir. Peyğəmbərimizin (s.ə.s.) bildirdiyi kimi, hz. İsa dünyadakı dinsizliyi təmsil edən dəccal ilə böyük bir mübarizə aparıb onu məğlub edəcək və dünyada din əxlaqının tam olaraq hakim olduğu müqəddəs bir dövrün başlamasını təmin edəcək.

Peyğəmbərimizin (s.ə.s.) hədislərinə görə, hz. Mehdi hz. İsa ilə görüşəcək, ikisi birlikdə namaz qılacaqlar. Bir rəvayətdə isə hz. Mehdinin hz. İsanı xalqa tanıdacağı nəql edilmişdir. Hz. Mehdi və hz. İsa müəyyən bir dövr dünyada birlikdə hökm edəcəklər və dəccali fikir sistemini də birlikdə ortadan qaldıracaqlar. (Doğrusunu Allah bilir).

Hz. İsa ilə hz. Mehdi eyni dövrdə (axır zamanda) birlikdə olacaqları üçün Mehdinin (ə.s.) çıxış əlamətləri kimi, hz. İsanın dünyaya ikinci dəfə gəlişini xəbər verən əlamətlər də ortaqdır. Eyni dövrü təsvir edən bu izahlar həm hz. Mehdinin, həm də hz. İsanın ikinci gəlişinin işarələridir. İncildə verilən xəbərlərin doğruluğundan tam şəkildə əmin ola bilmərik. Lakin İncilin Quran ayələri və Peyğəmbərimizin (s.ə.s.) səhih hədisləri ilə uyğun izahları diqqəti xüsusilə cəlb edir.

## İncildə Mehdinin (ə.s.) çıxışından əvvəlki dövr

Axır zaman əlamətləri İncildə bəzən açıq ifadələrlə, bəzən də işari izahlarla açıqlanır. İncildəki bu ifadələrə baxıldığında hz. Mehdinin çıxışından əvvəlki bu dövrdə əxlaqi və ictimai bir pozulma yaşanacağı, böyük döyüşlərin olacağı,

dəhşətli fəlakətlərin yaşanacağı, kosmosda fövqəladə hadisələrin meydana gələcəyi, insanların din əxlaqından uzaqlaşacağı, ədalətsizlik və haqsızlığın yayılacağı, səmimi olaraq iman edənlərin incidiləcəyi, dinclik və təhlükəsizliyin yerini xaos və narahatlığın alacağı görünür. İncildəki bu əlamətlərdən bir qismi belədir:

**1.Dinsizliyin yayılması:**

O zaman insanların çoxu imandan sapacaq... (Matta, 24:10)

... sonrakı dövrlərdə bəziləri imandan dönəcək. (Timoteosa 1-ci məktub, 2:3)

... imandan sapmadıqca... o gün gəlməyəcək. (Səlaniklilərə 2-ci məktub, 2:3)

... "Dünyanın son günlərində... Allahsızlığa yönəlib öz istəklərinə görə yaşayanlar olacaq". (Yəhudanın məktubu, 1:18)

... həqiqətə qarşı çıxırlar. Düşüncələri korlanmış, imandan uzaqlaşmış insanlardır. (Timoteosa 2-ci məktub, 3:8)

**2.Yaradılışın inkar edilməsi:**

Belə ki, göylərin Allahın sözü ilə var olduğunu, yerin sudan və su vasitəsi ilə formalaşdığını unudurlar. (Petrusun 2-ci məktubu, 3:5)

**3.Allaha şirk qoşulmasının yayılması:**

Qalan insanlar, yəni bu bəlalardan ölməmiş olanlar öz əlləri ilə düzəltdikləri bütlərdən uzaqlaşıb tövbə etmədilər. Cinlərə və görməyən, eşitməyən, qızıl, gümüş, tunc, daş, taxta bütlərə ibadət etməkdən imtina etmədilər. (Vəhy, 9:20)

Sonrakı dövrlərdə bəziləri imandan irtidad edib (dindən çıxıb), hiyləgər ruhlar və cinlərin öyrətdiklərini dinləyəcəklər. (Timoteosa 1-ci məktub, 4:1)

**4.Allahın əmr və qadağalarına tabe olmamaları:**

... Rəbbin səlahiyyətini heçə sayırlar... (Yəhudanın məktubu, 1:8)

... Günahdan doymazlar... (Petrusun 2-ci məktubu, 2:14)

**5.Dini dəyərlərə hörmətin qalmaması:**

... Uca varlıqları təhqir edirlər. (Yəhudanın məktubu, 1:8)

**6.Dini mənfəətlərinə görə yaşayan kəslərin ortaya çıxması:**

Çünki elə bir zaman gələcək ki, doğrunu eşitməyə dözə bilməyəcəklər. Xoşlarına gələn sözləri dinləyə bilmək üçün ətraflarına öz arzularına uyğun müəllimlər yığacaqlar... (Timoteosa 2-ci məktub, 4:3-4)

Çoxlu saxta peyğəmbər törəyəcək və bunlar insanların çoxunu yoldan azdıracaq. (Matta 24:11)

**7.Dinin əslindən uzaqlaşmaları, bidətlərə tabe olmaları:**

Çünki elə bir zaman gələcək ki, təlimə dözə bilməyəcəklər... Qulaqlarını həqiqətin səsinə tıxayacaq, əfsanələrə dalacaqlar. (Timoteosa 2-ci məktub, 4:3-4)

... Allahın iman edənlər üçün yaratdığı halal ruzilərdən çəkinməyin lazım olduğunu buyuracaqlar. (Timoteosa 1-ci məktub, 4:3)

**8.Fitnələrin artması:**

... aranızda yalnış fikir yayanlar kimi. Bunlar... gizlicə aranıza fitnə salacaqlar. (Petrusun 2-ci məktubu, 2:1)

İnsanların çoxu da onların pozğunluğuna yönələcək. Onlara görə haqq təhqir olunacaq. (Petrusa 2-ci məktub, 2:2)

Pisliklər çoxaldığına görə... (Matta, 24:12)

**9. Batil inancların yayılması:**

...Cadu... etməkdən də tövbə etmədilər. (Vəhy, 9:21)

Sonrakı dövrlərdə... hiyləgər ruhları və cinlərin öyrətdiklərini dinləyəcəklər. (Timoteosa 2-ci məktub, 4:3)

**10. Münafiqlərin artması:**

Allah yolundaymış kimi görünüb bu yolun gücünü inkar edənlər olacaq. Belələrindən uzaq ol. (Timoteosa 2-ci məktub, 3:5)

**11. Səmimi olaraq iman edənlərə əziyyət verilməsi:**

Mənim adıma görə kralların önünə çıxarılacaqsınız... Ata-analarınız, qardaşlarınız, qohum və dostlarınız belə sizi ələ verəcək və bəzilərinizi öldürəcəklər. Mənim adıma görə hər kəs sizdən nifrət edəcək... (Luka, 21:12, 16-19)

Bütün bunlar doğum sancılarının başlanğıcıdır. O zaman sizi çətinliyə salacaq, öldürəcəklər. Mənim adıma görə bütün xalqlar sizdən nifrət edəcək. (Matta, 24:8-9)

... İnsanlar sizi məhkəmələrə verəcək... Mənə görə kralların önünə çıxarılacaq, beləcə onlara şahidlik edəcəksiniz... Mənim adıma görə hər kəs sizdən nifrət edəcək... (Markos, 13:9, 13)

**12. Pislik edənlərin birlik olmaları.**

**13. Zəlzələlərin artması:**

Qorxmayın əsla! Bunların olması lazımdır, amma bu daha son demək deyil... zəlzələlər olacaq. Bütün bunlar doğum sancılarının başlanğıcıdır. (Matta, 24:6-8)

Şiddətli zəlzələlər... olacaq. (Luka, 21:11)

... günlər gələcək ki, o vaxt burada yıxılmayan ev qalmayacaq. (Luka, 21:6)

Elə böyük bir zəlzələ oldu ki, insan dünyada olduğundan bəri bu qədər böyük bir zəlzələ olmamışdır. Böyük şəhər üç yerə bölündü. Xalqlara aid şəhərlər də yerlə bir oldu. (Vəhy, 16:18-19)

... bəzən zəlzələlər... olacaq. (Markos, 13:8)

**14. Qıtlıq olması:**

Qorxmayın əsla! Bunlar olmalıdır, amma bu daha son demək deyil... bəzən qıtlıqlar... olacaq. Bütün bunlar doğum sancılarının başlanğıcıdır. (Matta, 24:6-8)

... bəzən qıtlıqlar... olacaq. (Luka, 21:11)

... qıtlıqla... ölüm saçmaq üçün... dünyanın dörddə biri üzərində səlahiyyət verildi. (Vəhy, 6:7)

... qıtlıqlar olacaq. (Markos, 13:8)

**15. Qasırğa və sunami dalğalarının olması:**

... Dünya dənizin və dalğaların uğultusundan çaşqına dönəcək, dəhşətə düşəcək. (Luka, 21:25)

**16. Vulkanlarının olması:**

Dibsiz dərinliklərin quyusundan böyük bir ocağın tüstüsü kimi bir tüstü çıxdı... (Vəhy, 9:2)

... Onda göylər böyük səs-küy ilə sarsılacaq və yer və onda olanlar yanıb bitəcək. (Petrusa 2-ci məktub, 3:10)

**17. Fırtına və şimşəklərin artması:**

... O zaman göy gurultusu və uğultular eşidildi, şimşəklər çaxdı və yer sarsıldı. (Vəhy, 8:5)

O anda şimşəklər çaxdı, uğultular və göy gurultusu eşidildi. Yer sarsıldı və şiddətli dolu yağdı. (Vəhy, 11:19)

**18. Şiddətli dolu yağması:**

İnsanların üstünə dənəsi təxminən qırx kilo olan iri dolu yağdı. Dolu bəlası elə qorxunc idi ki... (Vəhy, 16:21)

**19. Təbii fəlakətlərlə dünyanın dəyişməsi:**

Bütün adalar, dağlar yox oldu. (Vəhy, 16:20)

... Hər dağ, hər ada yerlə bir oldu. (Vəhy, 6:14)

**20. Torpaq sürüşmələrinin olması:**

Dağlara, qayalara: "Üstümüzə düşün!", -dedilər... (Vəhy, 6:16)

**21. Səmada fövqəladə hadisələrin olması:**

... Onda göylər böyük səs-küylə sarsılacaq... (Petrusa 2-ci məktub, 3:10)

... göydə fövqəladə nişanələr olacaq. (Luka, 21:11)

**22. Meteorit yağışlarının yağması:**

Əncir ağacı güclü bir küləklə sarsıldığında necə xam əncirlərini tökdüsə, göydəki ulduzlar da eləcə dünyaya düşdü. (Vəhy, 6:13)

**23. Meteroit düşməsi:**

... Göydən yerə düşmüş bir ulduz gördüm... (Vəhy, 9:1)

**24. Günəş və ayda əlamətlər meydana çıxması:**

Günəşdə, Ayda və ulduzlarda nişanələr görünəcək... (Luka, 21:25)

O günlərin çətinliyindən sonra Günəş qaralacaq, Ay işığını verməyəcək, ulduzlar göydən düşəcək. (Matta, 24:29; Markos, 13:24-25)

... Günəşə insanları odla yandırıb qovurma gücü verildi. İnsanlar qorxunc bir istiliklə qovruldular. (Vəhy, 16:8-9)

**26. Yanğınların artması:**

... Yerin üçdə biri, ağacların üçdə biri və bütün yaşıl otlar yandı. (Vəhy, 8:7)

**27. Epidemioloji xəstəliklərin olması:**

... epidemioloji xəstəliklər... olacaq. (Luka, 21:11)

... vəba ilə... ölüm saçmaq üçün dünyanın dörddə biri üzərində səlahiyyət verildi. (Vəhy, 6:7)

**28. Çəyirtkələrin yayılması:**

Tüstünün içindən dünyaya çəyirtkələr yağdı. Bunlara dünyadakı əqrəblərin gücünə oxşar bir güc verilmişdi. Çəyirtkələrə dünyadakı otlara, hər hansı bir bitki və ya ağaca deyil, yalnız alınlarında Allahın möhürü olmayan insanlara zərər vermələri əmr olundu. (Vəhy, 9:3-4)

**29. Döyüşlər və böyük dəniz qəzaları ilə dənizlərdə canlıların tələf olması:**

... Alov-alov yanan dağ kimi böyük bir kütlə dənizə atıldı. Dənizin üçdə biri qana bulandı. Dənizdəki canlı varlıqların üçdə biri öldü... (Vəhy, 8:8-9)

... Dəniz ölü qanına oxşar bir qana bulandı və içindəki bütün canlılar öldü. (Vəhy, 16:3)

**30. İnsanları dəhşətə gətirən fəlakətlərin olması:**

Dünyaya baş verən fəlakətlərin qorxusundan insanlar huşlarını itirəcək... (Luka, 21:26)

Dünya kralları, böyükləri, zənginləri, güclüləri, azadı, köləsi hər kəs mağaralarda, dağlardakı qayaların arasında gizləndilər... Çünki onların qəzəbinin böyük günü gəldi. Buna kim dözə bilər? (Vəhy, 6:15-17)

**31. (Kəban anbarı ilə) Fərat çayının suyunun azalması:**

Altıncı mələk tasını böyük Fərat çayına boşaltdı. Şərqdən gələn kralların yolu açılsın deyə çayın suları qurudu. (Vəhy, 16:12)

Altıncı mələk əlindəki tası Fərat çayı üzərinə boşaldınca çayın suları qurudu. (Vəhy, 16:12)

**32. Böyük müharibələrin olması:**

Müharibə səs-küyləri, döyüş xəbərləri eşidincə qorxmayın. Bunlar olmalıdır, amma bu, daha son demək deyil. Xalq xalqa, dövlət dövlətə müharibə elan edəcək. Bunlar, doğum sancılarının başlanğıcıdır. (Markos, 13:7-8)

... Müharibə səs-küyləri, döyüş xəbərləri eşidəcəksiniz. Qorxmayın əsla! Bunlar olmalıdır, amma bu, daha son demək deyil. Xalq xalqa, dövlət dövlətə müharibə elan edəcək... (Matta, 24:6-7)

"Müharibə və üsyan xəbərləri eşidincə təlaşlanmayın. Əvvəl bunların olmalıdır. Amma nəticə dərhal olmaz". Sonra onlara belə dedi: "Xalq xalqa, dövlət dövlətə müharibə elan edəcək". (Luka, 21:9-10)

**33. Dünyada sülhün olmaması:**

... dünyadan sülhü itirmək səlahiyyəti verildi. Bunun nəticəsi olaraq insanlar bir-birlərini boğacaqlar... (Vəhy, 6:4)

**34. Üsyanların artması:**

... üsyan xəbərləri eşidincə təlaşlanmayın. Əvvəl bunlar olmalıdır. Amma nəticə dərhal olmaz. (Luka, 21:9)

**35. Təxribatçıların artması:**

Bunlar (dünyanın son günlərində yaşayanlar) nifaq salan... kəslərdir. (Yəhudanın məktubu, 1:19)

Dünyaya sülh gətirməyə gəldiyimi sanırsınız? Sizə xeyr deyirəm, mən ayrılıq gətirməyə gəldim. (Luka, 12:51-52)

Bundan belə bir evdə beş adam, ikiyə qarşı üç, üçə qarşı iki bölünmüş olacaq... (Luka, 12:52)

**36. Kin və düşmənçiliyin artması:**

Qardaş qardaşını, ata uşağını ölümə atacaq. Uşaqlar ata-analarına baş qaldırıb onları öldürəcək. (Markos, 13:12)

... insanlar bir-birlərini boğacaqlar... (Vəhy, 6:4)

**37. İbadət yerlərinin dağıdılması:**

Bəzi kəslər məbədin necə gözəl daş və əhdlərlə bəzəndiyindən danışınca İsa: "Burada gördüklərinizə gəlincə, elə günlər gələcək ki, daş üstündə daş qalmayacaq, hamısı yıxılacaq!", -dedi. (Luka, 21:5-6)

**38.Ölümlərin artması:**

Ölülər diyarı onun ardınca gəlirdi. Bunlara dünyanın dörddə birini qılınc, qıtlıq, vəba və dünyanın vəhşi heyvanları ilə ölümlə təhdid etmək səlahiyyəti verildi. (Vəhy, 6:7)

Üçüncü mələk tasını çaylara, su mənbələrinə boşaltdı. Bunlar da qana çevrildi. (Vəhy, 16:4)

**39.Orta şərqdə qan tökülməsi:**

... “Böyük Fərat çayının yanında bağlı olan dörd mələyi hazır et”, - dedi. O saat, o gün, o ay, o ili gözləyən dörd mələk insanların üçdə birini öldürmək üçün hazır edildi. (Vəhy, 9:14-15)

**40.Qüds və ətrafının ordularla əhatə edilməsi:**

... Yerusəlimi (Qüdsü) ordularla əhatə edilmiş gördüyünüz zaman... (Luka, 21:20)

**41.Müharibələrdə texnoloji vasitə və silahlardan istifadə edilməsi:**

... Alov, göy yaqut və kükürd rəngində zirehlərlə əhatə olunmuşdular. Atların başları aslan başına bənzəyirdi. Ağızlarından alov, tüstü, kükürd fışqırırdı. İnsanların üçdə biri bunların ağzından fışqıran alov, tüstü və kükürddən, bu üç bəladan öldü. Atların gücü ağızlarında və quyruqlarındadır. Quyruqlarının ucu ilə zərər verərlər. (Vəhy, 9:17-19)

... Mən dünyaya alov yağdırmağa gəldim... (Luka, 12:49)

**42.Cinayətlərin artması:**

Adam öldürməkdən... tövbə etmədilər. (Vəhy, 9:21)

**43.Fahişəliyin yayılması**:

... fahişəlik... etməkdən də tövbə etmədilər. (Vəhy, 9:21)

... gördükləri xülyalara əsaslanıb öz bədənlərini çirklədirlər... (Yəhudanın məktubu, 1:8)

Gözləri zina ilə doludur... (Petrusun 2-ci məktubu, 2:14)

**44.Zinanın artması:**

Sonrakı dövrlərdə bəziləri imandan irtidad edib (dindən çıxıb), hiyləgər ruhları və cinlərin öyrətdiklərini dinləyəcəklər... Evlənməkdən məhrum edəcəklər... (Timoteosa 1-ci məktub, 4, 1-3)

**45.Oğruluğun artması:**

... oğruluq etməkdən də tövbə etmədilər. (Vəhy, 9:21)

**46.Saxtakarlığın artması:**

... Sizinlə yeyib-içərkən öz hiylələrindən zövq alarlar. (Petrusun 2-ci məktubu, 2:13)

... pislər və saxtakarlar, aldadaraq və aldanaraq getdikcə daha betər olacaqlar. (Timoteosa 2-ci məktubu, 3:13)

**47.Vicdanların korlanması:**

Yalan danışanların ikiüzlülüyü ilə vicdanları dağlanacaq. (Timoteosa 2-ci məktub, 4:2)

Bu mövzuda söyləyəcək çox sözümüz var, amma qulaqlarınız uyuşduğu üçün başa salmaq çətindir. (İbranilərə məktub, 5:11)

**48.Əxlaqsız və məqsədsiz yaşamaları:**

Köpüyünü sovuran dənizin azğın dalğaları kimi ayıblarını ətrafa sovurarlar. Avara ulduzlar kimidirlər... (Yəhudanın məktubu, 1:13)

**49.Mənəviyyatdan uzaq olmaları:**

Bunlar (dünyanın son günlərində yaşayanlar)... müqəddəs ruhdan məhrum kəslərdir. (Yəhudanın məktubu, 1:19)

**50.İnsanlar arasında sevginin azalması:**

Pisliklərin çoxalmasına görə çoxlarının sevgisi soyuyacaq. (Matta, 24:12)

İnsanlar... müqəddəslikdən və sevgidən məhrum... olacaqlar. (Timoteosa 2-ci məktub, 3:2-3)

**51.Qəzəbin artması, əfvin qalmaması:**

... bir-birlərini ələ verəcək və bir-birlərindən nifrət edəcəklər. (Matta, 24:10)

İnsanlar... uzlaşmaz, özünə nəzarət edə bilməyən, azğın və yaxşılıq düşməni olacaqlar. (Timoteosa 2-ci məktub, 3:2-3)

**52.Hörmətin azalması:**

İnsanlar... söyüşkən... olacaqlar. (Timoteosa 2-ci məktub, 3:2-3)

**53.Uşaqların üsyankar olması:**

... Uşaqlar ata-analarına baş qaldırıb onları öldürdəcəklər. (Markos, 13:12)

... ata-ana sözü dinləməz... olacaqlar. (Timoteosa 2-ci məktub, 3:3)

**54.Ailəvi əlaqələrin pozulması:**

Ata oğluna qarşı, oğul atasına qarşı, ana qızına qarşı, qız anasına qarşı, qayınana gəlininə qarşı, gəlin qayınanasına qarşı olacaq. (Luka, 12:53)

**55.İnsanların maddi dəyərlərə düşgün olmaları:**

İnsanlar... pul düşkünü... olacaqlar. (Timoteosa 2-ci məktub, 3:2-3)

**56.Zənginlərin sərvətlərinin artması:**

... Dinləyin indi, ey zənginlər... Son günlərdə sərvətinizə sərvət qatdınız. (Yaqubun məktubu, 5:1-3)

**57.Zənginlərin daha da zənginləşməsi, kasıbların isə kasıblaşması:**

... kimdə varsa, ona daha çox veriləcək və o bolluq içində olacaq. Amma kimdə yoxdursa, özündə olan da əlindən alınacaq. (Matda, 25:28-29; Luka, 19:26)

**58.Faiz sisteminin və haqsız qazancın yayılması:**

Əfəndisi ona: "Ey pis kölə... niyə pulumu faizçilərə vermədin? Mən də gəldiyimdə onu faizi ilə geri alardım". (Luka, 19:22-23)

**59.İnsanların pozğun və sərxoş olması:**

Özünüzə diqqət edin! Ürəkləriniz pozğunluq, sərxoşluq və bu həyatın qayğıları ilə ağırlaşmasın. O gün üzərinizə bir tələ kimi birdən enməsin. (Luka, 21:34-35)

... Gündüzlər zövqə dalmağı əyləncə sayarlar. (Petrusun 2-ci məktubu, 21:13)

... Avara kimi yeyib-içən bu kəslər bir qara ləkədir... (Yəhudanın məktubu, 1:12)

**60.Allahın razılığı yerinə dünyəvi istəklərini düşünmələri:**

Allahdan çox əyləncəni sevənlər... olacaqlar... (Timoteosa 2-ci məktub, 3:4-5)

**61.Yalnız öz həvalarına (həvəs və istəklərinə) görə yaşamaları:**

... Dünyanın son günlərində... öz istəklərinə görə yaşayanlar olacaq. (Yəhudanın məktubu, 1:18)

... öz istəklərinin ardınca gedərlər... (Yəhudanın məktubu, 1:16)

... istəkləri ilə yaşayan... ağıldan məhrum heyvanlar kimidir... (Petrusun 2-ci məktubu, 2:12)

... dünyanın son günlərində öz istəklərinin arxasınca gedən... kəslər törəyəcək. (Petrusun 2-ci məktubu, 3:3)

**62.İman etmədikləri üçün ağıldan məhrum yaşamaları:**

Amma bu kəslər anlamadıqları hər şeyə söyürlər. Bir tərəfdən də ağıldan məhrum heyvanlar kimi istəkləri onları uçuruma aparır. (Yəhudanın məktubu; 1:10)

Amma anlamadıqları mövzularda söyüş söyən bu kəslər həvəsləri ilə yaşayan, tutulub kəsilmək üçün doğulan, ağıldan məhrum heyvanlar kimidir... (Petrusun 2-ci məktubu, 2:12)

**63.Gördükləri işlərin bərəkətsiz olması:**

... Küləyin apardığı yağışsız buludlara, kökündən qoparılmış, payızın meyvəsiz ağaclarına bənzərlər. (Yəhudanın məktubu, 1:12)

**64.Eqoizmin artması:**

İnsanlar özlərini sevən... nankor... olacaqlar. Xain... olacaqlar. (Timoteosa 2-ci məktub, 3:2-5)

... yalnız özlərini bəsləyən çobanlardır... (Yəhudanın məktubu, 1:12)

**65.Mənfəətçi olmaları:**

... öz mənfəətləri üçün başqalarını aldadarlar. (Yəhudanın məktubu, 1:16)

**66.Acgöz olmaları:**

... Ürəyi acgözlüyə alışdırılmış lənətli insanlardır. (Petrusun 2-ci məktubu, 2:14)

Acgözlülüklərinə görə uydurma sözlərlə sizi istismar edəcəklər... (Petrusa 2-ci məktub, 2:3)

**67.Şikayətçi olmaları:**

Bunlar həmişə şikayətlənib deyinirlər... (Yəhudanın məktubu, 1:16)

**68.Səbirsiz olmaları:**

İnsanlar... tələskən... olacaqlar. (Timoteosa 2-ci məktub, 32:2-5)

**69.Pis söz söyləmələri:**

... Ağızlarından pis sözlər çıxar... (Yəhudanın məktubu, 1:16)

**70.Qürurun artması:**

İnsanlar... qürurlu... olacaqlar... özünü bəyənmiş... olacaqlar. (Timoteosa 2-ci məktub, 3:2-5)

**71.Lağın artması:**

... Dünyanın son günlərində lağ edənlər... olacaq. (Yəhudanın məktubu, 1:18)

... Dünyanın son günlərində... lağ edənlər törəyəcək. (Petrusun 2-ci məktubu, 3:3)

**72. İnsanların bədbəxt olmaları:**

... Dünyadakı bütün xalqlar ağlayacaqlar... (Matta, 24:30)

**73.Çox çətin hadisələrin yaşanması:**

O günlərdə hamilə və əmzikli olanların vay halına! Çünki ö böyük çətinlik və bu qövmə əzab gələcək. (Luka, 21:23)

... qorxunc hadisələr... olacaq. (Luka, 21:11)

O günlərdə elə qorxunc çətinliklər olacaq ki, dünyanın başlanğıcından bu yana beləsi olmamış, bundan sonra da olmayacaq. (Matta, 24:21)

Bunu bil ki, son günlərdə çətin anlar olacaq. (Timoteosa 2-ci məktub, 3:1)

... İnsanlar sıxıntıdan dillərini dişlədilər. (Vəhy, 16:10)

**74.Allaha təvəkkül etməmələri, başlarına gələnlərə görə üsyan etmələri:**

Çətinlik və yaralarına görə göyün Allahına söydülər. Etdiklərindən tövbə etmədilər. (Vəhy, 16:11)

**75.İnsanların qurtuluş üçün ümidlərini itirmələri:**

O günlərdə insanlar ölümü axtaracaq, amma tapa bilməyəcəklər və ölüm onlardan qaçacaq. (Vəhy, 9:6)

**76. Günlərin qısalması:**

O günlər qısaldılmasaydı, heç kim xilas ola bilməzdi. Amma seçilmiş olanlar uğruna o günlər qısaldılacaq. (Matta, 24:22)

Rəbb o günləri qısaltmasaydı, heç kim xilas ola bilməzdi. Amma Rəbb seçilmiş olanlar üçün, Öz seçdiyi kəslər uğruna o günləri qısaltmışdır. (Markos, 13:20)

**77. İraqda döyüş olması:**

77.1 İraqın bombalanması:

Sonra güclü bir mələk dəyirman daşına bənzər böyük bir daşı qaldırıb dənizə ataraq belə dedi: "Böyüklər şəhəri Babil* də belə şiddətlə atılacaq və bir daha görülməyəcək". (Vəhy, 18:21)

*Babil: Hazırda İraq torpaqlarında olan qədim bir şəhər adıdır.

77.2 İraq şəhərlərinin yıxılması:

"... böyük Babil yıxıldı!" - deyirdi. (Vəhy, 14:8)

... "Yıxıldı! Böyük Babil yıxıldı!...". (Vəhy, 18:2)

77.3 İraqda qısa bir müddət ərzində böyük bir dağılma olması:

O böyük zənginlik bir saat içində yox oldu... (Vəhy, 18:17)

... Şəhər bir saat içində viranəyə döndü. (Vəhy, 18:19

77.4. İraqın kasıblaşması:

Dünya tacirləri onun (Babil) üçün ağlayıb yas tutur. Çünki mallarını satın alacaq kimsə yoxdur artıq. (Vəhy, 18:11)

Babildə bu malları sataraq zənginləşən tacirlər şəhərin çəkdiyi iztirabdan dəhşətə düşəcəklər... (Vəhy, 18:15)

Deyəcəklər ki: "Ürəyinin istədiyi meyvələr əlindən getdi, bütün qiymətli və göz oxşayan malların yox oldu...". (18:14)

77.5. Sənətkarlığın dayanması:

... Artıq səndə mahnı oxuyanların, qaval və şeypur çalanların səsi heç eşidilməyəcək... (Vəhy, 18:22)

77.6. İraq xalqının çətinlik içində və bədbəxt yaşaması:

Artıq səndə şam işığı parlamayacaq. Səndə artıq qohum-əqraba səsi eşidilməyəcək. Sənin tacirlərin dünyanın böyükləri idi... (Vəhy, 18:23)

**78. Dəbbətül-ərzin çıxması:**

Bundan sonra başqa bir canavar gördüm. Yerdən çıxan bu canavarın quzu kimi iki buynuzu vardı, amma əjdaha kimi səs çıxarırdı. İlk canavarın bütün səlahiyyətini onun adından istifadə edir, dünyanı və orada yaşayanları ölümcül yarası yaxşılaşan ilk canavara ibadət etməyə məcbur edirdi. (Vəhy, 13:11-12)

**79. Hz. İlyasın gəlməsi:**

... "Həqiqətən də əvvəl İlyas gələr və hər şeyi yenidən nizama qoyar...". (Markos, 9:12)

**80. Dəccalın ortaya çıxması:**

80.1. Dəccalın dinsizliyi yaymaq üçün geniş fəaliyyət aparması:

... Allaha və ibadət edilən hər şeyə qarşı çıxan və Allahın məbədində oturub özünün Allah olduğunu göstərərək özünü ucaldan, fəsad törədən kəs ortaya çıxmadıqca o gün gəlməz. (Allahı tənzih edirik). (Səlaniklilərə 2-ci məktub, 2:3-4)

Müqəddəslərlə döyüşüb onları məğlub etməsinə icazə verildi... (Vəhy, 13:7)

Allaha söymək, Onun adına və iqamətgahına, yəni göydə yaşayanlara söymək üçün ağzını açdı. (Allahı tənzih edirik). (Vəhy, 13:6)

80.2. Din əxlaqından uzaq yaşayan insanları, illüziyalarla yanıldıb aldatması:

Qanunları tanımayan insan (dəccal) aldadıcı möcüzələrlə və məhv olanları aldadan hər cür pisliklərlə, şeytanın fəaliyyəti ilə gələcək... (Səlaniklilərə 2-ci məktub, 2:9-10)

İlk canavar (dəccalın) həyata keçirməsinə icazə verilən əlamətlər sayəsində yaşayanları yoldan azdırdı... (Vəhy, 13:14)

80.3. Bütün xalqlara təsir etməsi:

... Canavar hər oymaq, hər xalq, hər dil üzərində səlahiyyətli qılındı. (Vəhy, 13:7)

80.4. Ölkələrin siyasi və əsgəri güclərindən dəstək alması:

Sonra canavarı (dəccalı), dünya krallarını və onların ordularını atlıya və Onun ordusuna (Allaha tabe olanlara) qarşı döyüşmək üçün toplanmış gördüm. (Vəhy, 19:19)

80.5. Dinsiz ideologiyalardan böyük dəstək alması:

Düşüncə birliyində olan bu krallar güclərini və səlahiyyətlərini canavara verəcəklər. (Vəhy, 17:13)

80.6. Hz. Mehdinin çıxışına qədər dinsizlik fəaliyyətini davam etdirməsi:

Bəli, dəccaliyyətin gizli gücü bu anda belə təsirlidir... Dəccal ortaya cıxacaq... İsa (ə.s.) onu nəfəsi ilə öldürəcək, gəlişi ilə yox edəcək. (Səlaniklilərə 2-ci məktub, 2:7)

80.7. Hz. Mehdinin çıxışı yaxınlaşdıqca, şeytani fəaliyyətlərin çoxalması:

Böyük əjdaha – iblis və ya şeytan deyilən, bütün dünyanı azdıran o qədim ilan mələkləri ilə birlikdə dünyaya atıldı... Çünki iblis zamanının az olduğunu bilərək böyük bir qəzəblə üzərinizə endi. (Vəhy, 12:9, 12)

80.8. İmanı zəif bütün insanları öz təsirinə salması:

... Bütün dünya qarışıqlıq içində canavarın ardınca getdi. (Vəhy, 13:3)

... Məhv olanlar həqiqəti sevmədikləri və xilas olmağa yanaşmadıqları üçün məhv olurlar. Bu səbəblə, Allah yalana aldanmaları üçün onların üstünə fikirlərini yanıldıcı güc göndərir. (Səlaniklilərə 2-ci məktub, 2:10-11)

Dünyada yaşayan... hər kəs ona ibadət edəcək. (Vəhy, 13:8)

80.9. Şeytanın əmri ilə fəaliyyət göstərməsi:

Qanun tanımayan insan (dəccal) ... hər növ pis işlərlə, şeytanın fəaliyyəti ilə gələcək... (Səlaniklilərə 2-ci məktub, 2:9-10)

80.10. Təxribat törətməsi:

Sonra qanun tanımayan insan (dəccal) ortaya çıxacaq... (Səlaniklilərə 2-ci məktub, 2:8)

80.11. Müharibə və fitnə-fəsad çıxarması:

İnsanların gözü qarşısında göydən yerə alov yağdıracaq. (Vəhy, 13:13)

.... Əjdahanın, canavarın və yalançı peyğəmbərin ağzından qurbağa qılığına girmiş üç ədəd pis ruhun çıxdığını gördüm. Möcüzələr yaradan bu pis ruhlar dünyada hökm sürən bütün krallara gedərək onları döyüşə çağırdılar. Gücü sərhədsiz olan Allahın böyük günündə... bu kralları ibranicə Armaqeddon (Meqiddo dağı) deyilən yerə yığdılar. (Vəhy, 16:13-16)

80.12. Dəccalın nəhayət məğlub olması:

... məhv olacaq olan dəccal ortaya çıxmadıqca o gün gəlməyəcək. (Səlaniklilərə 2-ci məktub, 2:3)

**81. Yəcuc və Məcuc qövmünün ortaya çıxması:**

81.1. Çoxmillətli birlik olmaları:

Dünyanın dörd tərəfindəki xalqları (Qoq və Maqoqu) azdırmaq, savaşmaq üçün bir yerə yığmaq niyyətilə zindandan çıxacaq. Toplananların sayı dəniz qumu qədər çoxdur. (Vəhy, 20:8)

81.2. Saylarının çox olması:

... toplananların sayı dəniz qumu qədər çoxdur. (Vəhy, 20:8)

81.3. Fitnə-fəsad çıxarmaları:

Dünyanın dörd bir tərəfindən gələrək müqəddəslərin qərargahını və sevilən şəhəri əhatə etdilər... (Vəhy, 20:9)

81.4. Şeytanın əmri ilə hərəkət etməsi:

Onları azdıran iblis isə... (Vəhy, 20:10)

81.5. Kütləvi həlak olmaları:

... Amma alov yağdı, onları yandırıb yox etdi. (Vəhy, 20:9)

**82. Hz. İsanın yenidən dünyaya gəlməsi:**

İsa bunları söylədikdən sonra onların gözləri qarşısında göyə qaldırıldı. Bir bulud onu götürüb gözlərinin qarşısından uzaqlaşdırdı. "Ey cəlilələr, niyə göyə baxırsınız?" - deyə soruşdular. "Göyə qaldırılan İsanı necə gördünüzsə, eyni şəkildə geri gələcəkdir". (Elçilərin işləri, 1:9-11)

İkinci dəfə... qurtuluş gətirmək üçün özünü gözləyənlərə görünəcək. (İbranilərə məktub, 9:28)

Bu zaman mübarək ümidimizin gerçəkləşməsini, İsa Məsihin gəlməsini gözləyirik. (Pavlusun Titusa məktubu, 2:13)

Bütün bunlar İsa göydən gəlib göründüyü zaman olacaq. (Səlaniklilərə 2-ci məktub, 1:7)

Dünyanın yaranmasından bəri tanınan Məsih dünyanın sonunda sizin faydanız üçün zühur etdi. (Petrusa 1-ci məktub, 1:20)

## İncildə Mehdinin (ə.s.) hakimiyyət dövrü

Quranda iman edənlərə vəd edilən İslam hakimiyyəti Tövratda olduğu kimi, İncildə də vardır. İbrahimi dinlərin müqəddəs kitablarında verilən bu vəd hz. İbrahimin nəslindən Allaha şərik qoşmadan iman edən, yalnız Onun razılığı üçün yaşayan və din əxlaqının bütün dünyaya yayılması üçün çalışan bir birliyə aiddir. Axır zamanda gələcək hz. Mehdi və camaatı Allahın iznilə bu vədin reallaşmasına vəsilə olacaq xalis möminlərdir. Allahın iman edənlərə bu vədi İncildə belə bildirilir:

Sizlər peyğəmbərlərin varisləri, Allahın atalarınızla andlaşmasının varislərisiniz. Necə ki, Allah İbrahimə belə demişdi: "Sənin nəslinin vasitəsilə dünyada bütün xalqlar müqəddəs hesab ediləcək". (Elçilərin işləri, 3:25)

… İbrahimə və nəslinə dünyanın varisi olma vədi müqəddəs qanun yolu ilə deyil, iman yolu ilə verildi. (Romalılara məktub, 4:13)

Axır zamanda hz. Mehdinin çıxışından sonrakı hakimiyyət dövrü haqqında İncildə bu məlumatlar verilir:

**1. Əlamətlər reallaşdıqda hakimiyyətin yaxın olması:**

İsa onlara bu bənzətməni izah etdi: "Əncir ağacına və ya hər hansı bir ağaca baxın. Bunların yarpaqladığını gördüyünüz zaman yaz mövsümünün çox yaxın olduğunu öz-özünüzə anlayarsınız. Eyni şəkildə, bu hadisələrin reallaşdığını gördüyünüzdə bilin ki, Allahın hakimiyyəti  yaxındır". (Luka, 21:29-31)

İsa xalqa bunları da söylədi: "Qərbdə bir buludun yüksəldiyini görüncə siz dərhal: "Yağış yağacaq" - deyirsiniz və elə olur. Yelin cənubdan əsdiyini görüncə: "Çox isti olacaq" - deyirsiniz və elə olur... Dünyanın və səmanın görünüşündən bir məna anladığınız halda, necə olur ki, hazırkı dövrün mənasını anlaya bilmirsiniz?" (Luka, 12:54-56)

**2. Allaha imanın bütün dünyaya hakim olması:**

İşıqlanmaq üçün şəhərin Günəş və Aya ehtiyacı yoxdur. Çünki Allahın görkəmi onu işıqlandırır... (Vəhy, 21:23)

Amma sonuna qədər səbr edən xilas olacaq. Göydəki azadlığın bu müjdəsi dünyanın hər yerində bütün xalqlara eşitdiriləcək. O zaman son gələcəkdir. (Matta 24:13-14)

... "Qanunlarımı zehinlərinə yeridəcəyəm, ürəklərinə yazacağam... Heç kim: "Yurddaşını, qardaşını, Rəbbi tanı" - deyə öyrətməyəcək. Çünki böyük-kiçik hamısı tanıyacaq Məni". (İbranilərə məktub, 8:10-11)

Göydəki hakimiyyətin bu müjdəsi dünyanın hər yerində bütün xalqlara eşitdiriləcək... (Matta, 24:14)

Bundan sonra göydə uçan başqa bir mələk gördüm. Dünyada yaşayanlara – hər xalqa, hər oymağa, hər dilə çatdırmaq üçün sonsuzsa qədər qalacaq olan müjdəni gətirdi. (Vəhy, 14:6)

... qulları Ona (Allaha) ibadət edəcək. (Vəhy, 22:3)

Sonra böyük bir kütlənin gur axan suların, güclü göy gurultusunun səsinə bənzər səslər eşitdim. "Haleluya! (Rəbbi tərifləyin)" - deyirdilər. Çünki Hər şeyə gücü çatan Rəbb- Allahımız hakimlik edir". (Vəhy, 19:6)

**3. Materialist fəlsəfənin süqutu:**

O gün maddi elementlər yanaraq yox olacaq, dünya və dünyada qurulmuş hər şey yanacaq... O gün maddi elementlər şiddətli alovla əriyəcək. (Petrusun 2-ci məktubu, 3:10-12)

**4. İnkarçıların ağılsızlıqlarının ortaya çıxması:**

... həqiqətə qarşı gəlirlər. Düşüncələri korlanmış, imanı olmayan insanlardır. Amma irəli gedə bilməyəcəklər. Çünki... bunların da ağılsızlığını hər kəs görəcək. (Timoteosa 2-ci məktub, 3:8-9)

**5. Dünyanı iman edənlərin idarə etməsi:**

O zaman kral sağındakılara: "Sizlər... (Allahın) müqəddəs hesab etdikləri, gəlin!", - deyəcək. "Dünya qurulduğundan bəri sizin üçün hazırlanmış olan hakimiyyəti miras alın!" (Matta, 25:34)

Müqəddəslərin dünyanı mühakimə edəcəyini bilmirsinizmi?... (Korintoslulara 1-ci məktub, 6:2)

... Rəbb Allah onlara işıq verəcək və sonsuza qədər hakim edəcək. (Vəhy, 22:5)

Amma siz seçilmiş nəsil, Kralın kahinləri, müqəddəs xalq, Allahın Öz xalqısınız. Sizi qaranlıqdan işığa çıxaran Allahın sözlərini eşitdirmək üçün seçildiniz. (Petrusa 1-ci məktub, 2:9)

Allah bu dünyada yoxsul olanları imanda zənginləşmək və Özünü sevənlərə vəd etdiyi hakimiyyətin varisləri olmaq üzrə seçmədimi? (Yaqubun məktubu, 2:5)

Onlar Allahın... kahinləri (din adamları) olacaq, Onunla birlikdə min il hakim olacaqlar. (Vəhy, 20:6)

**6. Dünyada din əxlaqına əsaslanan yeni bir hakimiyyət sisteminin olması:**

... əvvəlki nizam ortadan qalxdı. (Vəhy, 21:4)

Taxtda oturan: "Hər şeyimlə məğlub oluram" - dedi. Sonra: "Yaz!" - deyə əlavə etdi. "Çünki bu sözlər etibarlı və həqiqətdir". (Vəhy, 21:5)

... hər şeyin yenidən təşkil ediləcəyi zamana qədər... (Elçilərin işləri, 3:21)

**7.Dünyaya sülh və ədalətin hakim olması:**

... Sülh mühitində sülhü quranlar doğruluq məhsulunu biçərlər. (Yaqubun məktubu, 3:18)

**8.Böyük zənginliyin və görkəmin hakim olması:**

İnsanlar şəhərin işığında gəzəcəklər. Dünya kralları sərvətlərini oraya gətirəcəklər. Şəhərin qapıları gündüz heç bağlanmayacaq, orada gecə olmayacaq. Xalqların görkəmi və zənginliyi oraya daşınacaq. (Vəhy, 21:24-26)

**9. Kədər və sıxıntıların sona çatması:**

Xilaskarımız bir olan Allah sizi qoruyacaq, günahsız olaraq uca hüzuruna çıxaracaq gücdədir. (Yəhudanın məktubu, 1:24)

Onların gözlərindən bütün yaşları siləcək. Artıq ölüm olmayacaq. Artıq nə yas, nə ağlamaq, nə də iztirab olacaq..." (Vəhy, 21:4)

Artıq heç bir lənət qalmayacaq... (Vəhy, 22:3)

Artıq gecə olmayacaq. Çıraq işığına da, günəş işığına da ehtiyac olmayacaq... (Vəhy, 22:5)

... Allah gözlərindən bütün yaşları siləcək. (Vəhy, 7:17)

... "Hər şey yeniləndiyində... evlərini, qardaşlarını, ata və ya anasını, uşaqlarını və ya torpaqlarını tərk edən hər kəs bunların yüz qatını əldə edəcək...". (Matta, 19:28-29)

**10. Allahın lütfu olaraq qurtuluş dövrünün olması:**

"... Onun mərhəməti sayəsində doğan Günəş qaranlıqda və ölümün kölgəsində yaşayanlara işıq saçmaq və ayaqlarımızı doğru yola yönəltmək üçün köməyimizə gələcəkdir". (Luka, 1:78-79)

... Allahın bütün insanlara lütfu ortaya çıxmışdır... (Titosa məktub, 2:11)

**11. Dəccali sistemin ortadan qalxması:**

Mələk əjdəhanı, yəni İblis və ya şeytan deyilən qədim ilanı tutub min illik bağladı. (Vəhy, 20:2)

Min il tamamlana qədər xalqları bir daha azdırmasın deyə, onu dibsiz dərinliklərə atdı, oraya bağlayıb girişi möhürlədi. (Vəhy, 20:3)

**12. Əxlaqsızlığın sona çatması:**

Ora murdar heç bir şey, iyrənc və hiyləgər iş görən heç kim girə bilməyəcək... (Vəhy, 21:27)

**13. İnsanların arasında gözəl əxlaqın yayılması:**

Mülayim xasiyyətli olanlara nə xoşdur! Çünki onlar dünyanı miras alacaqlar. (Matta, 5:5)

**14. Qlobal istiləşməyə çarə tapılması:**

... Nə günəş, nə qovurucu isti vuracaq onları. (Vəhy, 7:16)

**15. Qıtlıq və quraqlığın sona çatması:**

Artıq acmayacaq, artıq susamayacaqlar... (Vəhy, 7:16)

## Quranda və digər islami qaynaqlarda hz. Mehdinin işarələri

Peyğəmbərimiz (s.ə.s.) bundan təxminən 1400 il əvvəl müxtəlif əlamətlərlə yaşadığımız dövrə işarə edərək insanların Quran əxlaqından uzaqlaşacaqları bir dövrü, dünyada böyük bir pozulma, fitnə və qarışıqlığın olacağını xəbər vermişdir. Bundan sonra isə Allahın "Mehdi" sifətilə mübarək bir qulunu vəsilə edərək bütün dünyada islam əxlaqını hakim edəcəyini və yaşanan mənəvi pozuntunun yerini gözəl əxlaqa, dinclik, sülh, xöşbəxtlik və rifaha buraxacağını bildirmişdir. Peyğəmbərimiz (s.ə.s.) bu dövrdə daha əvvəl Allah qatına yüksəldilmiş olan hz. İsanın da ikinci dəfə dünyaya gələcəyini və hz. Mehdi ilə birlikdə dəccala və onun fikir sisteminə qarşı mübarizə aparacağını xəbər vermişdir. Allahın iznilə dəccaliyət bu müqəddəs dövrdə hz. İsa və hz. Mehdi vəsiləsi ilə sona çatacaq və təsirsiz hala gətiriləcək.

Bu kitabda yer verilən hz. İsa və hz. Mehdinin gələcəyi dövrün əlamətlərinin çox böyük əksəriyyəti reallaşmışdır. Allahın iznilə yaşadığımız bu dövr dəccaliyətin məğlub olacağı, inananların və din əxlaqının dünyada hakim olacağı bir dövr olacaq. İmanın nuru ilə uca Rəbbimiz həqiqi din əxalqını hakim edəcəyini belə bildirir:

**Onlar Allahın nurunu ağızları ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq öz nurunu tamamlamaq istər. Müşriklərin xoşuna gəlməsə də, onu bütün dinlərin fövqündə etmək üçün Öz Peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur! (Tövbə surəsi, 32-33)**

Bu vəd Allahın təyin etdiyi qədər içində mütləq reallaşacaq. Hz. Mehdi sevimli Peyğəmbərimizin (s.ə.s.) vəd etdiyi bütün xidmətlərini yerinə yetirəcək və Allahın iznilə Quran əxlaqını bütün dünyaya hakim edəcək. Bolluğu, bərəkəti, insanlara təmin edəcəyi hər cür rahatlığı və hüzurlu mühiti ilə hər müsəlmanın yaşamaq istəyəcəyi bu dövr iman edən insanlar üçün dünya həyatında çox üstün bir mükafatdır.

Hz. Mehdinin çıxışının müjdə olduğunu Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.s.) "hz. Mehdi ilə müjdələnin. O, Qureyşdən və əhli-beytimdən bir şəxsdir." sözü ilə bildirmişdir. (Kitabül-bürhan fi əlamətil-axır zaman, səh. 13.)

Peyğəmbərimiz (s.ə.s.) Allahın bir lütf olaraq göndərəcəyi bu qiymətli şəxsə tabe olmağı isə bir ifadəsində belə ifadə etmişdir:

... O (Mehdi) ərzə sahib olar və özündən əvvəl əzab və zülmlə dolu olan ərzi ədalətlə doldurar. Sizdən kim ona yetişsə, qar üzərində sürünərək də olsa gəlsin, ona

qoşulsun. Çünki o, Mehdidir. (Axır zaman Mehdisinin əlamətləri, Cəlaləddin Suyuti, səh. 14)

## Quranda Mehdinin (ə.s.) gəlişinə və islam əxlaqının hakimiyyətinə işarələr

### Quranda hz. Mehdinin gəlişinə işarələr

Hz. Mehdi Peyğəmbərimizin (s.ə.s.) çoxlu sayda hədislərində adı, xüsusiyyətləri, köməkçiləri, dövrünün xüsusiyyətləri və görəcəyi işlərlə ətraflı şəkildə təsvir edilmişdir. Peyğəmbərimizin (s.ə.s.) hz. Mehdi haqqındakı izahları o qədər ətraflı və açıqdır ki, hz. Mehdi ortaya çıxdığında görənlər bu izahlardan onu dərhal tanıyacaqlar.

Bir ayədə kitab əhlinin Peyğəmbərimizi (s.ə.s.) "uşaqlarını tanıyırmış kimi tanıyacaqları" bildirilir:

**Kitab verdiyimiz şəxslər onu öz oğullarını tanıdıqları kimi tanıyırlar. Onların bir qismi, şübhəsiz ki, həqiqəti bilə-bilə gizlədir. (Bəqərə surəsi, 146)**

Bu ayə işari mənada hz. Mehdinin tanınmasına da işarə edir. Hz. Mehdi də ortaya çıxdığında insanlar Peyğəmbərin (s.ə.s.) izahları ilə onu uşaqlarını tanıyar kimi tanıyacaqlar. (Doğrusunu Allah bilir).

Quranda hz. Mehdinin gəlişinə işarə edən ayələrin birində "Hz. Muhəmməddən (s.ə.s.) sonra gələcək bir elçi"dən bəhs edilir.

Allah bu ayə ilə özlərindən sonra gələcək olan bir elçiyə iman etmələri və ona kömək etmələri haqqında peyğəmbərlərdən söz aldığını bildirmişdir:

**O vaxtı yadınıza gətirin ki, Allah peyğəmbərlərdən: "Sizə verdiyim kitab və hikmətdən sonra, sizdə olanı təsdiq edən bir peyğəmbər gəldikdə ona mütləq inanıb yardım edəcəksiniz", - deyə əhd almış və onlara: "Bunu təsdiq edib, ağır olan əhdimi qəbul etdinizmi? - demişdi. Onlar da: "Təsdiq etdik!" - deyə cavab vermişdilər. Allah: "Elə isə şahid olun! Mən də sizinlə bərabər şahidlərdənəm", - deyə buyurmuşdu! (Ali-İmran surəsi, 81)**

Bu ayədə özlərindən söz alındığı bildirilən peyğəmbərlərin adları isə bir başqa ayədə belə açıqlanmışdır:

**Xatırla ki, Biz bir zaman peyğəmbərlərdən əhd almışdıq: səndən də, Nuhdan da, İbrahimdən də, Musadan da, Məryəm oğlu İsadan da! Biz onlardan möhkəm bir əhd almışdıq. (Əhzab surəsi, 7)**

Ayədə: "hz. Nuh, hz. İbrahim, hz. Musa və hz. İsadan" və "Səndən" ifadəsi ilə də "hz. Muhəmməddən (s.ə.s.)" söz alındığı bildirilir.

Ayə "gələcəyi bildirilən bu elçinin hz. Muhəmməd (s.ə.s.) olmadığını və bu şəxsin Peyğəmbərimizdən (s.ə.s.) sonra gələcək bir elçi olduğunu" göstərir. (Doğrusunu Allah bilir). Allahın hz. Muhəmməddən (s.ə.s.) sonra gələcəyini xəbər verdiyi bu elçi Peyğəmbərimizin (s.ə.s.) də hədislərində gəlişini müjdələdiyi "hz. Mehdi" ola bilər. (Doğrusunu Allah bilir).

Yuxarıda izah olunan "Əhzab" surəsinin 7-ci ayəsində hz. İsadan da gələcəyi müjdələnən elçiyə kömək edəcəyi haqqında söz alındığının bildirilməsi bu elçinin hz. Mehdi ola biləcəyi haqqındakı qənaəti gücləndirir. Çünki bilindiyi kimi, Peyğəmbərimizin (s.ə.s.) hədislərində axır zamanda dünyaya yenidən gələcək hz. İsanın hz. Mehdiyə tabe olacağı və ona dəstək olacağı bildirilir.

**Onu da xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdi: "Ey İsrail oğulları! Həqiqətən, mən özümdən əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə müjdə verən Allahın elçisiyəm!" onlara açıq-aşkar möcüzələr gətirdikdə onlar: "Bu, açıq-aydın sehrdir!" - dedilər. (Səff surəsi, 6)**

Hz. İsa özündən sonra gələcək bu elçinin adının "Əhməd" olacağını müjdələmişdir. Quranın tamamına baxıldığında Peyğəmbərimizdən (s.ə.s.) bəhs edilən ayələrdə "Muhəmməd" adının və ya yalnız "peyğəmbər" ifadəsinin istifadə edildiyi görünür. Quranın heç bir yerində Peyğəmbərimiz (s.ə.s.) üçün "Əhməd" adı istifadə edilməmişdir. Bu ad Quranda yalnız bir yerdə və gələcək bir elçinin müjdələndiyi bir ayədə keçir. Bu hal ayədə keçən "Əhməd" adının Peyğəmbərimizlə (s.ə.s.) yanaşı axır zamanda gələcək hz. Mehdiyə də işarə etdiyi qənaətini dəstəkləyir. (Doğrusunu Allah bilir). Həmçinin əvvəlki ayədə olduğu kimi, bu elçinin adına dair müjdəni də yenə hz. İsanın verməsi də bu istiqamətdəki işari mənanı qüvvətləndirən bir başqa dəlildir.

**Peyğəmbərimiz (s.ə.s.) də hədislərində hz. Mehdinin adı haqqında bu məlumatları vermişdir:**

... Sizə... adı Əhməd, atasının adı Abdullah olan hz. Mehdini başçı etmişdir. Ona qoşulun. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 31)

... Ona qoşulun, o, Mehdidir. Adı da Əhməd bin Abdullahdır... (Qiyamət əlamətləri, mədinəli əllamə Muhəmməd bin Rəsul əl-Hüseyn Əl-Bərzənci, Pambıq nəşriyyat, 8-ci nəşr, səh. 165)

Əbu Davud ilə Tirmizinin İbn Məsuddan (ə.s.) nəql etdiklərinə görə, Allahın elçisi (s.ə.s.) belə buyurmuşdur: "Onun adı adıma, atasının adı da atamın adına uyğun olacaq...". (Qiyamət əlamətləri, genişlədilmiş 9 -cu nəşr, səh. 159-160)

## Hz. Mehdinin gəlişinə və İslam əxlaqının dünya hakimiyyətinə işarə edən bəzi ayələr

Sevdiyiniz başqa bir şey də - Allah dərgahından kömək və yaxın qələbə gözləyir. Möminlərə müjdə ver! (Səff surəsi, 13)

Biz kitabdan sonra Zəburda da torpağa yalnız Mənim saleh bəndələrimin daxil olacağını yazmışdıq. (Ənbiya surəsi, 105)

Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə - yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə - onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, onlar üçün onların Allahın bəyəndiyi dinini möhkəmləndirəcəyini və onların qorxusunu sonra əmin-amanlıqla əvəz edəcəyini vəd buyurmuşdur. Bundan sonra küfr edənlər, şübhəsiz ki, əsl fasiqlərdir! (Nur surəsi, 55)

And olsun ki, peyğəmbər bəndələrimiz haqqında əvvəlcədən bu sözümüz deyilmişdi: "Onlar mütləq qalib gələcəklər. Bizim əsgərlərimiz labüd olaraq zəfər çalacaqlar!" (Saffat surəsi, 171-173)

Allah: "And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik!" - deyə yazmışdır. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir! (Mübarizə surəsi, 21)

Allahın peyğəmbərlərə verdiyi vədə xilaf çıxacağını sanma! Həqiqətən, Allah yenilməz qüvvət sahibi, intiqam sahibidir! (İbrahim surəsi, 47)

Müşriklərin xoşuna gəlməsə də, onu bütün dinlərdən üstün etmək üçün Öz Peyğəmbərini hidayət və haqq dinlə göndərən Odur! (Səff surəsi, 9)

Onu bütün dinlərdən üstün etmək üçün Öz Peyğəmbərini hidayət və haqq dinlə göndərən Odur. Allahın şahid olması kifayət edər! (Fəth surəsi, 28)

Müşriklərin xoşuna gəlməsə də, onu bütün dinlərin fövqündə etmək üçün Öz Peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur! (Tövbə surəsi, 33)

Onlardan sonra da yurdlarında sizi yerləşdirəcəyik. Bu, məqamımdan və əzabımdan qorxanlara aiddir!" (Peyğəmbərlər düşmənləri üzərində qələbə çalmaqdan ötrü Allahdan) kömək dilədilər. Hər bir inadkar təkəbbür sahibi isə ziyana uğradı. (İbrahim surəsi, 14-15)

Allahın köməyi və zəfər gəldiyi zaman. İnsanların dəstə-dəstə Allahın dininə daxil olduqlarını gördüyün zaman Rəbbini həmd-səna ilə təqdis et və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir! (Nəsr surəsi, 1-3)

Həqiqətən, Biz sənə açıq-aşkar bir zəfər bəxş etdik! Allah sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq, sənə olan nemətini tamam-kamal edəcək və səni düz yola müvəffəq edəcəkdir! Allah sənə yenilməz qələbə verəcəkdir! (Fəth surəsi, 1-3)

And olsun ki, Allah-təala Öz Peyğəmbərinin röyasının çin olduğunu təsdiq etdi. Siz, inşaAllah, əmin-amanlıqla, başınızı qırxdırmış, qısaltmış halda və qorxmadan Məscidül-hərama daxil olacaqsınız. (Allah) sizin bilmədiklərinizi bilir. O, bundan əlavə tezliklə bir qələbə də bəxş edəcəkdir. (Fəth surəsi, 27)

Onlardan əvvəlkilər də tələ qururdular. Bütün hiylələrin cəzasını ancaq Allah verəcəkdir. (Allah) hər kəsin nə qazandığını bilir. Kafirlər axirət yurdunun kimin olacağını biləcəklər! (Rəd surəsi, 42)

Ancaq iman gətirib yaxşı işlər görən, Allahı çox zikr edən və zülmə uğradıqdan sonra intiqamını alanlardan başqa! Zülm edənlər isə hansı dönüşə dönəcəklərini mütləq biləcəklər! (Şuəra surəsi, 227)

Sonra peyğəmbərlərimizi və iman gətirənləri xilas edərik. Möminləri belə xilas etmək Bizə vacibdir. (Yunus surəsi, 103)

De: "Haqq gəldi, batil yox oldu. Çünki batil yoxluğa məhkumdur!" (İsra surəsi, 81)

Onların ardınca yer üzünün varisləri sizi təyin etdik ki, görək özünüzü necə aparacaqsınız. (Yunus surəsi, 14)

Zəif görünən o tayfanı yer üzünün daim xeyir-bərəkət verdiyiniz şərq tərəflərinə varis etdik. Səbir etdiklərinə görə Rəbbinin İsrail övladına verdiyi gözəl

sözlər tam yerinə yetdi. Fironun və onun camaatının qurduqları və ucaltdıqlarını isə viran qoyduq. (Əraf surəsi, 137)

Onlar Allahın nurunu ağızları ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq öz nurunu tamamlamaq istər. (Tövbə surəsi, 32)

Onlar Allahın nurunu öz ağızları ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, öz nurunu tamamlayacaqdır. (Səff surəsi, 8)

(Allah) sizə onların yerlərinə, yurdlarına və mallarına, üstəlik də ayağınız dəyməyən bir yerə varis etdi. Allah hər şeyə qadirdir! (Əhzab surəsi, 27)

De: "Hamı gözləməkdədir, siz də gözləyin. Doğru yol sahiblərinin kimlər olduğunu və kimin haqq yolu tapdığını biləcəksiniz!" (Taha surəsi, 135)

Allah müttəqilərə imanlarına görə nicat verər. Onlara pislik toxunmaz və onlar qəm-qüssə də görməzlər. (Zumər surəsi, 61)

Xeyr, Biz batili haqla rədd edərik və o da onu yox edər. (Bir də baxıb görərsiniz ki) o yox olub getmişdir. (Allaha) isnad etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)

Günahkarlar istəməsələr də, Allah sözləri ilə haqqı gerçəkləşdirəcək!" (Yunus surəsi, 82)

O kəslər ki, əgər onları yer üzündə yerləşdirsək, namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin sonu Allaha aiddir. (Həcc surəsi, 41)

Ruhdan düşməyin və qəmgin olmayın. Halbuki, əgər möminsinizsə, siz çox yüksəkdə durursunuz! (Ali-İmran surəsi, 139)

## Hz. Muhəmmədin (s.ə.s.) hədislərində Mehdinin (ə.s.) çıxışı və hakimiyyət dövrü

Peyğəmbərimizin (s.ə.s.) hədislərində yaşanacaq axır zaman haqqında çox ətraflı məlumatlara və işarələrə yer verilir. Bu məlumatlara görə axır zaman iki dövrdən ibarətdir. Bu müqqədəs zamanın ilk dövrü pozulmaların, fəlakətlərin, qarşıdurmaların, döyüşlərin yaşanacağı bir dövrdür. Axır zamanın ikinci dövrü isə hz. İsanın yenidən dünyaya gəlişi və hz. Mehdinin ortaya çıxışı ilə dünyaya sülhün,

dincliyin, azadlığın hakim olduğu, bolluğun və bərəkətin yaşandığı, insanların hər baxımdan məmnun olduqları dövrü əhatə edir.

Hədislərdə axır zamanın nə zaman və nə şəkildə başlayacağını bildirən yüzlərlə əlamət xəbər verilir. Hazırkı dövrdə Peyğəmbərimizin (s.ə.s.) 14 əsr əvvəl xəbər verdiyi əlamətlərin bir-bir reallaşması axır zamanın ilk dövrünün yaşanmağa başlandığını açıq şəkildə göstərir. Bu əlamətlərin bir-bir reallaşması ilə islam aləmi ümid və sevinclə gözləməyə başlamışdır: hz. İsanın dünyaya ikinci dəfə gəlişini və hz. Mehdi ilə birlikdə dəccalın fitnəsini ortadan qaldırıb islam əxlaqını bütün dünyaya hakim etmələrini.

Peyğəmbərin (s.ə.s.) təvatür (qüvvətli xəbər) dərəcəsindəki hədislərinə görə hz. Mehdinin gəlişi, bu mübarək şəxsin xüsusiyyətləri, fiziki görünüşü, əxlaqı və elminin üstünlüyü, fikri mübarizəsi və dünyada vəsilə olacağı gözəl dövr müxtəlif saytlarımızda ətraflı olaraq izah edilmişdir. (Ətraflı məlumat üçün baxın: hz. Mehdinin çıxış əlamətləri və xüsusiyyətləri, Mehdi və Qızıl əsr, Peyğəməbrimizin (s.ə.s.) dilindən hz. Mehdi, Qızıl əsr, Harun Yəhya) Bu səbəblə, bu kitabda hz. Mehdinin çıxdığını və ya çıxmaq üzrə olduğunu bildirən müəyyən əlamətlərə yer verdik. Peyğəmbərimizin (s.ə.s.) hədislərində bildirilən və islam alimləri tərəfindən nəql olunan axır zaman əlamətlərindən bir qismi belədir:

**1. Hz. Mehdinin çıxış əlamətlərinin bir-bir meydana gəlməsi:**

... Bu iş (hz. Mehdinin zühur əlamətləri) təsbeh dənələri kimi ard-arda meydana gələr. (Əli bin Hüsaməddin əl-Müttəqi, Cəlaləddin Suyuti təsnifindən hədislər, axır zaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 34)

Qiyamət əlamətləri bir-birinin ardınca meydana gəlir. Bir təsbeh dənələrinin ard-arda düzülüşü kimi. (Ramuz əl-hədis, 277/6; Camius-səğir, 3/167)

Hədislərdə bildirilən axır zaman əlamətləri heç bir şübhəyə yer buraxmayacaq qədər açıq və dəqiqdir. Ancaq ən əhəmiyyətlisi bu xəbərlərin hamısının hazırkı dövrdə bir-bir reallaşması və hələ də reallaşmağa davam etməsidir. Əlbəttə, bu işarələrin bir qismi 1400 illik İslam tarixinin hər hansı bir dövründə, dünyanın müəyyən bir bölgəsində, müəyyən bir nisbətdə görünə bilər. Bu, o dövrün axır zaman olduğunu göstərməz. Çünki bir dövrün Allahın müjdələdiyi axır zaman olaraq xarakterizə edilməsi üçün irəliləyən sətirlərdə ətraflı olaraq izah edəcəyimiz əlamətlərin hamısı eyni dövrdə, bir-birlərini izləyərək reallaşmalıdır.

**2. İran- İraq müharibəsinin olması:**

Şəvval ayında qiyam, zilqədədə hərb danışıqları, zilhiccədə isə müharibə baş verəcək. (Qiyamət əlamətləri, Bərzənci, səh. 166)

Hədisdə ifadə edilən şəvval, zilqədə və zilhiccə ayları İran-İraq müharibəsinin baş vermə mərhələləri ilə eyni tarixlərə uyğun gəlir:

Şəvval ayında qiyam...
İran şahına qarşı olan ilk qiyam bilindiyi kimi, hədisdə ifadə edilən 5 şəvval, 1398-ci ildə (8 sentyabr, 1976) olmuşdur.

Zilqədədə hərb danışıqları və zilhiccədə isə müharibə baş verəcək...

Hicri 1400-cü il zilhiccə (1980, oktyabr) ayında İran-İraq arasındakı müharibə tam olaraq başlamışdı. Bir başqa hədisdə də bu müharibənin detalları belə təsvir edilir:

“Faris (İran) cəhətdən gələcək olan* bir qövmdür ki, belə deyəcəklər: ”Ey ərəblər! Siz çox təəssübə qapıldınız! Siz bunlara gərəyi kimi haqq tanımasanız, sizinlə heç kim birlik qurmayacaq... Bir gün onlara və bir gün də sizlərə verilsin və qarşılıqlı sözlər tutulsun...” Onlar Mütiqə** çıxacaqlar, müsəlmanlar oradan aşağı Yazıya*** enəcəklər... Müşriklər o biri yandakı Rəqabə**** deyilən qapqara bir çayın kənarında dayanacaqlar... Aralarında döyüş olacaq: Allah hər iki ordudan zəfəri qaldıracaq... (Qiyamət əlamətləri, Bərzənci, səh 179)

*Faris cəhətdən gələcək olan: İran tərəfindən gələcək olan
**Mütiq: Bölgədəki bir dağın adı
***Yazıya enəcəklər: Düzənlik- İraq düzənliyi
****Rəqabə: Neft quyularının çox olduğu bölgə

“Ey ərəblər! Siz çox təəssübə qapıldınız! Siz bunlara gərəyi kimi haqq tanımasanız, sizinlə heç kim birlik qurmayacaq...”

Hədisin bu hissəsində iki tərəf arasında həddindən artıq milliyyətçilikdən qaynaqlanan bir anlaşılmazlığın olacağına diqqət çəkilir. Bu anlaşılmazlıq səbəbi ilə, ”Yazı”ya eniləcək və döyüş başlayacaq. (Yazı: İraq düzənliyi)

“Allah hər iki ordudan zəfəri qaldıracaq...”

Bu hədisin də işarə etdiyi kimi, İran-İraq müharibəsi 8 il davam etmiş və minlərlə itki verilməsinə baxmayaraq, bir nəticə alınmamışdır. İki tərəf də üstünlük qazana bilməmişdir.

**3. Fəratla Dəclə arasındakı böyük müharibə:**

Fəratla Dəclə arasında Zevra (Bağdad) deyilən bir şəhər olacaq. Orada böyük döyüş olacaq. Qadınlar əsir ediləcək, kişilər isə qoyun kimi kəsiləcək. (Kənzül-Ümmal, Kitabül-qiyamə qismül-əfal, cild 5, səh. 38, əl-Müttəqi)

Hədisdə bildirilən "Fərat və Dəclə arasındakı bu böyük döyüşlə" də yaxın keçmişdə yaşanan İran-İraq müharibəsinə diqqət çəkilmişdir. Əvvəlki sətirlərdə də gördüyümüz kimi, iki müsəlman ölkə arasında yaşanan bu böyük müharibədə (hədisdə diqqət çəkilən torpaqlarda) böyük qarşıdurmalar yaşanmış, kəndlər, qəsəbələr, şəhərlər bombardman edilərək yerlə bir olmuşdur. Qadın, uşaq, yaşlı ayırmadan bir çox insan döyüşdə həyatını itirmişdir. Gələcəkdə ortaya çıxan kütləvi məzarlar döyüş əsnasında həyatını itirən insan sayının təxmin ediləndən çox olduğunu göstərir. Bu bölgədə hələ də qarşıdurmaların, qarışıqlığın və anarxiyanın davam etməsi də hədislə uyğundur.

**4.Fəratın suyunun kəsilməsi:**

Mehdinin əlamətlərindəndir: Fərat çayının dayandırılması. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil- axır zaman, səh. 39)

Fərat (çayının suyu çəkilərək) qiymətli qızıl xəzinəsinin tapılacağı zaman yaxınlaşır. Hər kim o zaman orada olsa, ondan bir şey götürməyə çalışmasın. (Çünki dünyanın ömrü sona çatmış olacaq). (Səhihi-Buxari, 12/305)

Rəsulullah: "Fərat çayı qızıl bir dağ üzərindən açılmadıqca qiyamət qopmayacaq. İnsanlar onun üçün döyüşəcək və hər yüz nəfərdən doxsan doqquzu öldürüləcək, onlardan hər adam: "Xilas olan mən olsaydım" - deyəcək" - buyurmuşdur. (Səhihi-Müslim, 11/320)

(Rəsulullah:) "Fərat çayı bir qızıl dağını ortaya çıxarar" - dedi. (Sünəni-Əbu Davud, 5/116)

(1) Fərat çayının suyunun çəkilib...

Suyutinin kitabında bu hədis "suyun dayandırılması" olaraq yazılır. Həqiqətən də Keban anbarı Fərat çayının suyunu dayandırmış, qarşısını kəsmişdir.

(2.) "Qızıl"dan bir dağ meydana çıxmadıqca...

Tikilən anbar sayəsində elektirik istehsal olunmuş, toplanan suyun ərazidə istifadə edilərək torpağın səmərəsinin artırılması və nəqliyyat asanlığı təmin edilmişdir. Bu səbəblərdən buradakı torpaqlar "qızıl" kimi qiymətli hala gəlmişdir.

Keban anbarı nəhəng bir dağı xatırladır. Bu anbardan (hədisdə bənzətməyə görə dağdan) qızıl dəyərində sərvət alınır. Dolayısı ilə, anbar "qızıl dağ" xüsusiyyətini qazanır. (Doğrusunu Allah bilir.)

(3.) Bu xəzinə üzərində Kıtal* baş verir
*Kıtal: Bir çox insanın ölümünə səbəb olan döyüş.

Bölgədə hələ də davam edən kütləvi anarxiya və kıtal səbəbilə oradan torpaq alan o bölgədəki anarxiyanın zərərinə məruz qala bilər. Hədisdəki ifadə ilə ya ölər, ya da öldürülər.

**5. Ramazan ayında Ay və Günəş tutulmaları:**

Mehdi üçün 2 əlamət vardır ki, bunun birincisi ramazanın ilk gecəsi Ayın, ikincisi də ramazanın ortasında Günəşin tutulmasıdır. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 49)

Ramazanın birinci gecəsi Ay, ortasında Günəş tutulacaq. (Qiyamət əlamətləri, Bərzənci səh. 199)

Onun səltənəti zamanında ramazan ayının on dördündə Günəş tutulacaq, o ayın ilkində isə Ay qaralacaq... (Məktubati-Rəbbani, 21/1163)

... Günəşin oruc ayının ortasında, Ayın isə sonunda tutulması... (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 38)

Yuxarıdakı rəvayətlərdə diqqəti çəkən ən əhəmiyyətli nöqtə ramazan ayının ortasında həm Günəş tutulmasının reallaşması, həm də bir ay içində "Ay"ın və "Günəş"in iki dəfə tutulmasıdır.

Bu hədislərdə bildirilən Ay və Günəş tutulmaları hicri 1400-cü ilin əvvəllərində reallaşmışdır. 1981-ci ildə (hicri 1401-ci ildə) ramazan ayının 15-ci günü Ay, 29-cu günü də Günəş tutulmuşdur. Yenə ikinci dəfə 1982-ci ildə (hicri 1402-ci ildə) ramazan ayının 14-cü günü Ay, 28-ci günü də Günəş tutulmuşdur.

Bu hədislərin hz. Mehdinin digər çıxış əlamətlərilə eyni dövrdə meydana gəlməsi və hicri 14-cü əsrin əvvəllərində ard-arda iki il (1401-1402) möcüzəvi bir tərzdə təkrarlanması rəvayətlərin işarəsinin bu hadisələrə ola biləcəyini qüvvətləndirir.

Üstəlik heyrətamiz şəkildə buna bənzər bir tutulma hadisəsi 2002 və 2003-cü illərdə də reallaşmışdır.

**REALLAŞAN TUTULMA TARİXİ**

| | |
|---|---|
| Ay tutulması | |
| Hicri 1423-cü ildə ramazanın ortasında | 20 noyabr, 2002 |
| 15 gün sonra | |
| Günəş tutulması | |
| Hicri 1423-cü ildə ramazanın sonunda | 4 dekabr, 2002 |
| Ay tutulması | |
| Hicri 1424-cü ildə ramazanın ortasında | 9 noyabr, 2003 |
| 15 gün sonra | |
| Günəş tutulması | |
| Hicri 1424-cü ildə ramazanın sonunda | 23 noyabr, 2003 |

**6. Əfqanıstanın işğalı:**

Taliqana (Əfqanıstana) heyf oldu. Şübhəsiz, Allah-təalanın orada qızıl və gümüş olmayan xəzinələri vardır. Orada Allahı haqqıyla tanıyan insanlar vardır. Onlar axır zaman Mehdisinin köməkçiləridir. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 59)

Hədisdə Əfqanıstanın hz. Mehdi zamanında işğal ediləcəyinə işarə ola bilər. Həqiqətən də rusların Əfqanıstanı işğal etdikləri1979-cu il hicri 1400-cü ilə, digər bir ifadə ilə hicri 14-cü əsrin başlanğıcına uyğun gəlir. Bilindiyi kimi, hədislərdə hz. Mehdinin əsrin əvvəlində çıxacağı xəbər verilmişdir. Hz. Mehdi ilə əlaqədar digər bir çox əlamətin də hicri 1400-cü il və hicri 14-cü əsrin əvvəllərində reallaşması bu tarixlərin hz. Mehdinin çıxışı haqqında əhəmiyyətli bir işarə daşıdığını göstərir.

**7. Şərq tərəfdən bir alovun görünməsi:**

... Şərqdə səmada üç gecə görünən böyük bir alovun olması. Mutad (alışılmış) şəfəq qırmızılığı kimi olmayan bir qırmızılığın üfüqdə yayılması. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 32)

... Siz üç və ya yeddi gün şərqdən bir alovu gördüyünüz zaman ali-Muhəmmədin çıxmasını gözləyin. Bir münadi Mehdinin adı ilə səmadan səslənəcək ki, şərqdə və qərbdə olan hər kəs bu səsi eşidəcək. Belə ki, qorxudan yuxuda olanlar oyanacaq, ayaqda olan oturacaq, oturan isə ayağa qalxacaq. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 32)

"And içirəm ki, bir alov sizi bürüyəcək. O alov bu gün Bərəhud deyilən vadidə sönük haldadır. O alov içində böyük əzab olduğu halda, insanları bürüyər. O alov insanları, mal-mülkü yandırıb bitirər. Səkkiz gün içində küləklə bulud kimi uçaraq dünyanın hər tərəfinə yayılar. Gecəki istisi gündüzkü hərarətindən daha şiddətlidir. O alov insanların başının üzərindən ərşin altına qədər yaxınlaşar, göy

gurultusu kimi qorxunc səs-küyü olar", -buyurdu. (Ölüm-Qiyamət-Axirət və Axır zaman əlamətləri, səh. 461)

Bəzi kəslər bu alovu birdən-birə ortaya çıxan, sönmək nədir bilməyən, hətta hər kəsin olduğu yerdən mütləq görəcəyi tərzdə bir əlamət olaraq gözləyir. Halbuki qiyamət əlamətlərinin meydana gəlişi əsnasında dünyadakı imtahan davam etdiyindən bu əlamətlərin başa düşülməsi hər kəsin qəbul edəcəyi şəkildə açıq olmaz. Bu səbəblə, insanlar ağıl, vicdan və iradələrindən istifadə edərək qərar verərlər. Alov əlamətini də bu şəkildə qiymətləndirmək lazımdır. Bir alov səbəbsiz yerə çıxmaz. Ya bir qəza, ya da bir partlayış kimi qəsd və ya laqeydlik nəticəsində çıxar. Bir alovun hz. Mehdinin çıxış əlaməti olaraq deyilməsi onun çox qəribə və fövqəladə bir əlamət şəklində olmasını tələb etməz. Əsas olan bu alovun hədisdə təsvir edilən xüsusiyyətlərə uyğun olaraq çıxmasıdır.

Əvvəlki sətirlərdə yer verdiyimiz hədislərdə alov haqqında "sönük bir vəziyyətdədir" deyilir. Alov yanıcı bir maddənin yanmasıyla meydana gəldiyinə görə, burada sönük vəziyyətdə olan alovun özü deyil, alovun yanacağı - xammaldır. O zaman burada torpaq altından çıxarılan neftə işarə edilə bilər. Necə ki, hədisdəki Bərəhud deyilən yer bir quyunun adıdır. Bu quyu neft quyusu olaraq düşünülə bilər. Zamanı gəlincə bu quyulardan çıxarılan neft yanmağa hazır bir alov halına gəlir.

"O alov böyük əzab olduğu halda, insanları bürüyər".

O alov sadəcə yanmır, eyni zamanda insanları canından, malından edərək əzaba salır, bütün təbiəti çirklədir.

"O alov insanları, malları yandırıb bitirər".

O alov insanların ölümünə səbəb olur. Bununla yanaşı, malları yandıraraq maddi zərərə səbəb olduğu kimi, bütün ətraf mühiti və təbiəti çirklədib insanların dolanışıq qaynaqlarını da yox edir.

"Səkkiz gün içində küləklə bulud kimi uçaraq dünyanın hər tərəfinə yayılar".

Burada "küləklə bulud kimi uçan" ifadəsi tüstüyə işarə edir. Burada bənzətmə edilərək tüstünün buludlara qədər yüksələcəyi də izah edilmişdir. Bu tüstü küləyin təsiri ilə hər istiqamətə doğru yayılır.

"Gecəki istisi gündüzkü hərarətindən daha şiddətlidir".

Bu hədisdən alovun həm gündüz, həm gecə davamlı yandığı görünür.

"O alov insanların başının üzərindən ərşin altına qədər yaxınlaşar, göy gurultusu kimi qorxunc səs-küyü olar".

Alovun çox yüksəklərə ucaldığına və göy gurultusu kimi bir səs-küylü partlayışlar meydana gəldiyinə işarə edilir.

"Göydə adi qırmızılığın əksinə, tam fərqli bir qırmızılıq yayılacaq".

Hədisin bu qismində hadisənin gecə vaxtlarında meydana gələcəyinə işarə edilmişdir. Gecə vaxtı meydana gələn böyük partlayışın alovları çox şiddətli bir işıqlanma yaradır. Bu alovların meydana gətirdiyi qırmızı işıqlanma, xalqın vərdiş etdiyi qırmızıdan çox fərqlidir. Çünki gecənin bu cür gündüz kimi işıqlanması fövqəladə bir hadisədir.

Bilindiyi kimi, 1991-ci ildə İraqın Küveyti işğalından sonra Küveytə aid neft quyularını yandırmış, Küveyt və Bəsrə körfəzini çox böyük bir alov bürümüşdür. Bu mövzu mətbuatda bu şəkildə yer almışdır:

-Küveytdə yanan neft, insan və heyvanlar arasında ölümə səbəb olur. Mütəxəssislərə görə, gündə yarım milyon ton neft tüstü şəklində atmosferə qarışır. Hər gün 10 min tondan çox kükürd, karbon 4 oksid və böyük miqdarda xərçəng əmələ gətirən xüsusiyyəti olan hidrokarbonlar bulud kimi körfəz üzərində dayanır... Yalnız körfəz deyil, onunla birlikdə dünya yanır. (Qurdlar süfrəsində Orta şərq, M.Nəcati Özfatura, səh. 175)

-Yandırılan iki quyu Türkiyənin bir gündə çıxara bildiyi qədər neft verir və tüstülər 55 km uzaqlıqdakı Səudiyyə Ərəbistanından belə görünür. (Azadlıq, 23 yanvar, 1991)

-Körfəzdə sönməyən fəlakət xəbərləri: Küveytdə yüzlərlə neft quyusu alov-alov yanır. Mütəxəssislərin: "söndürmək son dərəcə çətindir" - dedikləri neft quyularındakı yanğının Türkiyədən Hindistana qədər olan geniş bir bölgəyə ən az 10 il müddətində təsir edəcəyi bildirilir. (Qurdlar süfrəsində Orta şərq, M.Nəcati Özfatura, səh. 171)

**8. Kometanın keçməsi:**

Mehdinin çıxışından əvvəl (hər tərəfi) işıqlandıran quyruqlu ulduz doğacaq. (Qiyamət əlamətləri, Bərzənci səh. 200)

O (hz. Mehdi) gəlmədən əvvəl şərqdən işıq verən bir kometa görünəcək. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 53)

O ulduzun doğulması, Günəş və Ay tutulmasından sonra olacaq. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 32)

Tarix boyunca bu kometanın keçdiyi zamanlarda müsəlmanlar baxımından çox əhəmiyyətli, hətta dönüş nöqtəsi sayıla biləcək hadisələr meydana gəlmişdir. Bunlardan bir qismi Peyğəmbərimizdən (s.ə.s.) gələn rəvayətlərdə də bildirilmişdir. Bu rəvayətlərə görə, sözü gedən ulduz göründükdə;

-Hz. Nuh qövmü həlak olmuşdur.
-Hz. İbrahim alova atılmışdır.
-Firon və qövmü yox edilmişdir.
-Hz. Yəhya öldürülmüşdür.
-Hz. İsa doğulmuşdur.
-Rəsulullaha (s.ə.s.) ilk vəhy gəlməyə başlamışdır.
-Osmanlı dövləti öz sözünü deməyə başlamışdır.
-İstanbul Fateh Sultan Məhmət tərəfindən fəth edilmişdir.

**Halley kometası haqqında bəzi maraqlı rəqəmlər**

Halley kometası ilə əlaqədar bəzi ədədlərin bir neçə "19" ədədindən ibarət olması olduqca diqqət çəkir:

Halley kometası 76 ildə bir keçir.
76=19X4

Bu ulduz ən son hicri 1406-ci ildə görünüb.
1406=19X74

Bu mövzu ilə əlaqədar bir başqa diqqət çəkən cəhət də budur: Yuxarıda da hesabladığımız kimi, Halley ulduzunun keçdiyi hicri 1406-cı il 74 ədəd 19-dan ibarətdir. "74" ədədi isə eyni zamanda Qurani-kərimdə 19 möcüzəsinə işarə edilən "Müddəssir" surəsinin sıra nömrəsidir.

Bilindiyi kimi, Quranın "Müddəssir" surəsinin (74-cü surə) 30-cu ayəsində "19" sayının möminlər üçün bir rəhmət, inkar edənlər üçün isə bir fitnə vəsiləsi olduğu bildirilir.

Halley kometasının 19 ilə olan bu möcüzəvi əlaqəsi də kafirlər üçün bir fitnəni, möminlər üçün isə bir rəhməti müjdələdiyinə işarə ola bilər.

"Müddəssir" surəsinin 1-ci və 2-ci ayələrində hz. Muhəmmədə (s.ə.s.): "Ey örtünən! Qalx və qorxut", - buyurulur. Bu, ayələrin açıq mənasıdır. Lakin bu ayələrin axır zamana aid ikinci - qapalı, gizli işarələri də ola bilər. Bəlkə də: "Ey gizlənən" - deyilərək Rəsulullahın nəslindən gələcək və hicri 1406-cı ildə (çıxış əlamətlərindən biri Kometanın doğuşu hadisəsi) meydana çıxacaq olan hz. Mehdiyə işarə ola bilər.

74- “Müddəssir” surəsi
***1. Ey örtüsünə bürünən,***
***2. Qalx və qorxut.***
***(Müddəssir, örtünən, bürünən, gizlənən deməkdir.)***

Başqa bir böyük möcüzə və işarə isə Halley ulduzunun 1986-cı (hicri 1406-cı il) ildəki keçməsinin hz. Muhəmmədin (s.ə.s.) peyğəmbərliyə başladığı miladi 607- ci ildən bu yana 19-cu dəfə keçməsidir.

**9. Kəbə basqını və Kəbədə qan axıdılması:**

Onun (hz. Mehdinin) çıxacağı il insanlar həccə başlarında bir əmir olmadan gedəcəklər. Birlikdə Beytullahı təvaf edəcəklər, sonra Minaya endiklərində, itlər kimi bir-birinə hücum edəcək, hacılar soyulacaq, qanlar Akabə Cəmrəsinin üzərinə axacaq. (Qiyamət əlamətləri, Bərzənci, səh. 169)

İnsanlar başlarında bir imam olmadan həccə gedərlər. Minaya endiklərində ətrafları mühasirə olunub qəbilələrin bir-birinə hücum etməsi ilə böyük döyüşlər olar. Belə ki, ayaqlar qan gölü içində qalar. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 35)

... Zilhiccədə hacılar talan olar, hətta küçələr qandan keçilməz və haramlara diqqət edilməz. Beytullahın yanında böyük günahlar işlənər. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 3)

Yuxardakı hədislərdə "onun çıxacağı il" cümləsi ilə hz. Mehdinin çıxış tarixində Həcc əsnasında meydana gələcək bir qırğına diqqət çəkilir. 1979-cu ildə Həcc əsnasında baş verən Kəbə basqınında eynilə belə bir qırğın yaşanmışdır. Bu qanlı Kəbə basqını da axır zamanın başlanğıcının və hz. Mehdinin çıxışının digər əlamətlərinin reallaşdığı dövrün əvvəlində, yəni hicri 1400-cü ilin ilk günündə, 1 məhərrəm, 1400-cü il (1979-cu il 21 noyabr) tarixində meydana gəlmişdir.

Yenə hədisdə qanların axacağından bəhs edilərək öldürmə hadisələrinə diqqət çəkilmişdir. Basqın əsnasında Səudiyyə əsgərləri ilə xadimlər arasında meydana gələn qarşıdurmada 30 nəfərin öldürülməsi bu rəvayətin ikinci qismini də təsdiqləyir.

1979-cu ildə (hicri 1400) baş verən bu Kəbə basqınından7 il sonra, hicri 1407-ci ildə həcc əsnasında daha böyük qanlı hadisə meydana gəlmişdir. Bu hadisədə küçələrdə nümayiş edən hacılara hücum edilərək 402 nəfər qətl edilmiş, çoxlu qan axıdılmışdır. Beytullahın yanında müsəlmanların (Səudiyyə Ərəbistanı əsgərləri ilə iranlı hacıların) bir-birlərini öldürmələri ilə hədisdə xəbər verildiyi kimi, “böyük günahlar işlənmişdir”.

Şəvvalda döyüş səsləri, zilhiccədə hərb və kıtal (müharibə, döyüş) olar; yenə zilhiccədə hacılar talana uğrayar, hətta küçələr qandan keçilməz və haramlar çeynənər. Beytullahın yanında böyük günahlar işlənər. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 37)

"... Beytullahın yanında böyük günahlar işlənər".

Yuxardakı hədisdə Beytullahın (Kəbənin) içində deyil, yanında baş verəcək hadisələrə diqqət çəkilir. 1407-ci ilin zilhiccə ayında (həcc mövsümündə) meydana gələn hadisələr də ilkindən fərqli olaraq Kəbənin içində deyil, yanında baş vermişdir. Ən əvvəldə izah etdiyimiz hadisə isə 1 məhərrəm, 1400-cü ildə Beytullahın (Kəbənin) içərisində olmuşdur. Hər iki hadisə də rəvayətlərin işarəsinə uyğun bir şəkildə reallaşmışdır.

Kəbədə qan axıdılması, hacıların qətl edilməsi kimi hədislərdə xəbər verilən belə əhəmiyyətli iki böyük hadisənin hz. Mehdi haqqında bildirilən bütün əlamətlərin çıxdığı dövrdə bir-birinin ardınca reallaşması diqqəti çox cəlb edir.

"... Zilhiccədə hərb və kıtal (döyüş, müharibə) olar..."

Hədislərdə bu döyüş və qarşıdurmalardan hacıların öldürülməsi ilə birlikdə bəhs edilməsi sözü gedən hadisələrin eyni dövrdə meydana gələcəyini göstərir. Bu, İran-İraq müharibəsinin olduğu Orta şərq ölkələrində qarşıdurma və qarşılıqların ən çox yaşandığı bir dövrdür.

**10. Günəşdə bir əlamətin meydana gəlməsi:**

Mehdi günəşdə bir əlamət meydana gələnədək gəlməyəcək. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 49)

Qiyamətin əlamətlərindən biri də Günəşdə meydana gələcək fövqəladəliklərdir. 20-ci əsrdə Günəşdə böyük bir partlayış olmuş və dünya bu partlayışdan çox təsirlənmişdir. Hədisdə bildirilən Günəşdə meydana çıxacaq bu əlamət 20-ci əsrdə baş verən böyük partlayış ola bilər.

**11. Günəş tutulması:**

Günəş əlamət olaraq doğmadıqca Mehdi çıxmayacaq. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 33)

Günəşdə meydana gələn əlamət 20-ci əsrdə yaşanan partlayışla yanaşı, keçən illərdə yaşanan böyük Günəş tutulması da ola bilər. 1999-cu il avqustun 11-də reallaşan Günəş tutulması 20-ci əsrin son tam günəş tutulmasıdır. İlk dəfə bu qədər insan Günəş tutulmasını belə uzun müddət izləyə bilmiş, araşdırma fürsəti əldə etmişdir. Bu tutulmada diqqət çəkən bir nöqtə də Türkiyənin də bu tam tutulmanın ən yaxşı izləndiyi ölkələrdən

biri olmasıdır. Bartindən Silopiyə qədər, təxmini olaraq 12 şəhər və 100 mahal tutulmanı müşahidə edə bilmişdir.

**12. Tozlu-dumanlı bir fitnənin olması:**

Tozlu dumanlı, qaranlıq bir fitnə olacaq, bunu digərləri izləyəcək... (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 26)

Fitnə "insanın ağıl və ürəyini birbaşa haqq və həqiqətdən azdıracaq şey, döyüş, azdırma, qarışıqlıq, ixtilaf" kimi mənaları olan bir sözdür. Hədisdə bu fitnənin "qaranlıq" olaraq xarakterizə edilməsi haradan gəldiyi müəyyən olmayan, gözlənilməz hadisə olduğuna da işarə ola bilər.

Bu prizmadan baxıldığında sözü gedən hədis 11 sentyabr, 2001-ci il tarixində ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərində meydana gələn və dünya tarixinin ən böyük terror hadisələrindən biri olaraq xarakterizə edilən hücuma işarə edə bilər. Televiziya və qəzetlərdə də gördüyümüz kimi, bu iki böyük terror hadisəsindən sonra böyük bir toz buludu və tüstü ətrafı bürümüşdür. Bu hadisə həm dünya tarixinin ən böyük terror hücumlarından biri olması, həm digər əlamətlərlə yaxın dövrlərdə baş verməsi və həmçinin hədisdə verilən tərifə bənzər xüsusiyyətlər daşıması səbəbilə son dərəcə əhəmiyyətlidir. Dolayısı ilə, minlərlə günahsız insanın ölümünə və yaralanmasına səbəb olan, insanlıq tarixinin bu ən qanlı terror hadisəsi hədisdə xəbər verilən və hz. Mehdinin çıxışının bir əlaməti olaraq bildirilən "tozlu-dumanlı, qaranlıq fitnə" ola bilər. (Doğrusunu Allah bilir).

**13. Sistemlərin dəyişməsi:**

Zamanın dayandığı bir dövrdə Mehdi deyilən bir şəxs gələcək... (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 14)

Bu hədisdə Peyğəmbərimiz (s.ə.s.) hz. Mehdinin "zamanın dayandığı", yəni bir çox islam aliminin də ifadə etdiyi kimi, "zamanın fərqliləşdiyi", "sistemlərin dəyişdiyi" bir dövrdə gələcəyini bildirmişdir. Bu hədisdə işarə edilən "sistem dəyişikliyi"nin 20-ci əsrdə dünyanın dörd bir tərəfində hakim olan kommunist rejimlərin əsrin sonlarına doğru yıxılması ola bilər.

**14. Şam və Misir məliklərinin öldürülməsi:**

Ondan əvvəl Şam və Misir məlikləri (hökmdar, ölkə sahibi) öldürüləcək... (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 49)

Misirin yaxın tarixi araşdırıldığında hədisdə də ifadə edildiyi kimi, bir "məlikin" öldürüldüyü görünür: 1970-ci ildə Misirdə hakimiyyətə gələn və 11 il iqtidarda qalan Ənvər Sədat.

Misir tarixində öldürülən idarəçilərdən digərləri də 1910-cu ildə sui-qəsdə uğrayan baş nazir Butros Qali, 1945-ci ildə öldürülən Misirin baş naziri Əhməd Maher Paşa və 1948-ci ildə yenə bir sui-qəsd nəticəsində öldürülən Misirin baş naziri Mahmud Nukraşi Paşadır.

Şam sözü yalnız Suriyadakı Şam şəhəri üçün istifadə edilmir. Şam ərəbcədə söz mənası olaraq "sol" mənasını verir və qədimdən bəri Hicaz bölgəsinin (Məkkə və Mədinə şəhərlərinin olduğu bölgə) sol tərəfindəki ölkələri ifadə edir. Şam bölgəsi idarəçilərindən də sui-qəsdə uğrayan çoxlu sayda insan olmuşdur. Bunlardan bir neçə nümunə belədir:

1920-ci ildə öldürülən Suriyanın sabiq dövlət başçısı Salah al-Din Bitar,
1921-ci ildə öldürülən Suriyanın baş naziri Drubi Paşa,
1949-cu ildə sui-qəsdə uğrayan Suriyanın baş naziri Muhsin əl-Barazi,
1951-ci ildə öldürülən İordaniya kralı Abdullah,
1982-ci ildə Livanda bombalı sui-qəsdə uğrayan falanqaçı lideri Bəşir Cəmayil...

**15. Keçmiş İordaniya kralı Abdullahın öldürülməsi:**

Mehdinin çıxış əlamətlərindən biri də Haşimilərdən bir rəhbərin öldürülməsidir. (Risalətül-xürucul-Mehdi, səh. 12)

Bilindiyi kimi, İordaniya Haşimi krallığı olaraq xatırlanır. İordaniya Osmanlıdan ayrıldıqdan sonra bir müddət İngiltərənin hakimiyyəti altında qaldı. İngiltərə 1946-cı il London müqaviləsinin tələbi kimi İordaniyanın müstəqilliyini tanıdı və İordaniya əmirliyinin başındakı Abdullaha da İordaniya krallığı rəhbərliyi verildi. Kral Abdullah 1951-ci ildə öldürüldü. Hədisdə diqqət çəkilən hadisə də bu şəkildə reallaşmış oldu.

**16. Bir ordunun itməsi:**

Hz. Mehdinin beş əlaməti olar... Bağdadda bir ordunun batması və günahsız insanların öldürülməsidir. (Nuaym bin Hammad)

Ancaq bu ordu səhraya girdiyində Zulhüleyfə deyilən yerdə torpağa elə basdırılacaq ki, onların üstdə olanları altdakıları, altda olanları üstdəkiləri qiyamətə qədər görə bilməyəcəklər. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 21)

(Hz. Mehdinin) Çıxış əlamətlərindən biri də daha əvvəl deyildiyi kimi, səhrada bir ordunun yerə batmasıdır. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 37)

2003-cü ildə baş verən İraq müharibəsi əsnasında İraq ordusunun böyük bir qisminin birdən-birə ortadan yox olması döyüşün ən diqqət çəkən hadisələrindən biriydi. Bir çox qəzet və televiziyada Respublika keşikçiləri olaraq bilinən təxminən 60.000 nəfərlik ordunun və fədailər olaraq bilinən təxminən 150.000 iraqlı əsgərin itməsi xəbər kimi yer aldı. Yuxardakı hədislərdə bu mövzuya diqqət çəkilməsi hz. Mehdinin çıxış əlamətlərindən biri olan "bir ordunun batması" hadisəsinin reallaşmış ola biləcəyini göstərir. (Doğrusunu Allah bilir). Həmçinin gələcək günlərdə də döyüş təyyarələrinin bir qisminin səhrada quma batmış halda tapılması, hədisdə bəhs edilən səhrada bir ordunun batması hadisəsinin İraq ordusu ilə əlaqədar olma ehtimalını gücləndirir.

**17. İraqlıların pulunun qalmaması:**

İraqlıların əlində ölçəcəkləri bir tərəzi aləti və alver edə biləcəkləri pulları qalmayacaq. (Kənzül-ümmal, Kitabül-qiyamə, Qisimül-əfal, cild 5, səh. 45, əl-Müttəqi)

Bu hədis iki ayrı vəziyyətə işarə edə bilər. Bunlardan birincisi, İran-İraq və Körfəz müharibəsindən sonra İraqda yaşanan iqtisadi böhrandır. Müharibə ucbatından böyük zərər görən İraq iqtisadiyyatı müharibədən sonra davam edən embarqolar səbəbilə heç cür düzəlməmişdir. Xalqın alış gücü düşmüş, yoxsulluq və kasıblıq ən əhəmiyyətli problemlərdən biri halına gəlmişdir.

Hədisin işarə etdiyi bir başqa nöqtə də İraq müharibəsindən sonra İraq dinarının dövriyyədən qaldırılmasıdır. Son müharibədən sonra İraq dinarının sürətlə dəyər itirməsi və dövriyyədən çıxma ehtimalı 2003-cü ildə qəzet xəbərlərində geniş yer almışdır.

**18. Bağdadın yanaraq tələf olması:**

Axır zamanda Bağdad alovlarla yox edilər... (Risalətül-xürucul-Mehdi, cild 3, səh. 177, qeyd 854)

2003-cü il İraq müharibəsində müharibənin ilk günündən etibarən Bağdad ən çox bombardmana tutulan şəhərlərdən biri olmuşdur. Ağır bombardman gecələr Bağdadın eynilə hədisdə xəbər verildiyi kimi, alov-alov yanmasına səbəb olmuşdur. Bağdadın qəzet və televiziya xəbərlərində verilən görüntüləri yuxarıdakı hədisdə diqqət çəkilən hadisə ilə tam olaraq eynidir.

**19. İraq və Şama embarqo tətbiq olunması:**

... "Elə bir zaman yaxınlaşır ki, İraq əhalisinə bir kafiz, bir dirhəm sövq olunmayacaq". Dedik ki: "Bu. kimə görə olar?". Dedi ki: "Əcəmlər (ərəb olmayanlar) bunu məhrum edərlər". Sonra dedi: "Şam əhalisinə bir dinar, bir kafiz sövq olunmayacaq". "Bu kimdən ötrü olar?", - dedik. "Rumlardan ötrü", - dedi. (Ət-tac, Əli Nasif əl-Hüseyni)

İraqa hədisdə xəbər verildiyi kimi, on ildən çoxdur ki, embarqo tətbiq olunması diqqət çəkir. Bununla yanaşı, Suriyaya da embarqo tətbiq olunması ehtimalı tez-tez gündəliyə gətirilir.

**20. İraqın yenidən qurulması:**

... İraqa hücum etmədikcə qiyamət qopmaz. Və İraqdakı günahsız insanlar Şamda sığınmağa yer axtararlar. Şam yenidən qurular, İraq da yenidən qurular. (Kənzül-Ümmal, Kitabül-qiyamə, Qismül-əfal, cild 5, səh. 254, əl-Müttəqi)

Hədisdə İraqın yenidən inşa ediləcəyinə diqqət çəkilir. Əvvəl İran-İraq, daha sonra Körfəz, sonda da 2003-cü ildəki İraq müharibəsinin ardından İraqda bir çox şəhər yerlə bir olmuşdur. Bu müharibədən sonra yaşanan talanların təsiri ilə böyük bir xarabaya dönən İraqın yenidən tikilməsi məcburi hala gəlmişdir. Bu, qəzet xəbərlərində də geniş yer almışdır.

**21. İraq xalqının Şama qaçması:**

... (O zaman) günahsız və təmiz İraq xalqı şama qaçar. (Risalətül-xürucul-Mehdi, səh. 210)

... İraqdakı günahsız insanlar Şamda sığınacaq yerləri axtararlar... (Kənzül-Ümmal, Kitabül-qiyamə, Qisimül-əfal, cild 5, səh. 254, əl-Müttəqi)

2003-cü ildə İraq müharibəsi başlamadan əvvəl on minlərlə iraqlının Suriya başda olmaqla müxtəlif ölkələrə köç etmə səyləri bu hədisdəki hadisə ilə çox bənzərdir. Bu mövzu ilə əlaqədar müxtəlif xəbər və şəkillərə mediyada yer verilmişdir.

**22. Şamda fitnələrin olması:**

Şamda fitnələr bir tərəfdən sakitləşdikcə, digər bir tərəfdən alovlanar. Göydən bir mələk: "Mehdi əmirinizdir. Mehdi xəlifənizdir", -demədikcə də fitnələr bitməz. (Risalətül-xürucul-Mehdi, səh. 63)

Bu hədisdə Suriyada meydana gələn qarşılıqlara diqqət çəkilir. Ancaq bilindiyi kimi, Şam bölgəsi yalnız Suriyanın paytaxtı olan Şam şəhəri ilə məhdud deyil. Daha əvvəl də deyildiyi kimi, Şam ərəbcə "sol" deməkdir və ta qədimdən Hicaz bölgəsinin (Məkkə və Mədinə şəhərlərinin olduğu bölgə) sol tərəfindəki ölkələri ifadə edir.

Keçən əsrin əvvəlindən etibarən bu bölgədə tez-tez vətandaş müharibələri, qiyamlar, qarşıdurmalar və böyük döyüşlər yaşanmışdır. Bu qarşılıqların biri digərini izləmiş, bu torpaqlarda yaşayan demək olar ki, bütün insanlar bu vəziyyətdən təsirlənmişlər. Hədisdə bildirilən "fitnələr bir tərəfdən sakitləşdikcə, digər bir tərəfdən

alovlanar" ifadəsi də bu baxımdan diqqəti cəlb edir. Təxminən əlli il içində bu bölgədə yaşanan müəyyən böyük hadisələri belə sıralaya bilərik:

Süveyş müharibəsi
Altı gün müharibələri
Yom Kippur müharibəsi
Livan vətəndaş müharibəsi
Fələstin torpaqlarında hələ də davam edən qarşıdurma və gərginliklər...

**23. Şam, İraq və Ərəbistan yarımadasında qarışıqlığın olması:**

... Elə bəla və müsibətlər olacaq ki, heç kim sığına biləcəyi bir məkan tapa bilməyəcək. Bu bəlalar Şamın ətrafında dolanacaq, İraqın üzərinə çökəcək. Ərəbistan yarımadasının əlini və ayağını bağlayacaq... Heç kim onların halına acıyıb: "Vay! Vay!", -belə deməyəcək. Onlar bəlanı bir tərəfdən rədd etməyə çalışarkən, digər tərəfdən o yenə ortaya çıxacaq. (Kənzül-Ümmal, Kitabül-qiyamə, Qismül-əfal, cild, 5, səh. 38-39 əl-Müttəqi)

Hədisdə bildirilən "müsibətlərin Şamın ətrafında dolanıb İraqın üzərinə çökməsi " son dövrdə yaşanan İraq müharibəsinə işarə ola bilər. Bu müharibədən əvvəl və müharibə əsnasında hadisələrin Suriyaya yayılması ehtimalı olmuş, ancaq müharibə yalnız İraq ərazisində olmuşdur.

**24. İraqın üç hissəyə bölünməsi:**

Rəsulullahın (s.ə.s.) bildirdiyinə görə, İraq xalqı üç təriqətə ayrılar. Bir qismi soyğunçulara qoşular. Bir qismi ailələrini qoyub qaçar. Bir qismi də döyüşər və öldürülər. Siz bunları gördüyünüz zaman qiyamətə hazırlaşın. (Fəraidu-fəvaidil-fikir fil İmam əl-Mehdi əl-müntəzər)

Hədisdə xəbər verildiyinə görə, xalqın bir qrupu "soyğunçulara" qoşulacaq. Müharibədən sonra nüfuz boşluğu meydana gəlməsi səbəbilə İraqda böyük talan hadisələri yaşanmışdır. Həqiqətən də xalqın bir qismi oğurluq, qəsb, talançılıq kimi "soyğunçuluq"la məşğul olan qrupa qoşulmuşdur.

Hədisdə xalqın bir qisminin isə olduqları yerdən qaçmağa çalışacağı, hətta geridə qalan ailələrini də düşünməyəcəkləri xəbər verilmişdir. Qəzetlərdə buna aid xəbərlər yer almışdır.

Xalqın bir qisminin isə müharibəyə qoşulacağı və öldürüləcəyi bildirilir. İraq müharibəsi əsnasında insanların bir qrupu müxtəlif bölgələrdə yaşanan qarşıdurmalara qoşulmuş və həyatlarını itirmişlər.

Həmçinin hədisin ilk hissəsində diqqət çəkilən "İraqın üç hissəyə ayrılması" da fiziki mənada reallaşmışdır. Körfəz müharibəsindən sonra İraq coğrafi olaraq üç bölgəyə ayrılmışdır. 32-ci və 36-cı paralelin arası, 32-ci paralelin cənubu və 36-cı paralelin şimalı olaraq təyin olunan bu üç bölgənin yaradılması hədisin işarə etdiyi hadisələrdən biri ola bilər.

**25. Döyüş və qarşıdurmaların məhəllə aralarına qədər girməsi:**

Fərat çayı ilə Dəclə çayı arasında bir şəhər qurulacaq və orada Abbas oğullarının səltənəti qurulacaq. Ora Zavra (yəni Bağdad şəhəri) adlandırılmışdır...

Ey möminlərin əmiri, Rəsuli-Əkrəm oranı nə üçün Zavra adlandırmışdır?

Çünki hərb hər tərəfini əhatə etdiyi və ən uc nöqtələrə qədər olduğu üçün Zavra deyə adlandırılar. (Ölüm-Qiyamət-Axirət və axır zaman əlmətləri, səh. 426, nömrə 776)

Mənim gördüyüm həlak yerlərini sizlər də görə bilirsinizmi? Mən evlərinizin aralarında fitnə və fəlakət məhəllələrini şiddətli yağış sellərinin açdığı yarlar kimi görürəm - deyə buyurdu. (Səhih Müslim, 4/2221; Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, səh. 368, nömrə 671)

Partizan müharibəsi üsulu 20-ci əsrdə yayılmış olan bir müharibə üsuludur. Bu üsulun istifadə edildiyi qarşıdurmalar həmişə məhəllə aralarında davam edir. Keçən əsr bu müharibə üsulunun nümunələri ilə doludur. Ancaq bu üsulun yaşandığı ən yaxın nümunələrindən biri 2003 -cü il ABŞ-İraq müharibəsidir. Necə ki, yuxarıdakı hədisdə də Bağdad şəhərinin kənarlarına qədər yayılan döyüşdən danışılmışdır.

**26. Böyük hadisələrin meydana gəlməsi:**

Onun (hz. Mehdi) zamanında heyrət verici hallar zühur edəcək. (Məktubati-Rəbbani, 2/258)

Onun (hz. Mehdi) çıxış əlamətləri Rəsulullahın (s.ə.v.) irhasatına* oxşayır. (Məktubati-Rəbbani, 2/258)

*İrhasat: Hz. Muhəmmədin (s.ə.s.) peyğəmbərliyindən əvvəl meydana gələn fövqəladə hallardır, ki bunlar peyğəmbərliyinə dəlil olan hadisələrdəndir.

Hz. Muhəmmədin (s.ə.s.) doğumundan əvvəl böyük və fövqəladə hadisələr meydana gəlmişdi. Doğulduğu gecə yeni bir ulduz doğulmuş, alova ibadət edən İran padşahlarının sarayının 14 bürcü yıxılmış, İranda 1000 il boyu yanan atəşpərəst alovu sönmüş, Səmavi vadisi sel suları altında qalmış, Sova gölü qurumuşdu...

Yuxarıdakı rəvayətlərdə işarə edildiyi kimi, hz. Mehdinin çıxışı Peyğəmbərimizin çıxışına (s.ə.s.) bənzəyəcək. Onun çıxışı dövründə də böyük və möcüzəvi hadisələr olacaq. Son 100 ildir dünyada meydana gələn böyük hadisələrin bəziləri belədir:

- Kəbəyə basqın oldu və çox sayda müsəlmanın qanı axdı.

- 2500 illik İran şahlığı yıxıldı və İran şahı Rza Pəhləvi öldü.

- Hindistanın Bombey şəhərində bir fabrikdən sızan qaz 20.000 insanın ölümünə səbəb oldu.

- İki müsəlman ölkə olan İran və İraq arasında 8 il davam edən müharibə başladı.

- Ruslar Əfqanıstanı işğal etdi.

- Mexiko City şiddətli bir zəlzələ ilə yerlə bir oldu.

- Şimali Kolumbiyadakı Nevado Deş Ruiz vulkanı 400 ildən bəri ilk dəfə fəaliyyətə keçdi. Əriyən qar və buzun meydana gətirdiyi palçığa görə Armero şəhəri xəritədən silindi və 20.000 nəfər öldü.

- Banqladeşdəki sel 25.000 nəfərin ölümünə səbəb oldu.

- Xristianlığın mərkəzi Romanı su basdı.

- 1986-cı ildə Çində tarixinin ən böyük meşə yanğını oldu.

- Hindistan başçısı Qandi, Misir dövlət başçısı Ənvər Sədat, İsveçin Baş Naziri Olof Palme öldürüldü.

- Papa 2-ci Jean Paul vuruldu.

- 1980-ci ilin əvvəllərində ilk AİDS hadisələri təsbit edildi. Bu ana qədər on minlərlə insanın ölümünə səbəb olan bu xəstəliyə "əsrin vəbası" adı verildi.

- 1986-cı ildə Challenger kosmosa çıxışından sonra partladı.

- 26 aprel, 1986-ci ildə Ukraynadakı Çernobil nüvə stansiyasında indiyə qədər görülən ən böyük nüvə qəzası meydana gəldi. Bir çox Avropa ölkəsi yayılan radiasiyadan təsirləndi.

- Ozon təbəqəsinin deşilməsi dünya iqlimində çoxlu mənfi təsirlər meydana gətirdi.

- SSSR dağıldı və Qorboçovla birlikdə müstəqil dövlətlər ortaya çıxdı.

- İraqın Küveyti işğal etməsindən sonra illərlə davam edən Körfəz müharibəsi başladı.

- Ermənistandakı zəlzələdə şəhər xarabaya çevrildi. 500.000 nəfər evini tərk edərkən ölü sayı 40.000-i keçdi.

- 1989-cu ildə Çində kommunistlər tankları şagirdlərin üzərinə sürdü, Tiananmen meydanında 2.000 şagird öldü.

- Soyuq müharibənin simvolu olan Berlin divarı inşasından 28 il sonra yıxıldı.

- 1990-cı ildə Kəbədəki tuneldəki izdihamda 1400-dən çox hacı həyatını itirdi.

- 1991-ci ildə Banqladeşdə meydana gələn sellər nəticəsində təxminən 139.000 nəfər öldü, on milyonlarla insan evsiz qaldı.

- Son 20 ildə Amerikada fırtına, qasırğa və sellər dayanmaq bilmədi. Minlərlə insan öldü, milyonlarla insan evini tərk etdi və zərər hər dəfəsində milyard dollarla ölçüldü.

- Bosniya və Kosovadakı qırğınlarla yüz minlərlə müsəlman öldürüldü və yüz minlərlə müsəlman yurdlarından çıxarıldı.

- Ebola virusu on minlərlə insanın ölümünə səbəb oldu.

- Əl-Nino bütün dünya ölkələrinə  böyük fəlakətlər gətirdi.

- 19 oktyabr, 1987-ci ildə London birjası çökdü.. Yaşanan böyük çaxnaşma nəticəsində 50 milyard sterlinq dəyərini itirdi.

- 19 aprel, 1995-ci ildə ABŞ-ın Oklahoma şəhərindəki federal binanın bombalanmasında 168 insan öldü.

- 22 mart, 1997-ci ildə Hale-Bopp kometası saatda 160 km sürətlə dünyanın 195 milyon km. yaxınından keçdi. Gözlə izlənilə bilən Hale-Boppun keçişi bütün dünyada milyonlarla insan tərəfindən böyük  maraqla izləndi.

- 10 may, 1997-ci ildə İranda baş verən 7.1 ballıq zəlzələdə 1500 nəfər öldü.

- 4 fevral, 1998-ci ildə Əfqanıstandakı 6.1 ballıq zəlzələdə 5000 nəfər həyatını itirdi.

- 25 yanvar, 1999-cu ildə Kolumbiyadakı 6 ballıq zəlzələdə 5000 nəfər həyatını itirdi.

- 21 sentyabr 1999-cu ildə Tayvandakı 7.6 ballıq zəlzələdə 2100-dən çox insan həyatını itirdi.

- 11 sentyabr, 2001-də ABŞ-a tarixin ən böyük terror hücumu təşkil edildi: İki yolçu təyyarəsi səhər işin başladığı saatlarda 18 dəqiqə fasilə ilə Nyu-Yorkdakı Dünya Ticarət Mərkəzinin olduğu iki göydələni vurdu. Bunun ardından bir başqa təyyarə ilə Pentaqona hücum oldu. Hücumda 5000-dən çox insan öldü.

- Hindistanda gücü 7.9 bal olan bir zəlzələ meydana gəldi və minlərlə insan həyatını itirdi.

- 2003-cü ildə Fransa və İtaliya kimi bir çox Avropa ölkəsini təsiri altına alan isti hava dalğası 5000 nəfərin ölümünə səbəb oldu.

- 60.000  ildə bir reallaşan bir hadisə meydana gəldi və Mars planeti dünyaya ən yaxın mövqeyə gəldi.

- 2003-cü ildə SARSİT adlı ölümcül virus yayıldı.

- 2003-cü ilin noyabrında dünyanın ən quraq bölgələrindən olan Məkkədə meydana gələn sel fəlakətində 12 nəfər həyatını itirdi.

- 27 dekabr, 2003-cü ildəki İran zəlzələsində 86.000 nəfər həyatını itirdi və Bam şəhəri demək olar  ki, yerlə bir oldu.

- İlk dəfə 2003-cü ildə Asiyada qanadlı heyvanlarda yayılan quş qripi səbəbilə dünyada 208 nəfər həyatını itirdi.

- Hind okenında 26 dekabr, 2004-cü ildəki 9.1-9.3 ballıq zəlzələ və ardından meydana gələn 30 metrlik sunami dalğaları başda İndenoziya olmaqla, 11 ölkədə təxminən 300.000 nəfərin ölümü, on minlərlə insanın itməsi və 1 milyondan çox insanın evsiz qalması ilə nəticələndi. İndiyə qədər yaşanan bu ikinci böyük zəlzələ "tarixin ən böyük fəlakəti" olaraq xatırlanır.

- 23 avqust, 2005-ci ildəki Katrina qasırğası tarixin ən ölümcül qasırğalarından biri olaraq təxminən 2000 nəfərin ölümünə və təxminən 100 milyard dollarlıq zərərə səbəb oldu. Başda Nyu-Orleans olmaq üzrə bir çox məskunlaşma bölgəsinin boşaldılması ilə nəticələndi.

- 8 oktyabr, 2005-ci ildəki Kəşmir zəlzələsində 75000 nəfər həyatını itirərkən 100 mindən çox insan da yaralandı.

**27. Hz. Mehdinin çıxışından ümid kəsilməsi:**

İnsanların ümidsiz olduğu və "heç Mehdi filan yoxmuş" - deyildiyi bir vaxtda Allah Mehdini göndərər... (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 55)

Yuxarıdakı hədisdə axır zaman əlamətlərindən birinin insanların "hz. Mehdinin gəlməyəcəyinə aid" bir ümidsizliyə qapılmaları olduğu bildirilir. Necə ki, hazırki dövrdə bu əhvalın nümunələri tez-tez görünür. Peyğəmbərin (s.ə.s.) hz. Mehdinin gəlişi, hz. İsanın dünyaya yenidən dönüşü ilə yaşanacaq gözəlliklərlə əlaqədar çoxlu sayda hədisi olmasına baxmayaraq, insanların çoxu belə bir dövrün yaşanmayacağını zənn edir. Bu yanlış zənn də axır zaman əlamətlərindən biridir. Həqiqi din əxlaqının hakimiyyəti bu ümidsizlik halının insanlar arasında yayıldığı bir zamanda Allahın insanlara olan rəhməti sayəsində reallaşacaq.

**28. Fitnələrin çoxalması:**

Həyat şərtlərinin çətinləşdiyi, Allahın və dinin müxtəlif şəkillərdə yalanlanaraq insanların imanlarının zəiflədilməyə, yox edilməyə çalışıldığı çətin imtahan mühitləri islami qaynaqlarda "fitnə" mühiti olaraq adlandırılır.

Peyğəmbərimizin (s.ə.s.) bir hədisində axır zamanda bəzi möminlərin imanlarının zəifləyəcəyi və buna səbəb olacaq hadisələr xəbər verilir.

Qiyamət yaxınlaşdığı zaman və möminlərin ürəyi ölüm, aclıq, fitnələr, sünnələrin itməsi, bidətlərin ortaya çıxması, yaxşılığı əmr edib pislikdən çəkindirmə imkanlarının itməsi kimi səbəblərlə zəiflədiyi zaman mənim övladlarımdan Mehdi ilə Cənabi-haqq sünnələri canlandırar. Onun ədalət və bərəkətilə möminlərin ürəyi fərahlanar, əcəm (ərəb olmayan) və ərəb millətləri arasında ülfət (qaynaşma, dostluq) və məhəbbət yaranar. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 66)

Əgər qısa yekunlaşdırsaq, hədisdə yer alan məlumatlara görə, hz. Mehdi gəlmədən əvvəl bu hadisələr reallaşacaq:

1- Ölüm: Anarxiya və kütləvi qırğınlar nəticəsində xalqın can təhlükəsizliyinin qalmaması və bunun meydana gətirdiyi narahat mühit.

2- Aclıq: bahalıq səbəbilə meydana gələn dolanışıq çətinliyi. Fəlakətlər və təbii fəlakətlər nəticəsində qıtlıqların, aclığın artması.

3- Fitnələr: Haramların böyük-kiçik hər kəsin arasında geniş yayılması və təşviq görməsi. Hər cür əxlaqsızlığın insanların gözlərinin qarşısında edilməsi.

4- Bidətlərin ortaya çıxması: İslam dinində olmadığı halda, ortaya çıxarılan adətlərin dinin əsaslarıymış kimi qəbul edilməsi.

5- Din əxlaqını izah etmək üçün imkanların azalması: Yaxşılığın əmr edilməsi və pisliyə qarşı çıxmaq imkanının olmaması; qısası, təbliğ imkanının itməsi ilə meydana gələn mənəvi boşluq.

Fitnə mühitləri möhkəm imana sahib möminlər üçün imanlarının güclənməsinə, səbirlərinin və axirətdəki dərəcələrinin artmasına vəsilə olarkən, zəif və səthi imana sahib kəslərin imanlarını itirmələrinə və ya imanlarının daha da zəifləməsinə səbəb olar. Hz. Mehdi bu fitnə mühitinin ən sıx və şiddətli olaraq yaşandığı dövrdə ortaya çıxacaq.

Başqa hədislərdə və islam alimlərinin izahlarında da axır zamanda hz. Mehdinin hər yerə yayılmış çox kütləvi bir fitnənin olduğu halda ortaya çıxacağı bildirilir:

Mehdi fitnələrin zühur etdiyi bir zamanda gələcək. (Məktubati-Rəbbani, 2-258)

Məğribdə (qərbdə) qarşılıqlar, fitnələr və qorxu olacaq... Fitnələr çoxalacaq. (Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, İmam Şarani, səh. 440)

Heç bir tərəfin ondan qoruna bilməyəcəyi bir fitnə zühur edəcək, bu fitnə olduğu yerdən başqa bir tərəfə yayılacaq və bu hal bir münadinin (xalqa yüksək səslə müraciət edən adam) səmadan səslənərək: "Ey insanlar, əmiriniz artıq Mehdidir" - deməsinə qədər davam edəcək. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 23)

Bir fitnə görülər, bunu digər fitnələr izləyər... (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 26)

Kütləvi və sona çatması mümkün olmayan bir fitnə çıxacaq... (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 55)

**29. Kütləvi qırğınların meydana gəlməsi:**

Mehdidən əvvəl kütləvi qırğınların baş verəcəyi (reallaşacağı) böyük bir fitnə görüləcək. (Əl-qövlül-müxtəsər fi əlamət-əl-Mehdiyyil-müntəzər, səh. 37)

Bu hadisələr meydana gəlmədikcə qiyamət qopmayacaq... Ölümlər və qırğınlar kütləvi hala gələcək... (Camius-səğir, 3:211, Müsnəd, 2:492, 4:391, 392)

... Qırğınlara yerdə və göydəkilər artıq dözə bilmədiklərində (hz. Mehdi) zühur edəcək... (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 37)

... Qan axıtmağı halal edərək Muhəmmədə düşmən kəsilər... (Əli bin Hüsaməddin əl-Müttəqi , Cəlaləddin Suyutinin təsnifindən hədislər, axır zaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 37)

... Qan tökülməsi... qiyamət əlamətlərindəndir. (Qiyamət əlamətləri, səh. 142)

Bu hədislərdə qırğınların kütləvi olacağına, yəni bütün dünya səviyyəsində yaşanacağına diqqət çəkilir. Keçən əsrdə iki böyük dünya müharibəsi yaşanmış və sırf bu müharibələrdə 65 milyon insan həyatını itirmişdir. 20-ci əsr boyu siyasi səbəblərlə qətl edilən vətəndaşların sayının 180 milyonu keçdiyi düşünülür. Bu, əvvəlki əsrlərlə müqayisə edildiyində fövqəladə dərəcədə yüksək bir rəqəmdir. Bu gün, 21-ci əsrdə hələ də dünyanın dörd bir tərəfində qanlı müharibələr və qarşıdurmalar davam edir. Bu müharibələrin ortaq xüsusiyyəti isə yuxarıdakı hədisdə də ifadə edildiyi kimi, kütləvi qırğınların yaşandığı müharibələrin olmasıdır.

**30. Dünyanın hər yerini fəsad və qarışıqlıqların bürüməsi:**

... Hərc-mərclik* çoxalaraq davam edər. (Əli bin Hüsaməddin əl-Müttəqi , Cəlaləddin Suyutinin təsnifindən hədislər, axır zaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh.37)

*Hərc-mərclik: İnsanlar arasında meydana gələn fitnə-fəsad mühiti.

Dünya hərc-mərclik içində olduğunda, fitnələr zühur etdiyində, yollar kəsildiyində, bəziləri bəzisinə hücum etdiyində, böyük kiçiyə mərhəmət etmədiyində, böyüyə hörmət edilmədiyində Allah bu zaman onlardan düşmənliyin kökünü götürərək qalalarını fəth edəcək və əvvəlcə mənim dini yaşatdığım kimi, axır zamanında dini yaşadacaq, əvvəllər zülmlə dolu olan dünyanı ədalətlə dolduran birini (Mehdini) göndərəcək. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman)

Hədislərdə göründüyü kimi, qarışıqlığın dünyanın hər tərəfində yayılacağına işarələr var. Həqiqətən də hədislərdə təsvir edildiyi şəkildə bu gün dünyanın beş qitəsində böyük qarışıqlıq, qarşıdurmalar, qırğınlar və terror hadisələri yaşanır. Hər gün yüzlərlə insan səbəbsiz yerə öldürülür, yurdlarından çıxarılır.

**31. Anarxiya və bütün dünyada qiyamların olması:**

Qiyamətin çox yaxınlığında anarxiya və qarışıqlıq günləri vardır. (Suyuti, Camius-səğir, 3/211)

... (O vaxtda) fitnələr, qarışıqlıqlar, qiyamlar çox olar, insanlar bir-birlərini öldürərlər... (Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, səh. 376, nömrə 685)

Anarxiya və qarşıdurma keçən əsrin ən nəzərə çarpan xüsusiyyətlərindən biridir. Vətəndaş müharibələri, qiyamlar minlərlə insanın həyatına son qoymuş və təhlükəsizlik və dinclik insanların ən böyük həsrətlərindən biri olmuşdu. Bəzi Afrika ölkələrində heç cür sona çatmayan vətəndaş müharibələri, başda Cənubi Amerika olmaq üzərə bəzi ölkələrdə yaşanan qiyamlar, Cənubi Asiyada yaşanan qarşıdurma və müharibələr, Orta Şərqdə yaşanan gərginliklər bu qarışıqlığın yalnız bilinən nümunələridir.

**32. Qadın, uşaq və günahsız insanların qətl edilməsi:**

Bir qadının öldürülməsi bir qırmancın yellənməsi qədər asandır. Bu hadisə Mədinədən iyirmi dörd mil qədər yayılar. Sonra hz. Mehdiyə beyət edilər. (Əli bin Hüsaməddin əl-Müttəqi, Cəlaləddin Suyutinin təsnifindən hədislər, axır zaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 34)

Günahsız insanlar öldürülmədən Mehdi çıxmaz... (Əli bin Hüsaməddin əl-Müttəqi, Cəlaləddin Suyutinin təsnifindən hədislər, axır zaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh.35)

Bu fitnələrin ən sonuncusu günahsız insanların öldürülməsidir ki, artıq o zaman özündən hər kəsin razı olacağı bir yolda olan hz. Mehdi çıxar. (Əli bin Hüsaməddin əl-Müttəqi, Cəlaləddin Suyutinin təsnifindən hədislər, axır zaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 38)

Günahsız insanlar qətl oluncaya qədər Mehdi çıxmayacaq... (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 37)

Hz. Mehdinin çıxışı ilə əlaqədar hədislərdə qırğınların yayılmasından bəhs edilərkən bu qırğınların günahsız insanları hədəf alacağına xüsusilə diqqət çəkilmişdir. Müharibələr və ya müxtəlif qarşıdurmalar əsnasında reallaşdırılan qırğınlarınla yanaşı, xüsusilə son illərdəki terror hadisələri də xalqın kütləvi olaraq məhv edilməsi ilə nəticələnir. Terrorizmin məqsədi xalq arasında qorxu və dəhşət

yaymaq olduğundan bu cür hücumların əsas yönəldiyi istiqamət əksəriyyətlə vətəndaş və xalqdır. Ticarət mərkəzləri, restoranlar və məktəblər kimi, qadınların, gənclərin və uşaqların olduğu yerləri hədəfləyən bu davranışlara görə dünyanın fərqli ölkələrində çoxlu insan həyatını itirir.

**33. Misirlilərin əsir alınması:**

Şam əhli, Misir qəbilələri əsir alınacaqlar. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 49)

Daha əvvəl də ifadə etdiyimiz kimi, Şam bölgəsi Hicazın (Məkkə və Mədinənin olduğu bölgə) sol tərəfindəki bölgədir. Bu gün haqqında danışılan bölgədə İsrail dövləti də var. Dolayısı ilə, bu hədis İsrail dövlətinin Misirlə olan münaqişələrinə və Misir torpaqlarını işğalına işarə edə bilər. 26 oktyabr, 1956-ci il tarixində İsrail Misirə hücum etdi və Sina yarımadasını işğal etməyə başladı. Birləşmiş Millətlərin araya girməsi ilə qarşıdurmalar bir müddət sonra sona çatdı və İsrail sərhədinə BM Sülh Qüvvələri yerləşdi. 1967-ci ildəki 6 gün müharibəsi isə İsrail-Misir arasındakı başqa bir müharibə idi. Bu müharibələr əsnasında çoxlu sayda misirli İsrail əsgərləri tərəfindən əsir alındı, çoxu da həyatını itirdi.

**34. Şəhərlərin yox olması:**

Böyük şəhərlər sanki dünən yoxmuş kimi məhv olar. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 38)

Xoş diyarlar xarab edilincə... qiyamətlə sənin aranda bu iki barmaq arası qədər bir məsafə qalmışdır. (Qiyamət əlamətləri, səh. 143)

Hədislərdə böyük şəhərlərin, xoş diyarların məhv olması haqqında bildirilənlər müharibələr və müxtəlif təbii fəlakətlər nəticəsində meydana gələn dağıntıları ağıla gətirir. Bunlarla yanaşı, yaxın keçmişdə təkmilləşdirilən nüvə silahları, təyyarələr, mərmilər və buna bənzər silahların müharibələrdə istifadə edilməsi də böyük qarışıqlığa səbəb olmuşdur. Bu dağıdıcı gücü yüksək silahlar tarixdəki bənzərləri ilə müqayisə edilməyəcək səviyyədə dağıntılara səbəb olmuşdur. Əlbəttə, hədəf mövqeyindəki "böyük şəhərlər" də bu dağıntılardan birinci dərəcədə təsirlənən yerlər olmuşdur.

**35. Xarab olmuş yerlərin abadlığı:**

Dünyanın xarab olmuş yerlərinin abadlığı, abadlaşdırılmış yerlərinin dağıdılması qiyamətin şərt və əlamətlərindəndir. (Qiyamət əlamətləri, səh. 138)

Müharibələrlə keçən 20-ci əsrdə bir çox şəhər yerlə bir olmuş və yenidən tikilmişdir. Berlin, Leninqrad (St.Peterburq), Drezden kimi 2-ci dünya müharibəsi əsnasında tanınmayacaq hala gələn böyük Avropa şəhərləri müharibədən sonra yenidən tikilmiş və bu günkü görünüşlərini almışlar.

Bənzər bir nümunə olaraq Yaponiyanın Kobe şəhəri 1995-ci ilin yanvar ayında böyük bir zəlzələ nəticəsində viran olmuşdur. Zəlzələnin baş verdiyi bölgə

Yaponiyanın qabaqcıl sənaye və ticarət mərkəzlərindən idi. Buna görə, zəlzələdən sonra maddi zərər milyardlarla dollar oldu. Yaponlar bir müddət sonra Kobe şəhərini yenidən tikdilər.

**36. Hər yerə yayılan bir fitnə:**

Bir fitnə zühur edəcək, bu fitnə olduğu yerdən dərhal başqa bir yerə yayılacaq və bu bir münadinin səmadan səslənərək: "Ey insanlar, əmriiniz artıq Mehdidir", - deməsinə qədər davam edəcək. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 23)

Hədisdə hər kəsə çatacaq, sürətlə yayılacaq bir fitnədən bəhs edilir. Yəni hər kəsin xəbərdar olacağı, din əxlaqına və Allaha qarşı ortaya sürülən bir fitnə insanların imanlarını hədəf alacaq. Hazırki dövrdə Allahın varlığına və din əxlaqının yaşanmasına qarşı ən böyük fikri cərəyan materialist fəlsəfədir. Bu fəlsəfənin özünə dayaq saydığı sözdə elmi təməl isə "təkamül nəzəriyyəsi"dir. Heç bir elmi və məntiqi dəlilə əsaslanmayan, tamamilə ağıl və elmdən kənar olduğu halda, təbliğat və göz boyama üsulları ilə bu mənasız söz dünya səviyyəsində müəyyən materialist cadugərlər tərəfindən kütlələrə təlqin edilməyə çalışılır.

Bu gün təkamül nəzəriyyəsinin istər mətbuat, istərsə televizya yolu ilə təbliğ olunmadığı ev və məkan qalmayıb. Diqqət çəkən bir nöqtə daha vardır: Peyğəmbərimizin (s.ə.s.) hədisində ifadə edildiyi kimi, bir fitnənin dünyanın hər yerinə nüfuz etməsi və sürətlə yayılması ancaq müasir texnoloji imkanlarla (mətbuat, nəşr, internet, peyk ünsiyyəti...) reallaşa bilər. Keçmişdəki şərtlərdə bir fitnənin dünya səviyyəsində qısa zamanda bu qədər geniş sahəyə yayılması mümkün deyil. Necə ki, bu günə qədər Allahın varlığına, yaradılışa və din əxlaqına qarşı çıxan, dünya səviyyəsində yayılmış bir başqa fitnə olmamışdır. Hədislərdə hz. Mehdinin çıxışı və hz. İsanın gəlişi ilə bu fitnənin sona çatacağı müjdələnir.

**37. Haramların halal sayılması:**

... Bütün haramların halal sayılacağı bir fitnə gələr. Sonra da xilafət dünyanın ən xeyirlisi olan hz. Mehdiyə evində oturarkən gələcəkdir. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 26)

Hz. Mehdi bütün haramların halal sayıldığı böyük bir fitnədən sonra çıxacaq. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 23)

Hazırki dövrdə fahişəliyin, qumarın, içki və rüşvətin və s. haram olmasına baxmayaraq, dünyanın bir çox ölkəsində getdikcə artan bir nisbətdə yayılır. Bəzi qərb qəzet və televiziyalarında bu haramları işləyənlər tez-tez təriflənir və təşviq

edilirlər, hətta işləməyənlər tənqid edilirlər. Aparılan statistikalar isə bu mövzudakı sayın gedərək artdığını göstərir.

**38. Allahın açıq-aşkar inkar edilməsi. (Allahı tənzih edirik)**

Allah açıq-aşkar inkar edilənə qədər hz. Mehdi gəlməz. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 27)

Allahı inkar etmə azğınlığı olan ateizm 19-cu əsrin sonundan etibarən yayılmışdır. Materializm və darvinizmin yayılması ilə özlərinə fəlsəfi və sözdə elmi dayaq tapdıqları yanılmasına qapılan ateistlərin sayı 20-ci əsrdə artmışdır. Atesitlər bu dövrdə azğın görüşlərini təbliğ etmək imkanı tapmışlar. Ateizm səmimi olaraq iman edənlərin aparacağı fikri mübarizənin vəsiləsilə Allahın iznilə yox olmağa məhkumdur.

**39. Materialist fəlsəfənin yayılması:**

"Bismillah" kəlməsinin hərflərinin dəyəri itdiyi zaman Mehdi zühur edər. (Risalətül-xürucul Mehdi, səh. 29)

Hədisdə "bəsmələ" ilə vurğulanmaq istənilən, insanların din əxlaqına baxışı və imani vəziyyətləri ola bilər. Belə ki, insanların imanlarının zəif olduğu bir dövrdə hz. Mehdi zühur edəcək və bu cərəyanları fikirlə ortadan qaldıracaq. Bu baxımdan düşünüldüyündə hədisdə keçən ifadə materialist və darvinist fəlsəfənin insanlar üzərindəki təsirinin çox olacağına işarə edir. Bir başqa hədisdə isə axır zamanda dinsizlik və inancsızlığın artacağı belə ifadə edilir:

Küfr hər yanı zəbt edib hökmü cəmiyyət içində aşkar işlənmədikcə Mehdi zühur etməz. Bu dövrdə baş verən isə... küfrün zəbtidir. Onun qüvvətidir. (Məktubati-Rəbbani, 2-259)

**40. Din əxlaqından uzaqlaşdıran fitnələrin olması:**

Qiyamətə yaxın qaranlıq gecələrin parçaları kimi qarışıqlıqlar olacaq. Bu qarışıqlıqlar içində adam mömin olaraq oyanıb kafir olaraq axşamlayacaq, mömin olaraq yatıb kafir olaraq qalxacaq. (Quran və sünnədə qiyamət və axirət, səh. 155)

"Ənam" surəsinin 26-cı ayəsində insanları "Qurandan və din əxlaqından çəkindirənlərə" diqqət çəkilir:

**"Dinləməyi qadağan edər, özləri də onlardan uzaq durarlar. Onlar, yalnız özlərini həlak edər, lakin fərqinə varmazlar". (Ənam 26)**

Hədislərdən də azğın fikir cərəyanlarının, haqq və həqiqətdən uzaq sistemlərin qiyamətdən əvvəl insanları Allahın yolundan azdıracaq böyük fitnələr meydana gətirəcəyi aydın olur. Bu fitnələrin müxtəlif təbliğat və təlqin üsulları ilə yayılacağı isə başqa hədislərdə belə bildirilir:

... "O dövrdə xalqı cəhənnəm qapılarına çağıracaq bəzi dəvətçilər olacaq. Hər kim o çağıranların dəvətinə razı olsa, onu cəhənnəmə atacaqlar".

"Ya Rəsulullah, o dəvətçilər zümrəsinin xüsusiyyətlərini bizə bəyan etsəniz?"

"Yaxşı, deyim. Onlar bizim millətimizdən olub bizim dilimizlə danışan bir zümrədir" - buyurdu. (Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, səh. 382, nömrə 698)

Yaxın gələcəkdə kor, kar və dilsiz (yəni insanları kor edib), doğrunu göstərməyən, kar edib haqq olanı eşitdirməyən və dilsiz (edib) haqq sözləri danışdırmayan bəzi qorxunc fitnələr olacaq...

Fitnə zamanı dilin fitnəyə qarışması və təbliğ etməsi qılınc zərbəsi kimi onun yayılmasını təmin edər. (Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, səh. 390, nömrə 720)

Bəhs edilən fitnənin kar edib eşitdirməməsi və danışdırmaması bir çox ölkədə iqtidarda olan rejimləri də ağıla gətirir. Bu rejimlər fikir və düşüncə azadlığını çərçivələyib, insanların düşüncələrini, inanclarını dilədikləri kimi ifadə etmələrinə mane olur. Xüsusilə, bəzi ərəb və Afrika ölkələrində müsəlmanların düşüncələrini azad ifadə edə bilməmələri, inanclı olduqları üçün əziyyət çəkmələri bunun nümunələridir.

**41. Məscidlərin yıxılması:**

Süfyan quru bir vadidən çıxar... O, mədrəsə və məscidləri yuyar, rüku və səcdəyə gedən hər kəsi cəzalandırar. (Əli bin Hüsaməddin əl-Müttəqi, Cəlaləddin Suyutinin təsnifindən hədislər, axır zaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 35)

**42. Saxta peyğəmbərlərin çoxalması:**

Hər biri Allahın elçisi olduğunu iddia edən otuza yaxın yalançı göndərilmədikcə qiyamət qopmayacaq. (Tirmizi, Fitən 43; Əbu Davud, Məlahim 16)

Hər biri özünün tək məbud olan Allahdan rəsul olaraq göndərildiyini iddia edən altmış yalançının çıxması. (Əli bin Hüsaməddin əl-Müttəqi, Cəlaləddin Suyutinin təsnifindən hədislər, axır zaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 36)

**43. Dinin bəzi insanlar tərəfindən şəxsi mənfəətlər üçün isitfadə edilməsi:**

Alimlər elmi sırf pul qazanmaq üçün öyrəndiyində... dini dünyalıq qarşılığında satdıqlarında... hökmü satdıqlarında... qiyamət yaxınlaşmış olacaq. (Ölüm, qiyamət və diriliş, səh. 480)

Axır zamanda elə adamlar çıxacaq ki, dinlərini dünya mənfəətləri qarşılığında satacaqlar. (Tirmizi, Zühd, 60)

Kim Quran oxusa, (mükafatını) Allahdan istəsin. Çünki son zamanlarda Quran oxuyub (mükafatını) insanlardan istəyən bəzi insanlar törəyəcək. (Son zamanlarla əlaqədar hədislər, səh. 9)

**44. Saleh möminlərin çox az olması:**

İnsanların... bidətçilərin (dindən olmayan şeyləri dindən olduğunu göstərib qəbul etdirməyə çalışanlar) fikirlərini mənimsəyib fərqində olmadan şirk qoşduqları, elmi dolanışıq üçün öyrəndikləri, dinlərindən dünyalıqları üçün istifadə etdikləri bir zaman gələcəkdir. (Deyləmi; Son zamanlarla əlaqədar hədislər, səh. 68)

İnsanlara bir zaman gələr ki, məscidlərində toplanıb namaz qılarlar. Lakin aralarında mömin tapılmaz. (Hakim; Son zamanlarla əlaqədar hədislər, səh. 19)

**45. Müsəlmanlara təzyiqin artması:**

And içirəm ki, bu ümmətə elə (şiddətli) bəlalar gələcək ki, insanlar zülmdən, qəddarlıqdan xilas olmaq üçün sığınacaq bir yer tapa bilməyəcək. Elə çətinlikdə Allah təala ailəmdən bir şəxsi (Hz. Mehdi) göndərəcək. (Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, səh. 437)

Rüku və səcdəyə gedən hər kəsi cəzalandırar... Muhəmmədə düşmən kəsilər... (Əli bin Hüsaməddin əl-Müttəqi, Cəlaləddin Suyutinin təsnifindən hədislər, axır zaman Mehdisinin əlamətləri, Qəhrəman nəşriyyat, səh. 37)

Burada müsəlmanların üçdə biri öldürülər... . (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 73)

Hədislərdə bildirilən hz. Mehdinin çıxış əlamətlərindən biri də müsəlmanların bu dövrdə böyük təzyiq altında və çətinlik içində olmalarıdır. Müasir islam dünyasına baxıldığında görünənlər bu əlamətin reallaşdığının dəlilidir. İndoneziyadan Fələstinə, Çaddan Şərqi Türküstana qədər müsəlmanlar müxtəlif əziyyət və çətinliklərlə qarşı-qarşıyadırlar. Hədislərdə bu çətinliklərin detalları ilə əlaqədar da məlumatlar verilmişdir:

-Zalım idarəçilərin olması:

Vay bu ümmətə, o öldürən zalım məliklərdən ötrü. Bu zalımlar özlərinə itaət edənlər xaric, səssiz qalanları qorxudurlar... (Əbu Nuaymdan; Suyuti, cild 2-ci, səh. 64)

Liderlərin zülm etməsi qiyamət əlamətlərindəndir. (Qiyamət əlamətləri, səh. 143)

Bu hədislər Mehdi (ə.s.) gəlmədən əvvəl bəzi müsəlman ölkələrdə din əxlaqından uzaq, zalım və mərhəmətsiz xarakterli kəslərin iqtidarda olacaqlarına işarə edir.

-Dinsiz ideologiyaların yayılması:

(Qiyamətin bir əlaməti) Məscidlər içərisində günahkarların səslərinin yüksəlməsi və günahkarların dinin əmrlərini yerinə yetirən səmimi möminlərə qalib gəlib onlara təzyiq etmələridir. (Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, səh. 450)

-Möminlərin inanclarını gizləmək məcburiyyətində qalmaları:

Peyğəmbərimiz (s.ə.s.) bir başqa hədisində də axır zamanda səmimi möminlərin bütün bu təzyiqlər səbəbilə inanclarını saxlamaq və ibadətlərini gizli davam etdirmək məcburiyyətində qala biləcəklərini belə xəbər vermişdir:

Bu gün sizin aranızda münafiqlərin gizli yaşadıqları kimi bir zaman gələr ki, mömin olanlar da digərlərinin arasında gizli olaraq dini həyatlarını davam etdirməyə çalışarlar. (İbni-Sünni; Son zamanlarla əlaqədar hədislər, səh. 12)

**46. Siyasətçilərdə degenerasiya:**

Axır zamanın əhəmiyyətli xüsusiyyətlərindən biri mərhəmətsiz, zalım və xalqını fəlakətlərə aparan liderlərin rəhbərliyə gəlməsidir. 20-ci əsr bu tərz lider və idarəçilərin nümunələri ilə doludur. Din əxlaqına uyğun olmayan ideologiyaları mənimsəyən bu kəslər həm öz xalqlarına etdikləri zülm, həm də səbəb olduqları müharibə və qarşıdurmalar səbəbilə digər cəmiyyətlərə gətirdikləri bəlalarla məşhurlaşmışlar. Hədisdə də buna diqqət çəkilir. Çinin kommunist diktatoru Mao yalnız özünə müxalif olduqları üçün, minlərlə vətəndaşı qətl etmiş, rəhbərliyi boyu milyonlarla insanın ölümünə səbəb olmuşdur. Mussolini faşist ideologiyasının təsirilə ölkəsini 2-ci dünya müharibəsinin içinə sürüyərək xalqına böyük fəlakətlər yaşatmışdır. Mobutu tarixə Afrika qitəsinin ən mərhəmətsiz diktatorlarından biri olaraq keçmişdir.

Xəbəriniz olsun, buna şübhə yoxdur ki, başınıza bəzi rəhbərlər və dövlət başçıları gələcək və onlar (dövlət xəzinəsindən köməyə ehtiyacı olan) sizlərə vermədiklərinin

(haqları olmadığı halda) özlərinə verilməsini hökm edəcəklər. (Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, səh. 380, nömrə 697)

Yaxında başınıza bəzi əmirlər gələcək. Ruzilərinzə əl qoyacaq, sizi yalanlarla ovudacaqlar. İş görəcəklər. Lakin gördükləri pis olacaq. Ən pis cəhətləri də pisliklərini siz gözəl görmədikcə və yalanlarını təsdiq etmədikcə sizdən razı olmayacaqlar... (Bəqavi, Təbərani: Gələcəyin tarixi 1, səh. 43)

İslamın üsulları tək-tək pozulacaq və xalqı dəlalətə aparan hökümət adamları çıxacaq... (Hakim; Gələcəyin tarixi 1, səh. 57)

**47. Gözəl və pis əxlaq anlayışlarının yer dəyişdirməsi:**

Pislərin çoxaldıqca çoxalması, yalançıların doğru qəbul edilməsi qiyamət əlamətlərindəndir. (Beyhəqi, İbni-Nəccar; Son zamanlarla əlaqədar hədislər, səh. 107)

Yalançının təsdiqlənməsi, doğrunun yalanlanması qiyamət əlamətlərindəndir. (Qiyamət əlamətləri, səh. 137)

Yalançı doğru qəbul ediləcək və doğru söyləyən isə təkzib ediləcək. Xainə etibar olunacaq və etibarlı olana isə xain kimi münasibət göstəriləcək... O zaman yalan yayılacaq... (Fəraidu-fəvaidil-fikir fil-İmam əl-Mehdi əl-Müntəzər; Gözlənilən Mehdi, 3-cü nəşr, səh.146-147)

**48. Müsəlmanların bir-birləri ilə savaşmaları:**

... Fikirlər ayrılmadıqca, doğma qardaşlar dində ixtilafa düşmədikcə qiyamət qopmaz. (Qiyamət əlamətləri, səh. 142-143)

Hz. Əbu Hüreyrə (r.ə.) nəql edir: Rəsulullah (s.ə.s.) buyurdu: "Müsəlmanlardan iki qrup aralarında döyüşmədikcə qiyamət qopmaz. Bunlar aralarında böyük bir müharibə edərlər, lakin iddiaları birdir". (Buxari, Fitən: 24, Mənakib: 25, İstitabə: 8; Müslim, İman: 248, Fitən: 17)

Peyğəmbərimiz (s.ə.s.) 1400 il əvvəl bildirdiyi bu hədislərində hazırki dövrdə yaşanacaq bəzi hadisələrə diqqət çəkmişdir. Necə ki, hədislərdə xəbər verildiyi kimi, hicri 1400-cü illərin əvvəlindən etibarən bəzi müsəlman ölkələr arasında müharibə və qarşıdurmalar yaşanmışdır. İran-İraq müharibəsi, İraqın 1990-cı ildə Küveyti işğal etməsi bunlara nümunədir.

**49. Ticarət və yolların kəsilməsi:**

Ticarət və yolların kəsildiyi və fitnələrin çoxaldığı zaman... (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 39-40)

Mehdi çıxmadan əvvəl millətlər arasında ticarət və yollar kəsiləcək, insanlar arasında fitnələr çoxalacaq. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 39)

Hazırki dövrdə ölkələr arasında ticari və iqtisadi əməkdaşlıq razılaşmalarına baxmayaraq, təhlükəsizlik problemi bəzən ticari fəaliyyətlərə mane olur. Məsələn, Xəzər bölgəsindəki yeraltı zənginliklərin digər bölgələrə daşınması mövzusunda yaşanan problemlərin əhəmiyyətli bir qismi təhlükəsizlikdir. Bu mövzuda bir çox nümunə vardır. Dünyanın fərqli tərəflərində də qarşıdurmalar və gərginliklər iqtisadi fəaliyyətlərə mane olur, cəmiyyətlər arasında ticari əməkdaşlıqlar çox məhdud sayda reallaşır.

**50. Zəlzələlərin çoxalması:**

... Zəlzələlər çoxalmadıqca... qiyamət qopmaz. (Qiyamət əlamətləri, səh. 109)

Ümmətimdə zəlzələlər olar. Belə ki, bu zəlzələlərdə on min, iyirmi min, otuz min adam ölər. (İbni Əsakir, Gələcəyin tarixi 1, Orxan Baydan, Mövsüm nəşriyyat, səh. 81)

Sığınacaq evlər, sizi daşıyacaq heyvanlar tapa bilməyəcəyiniz zaman yaxınlaşmışdır. Çünki evlərinizi zəlzələlər yıxacaq, heyvanlarınızı ildırımlar yandırıb kömürə çevirəcək. (Nuaym bin Həmmad, Gələcəyin tarixi 1, səh. 82)

... Bil ki, artıq zəlzələlər, kədərlər, böyük hadisələr yaxındır. O gün qiyamət insanlara bu əlimin başına olan yaxınlığından daha yaxındır. (Əbu Davud, Cihad 37, səh. 2535, Kutubu-sittə, cild 14, səh. 339)

ABŞ Geoloji Araşdırma Təşkilatının (USGS) hesabatlarına görə, 1556-1975 -ci illər arasında təxminən 400 ildə meydana gələn 5.0 və daha böyük ballıq zəlzələlərin sayı 110-dur. Eyni təşkilatın bildirdiyinə görə, 1980-2003 illəri arasında meydana gələn 6.5 və daha böyük ballıq zəlzələlərin sayı isə 1.685-dir. Şübhəsiz, bu rəqəmlər hicri 1400-cü ilin əvvəlindən etibarən zəlzələlərin sayındakı artımı çox açıq şəkildə ortaya qoyur.

**51. Quraqlığın olması:**

Dəccalın çıxmasından əvvəl səma üç il yağışını kəsər. Birinci ildə normal yağışın üçdə birini tutub üçdə ikisini yağdırar. Dünya bitkisinin üçdə birini bitirməz. İkinci ildə səma normal yağışının üçdə ikisini yağdırmaz. Dünya bitkisinin üçdə ikisini bitirməz. Üçüncü ildə isə səma yağışının hamısını kəsər, dünya da

bitkisindən heç birini bitirməz. (Əbu Davud, İbn Macə, Təbərani; Gələcəyin tarixi 3, səh. 241)

**52. Qasırğaların artması:**

Qiyamətdən əvvəl on əlamət görmədən o qopmayacaq. Onuncusu, insanları dənizə atacaq olan qasırğa... (Qiyamət əlamətləri, səh. 288)

Keçən əsrin son illərində meydana gələn ən əhəmiyyətli hava hadisələrindən bir neçəsi belədir:

1987-ci ilin oktyabr ayında cənub-şərqi İngiltərə 1703-cü ildən bəri meydana gələn ən böyük fırtına ilə sarsıldı. Fırtına səbəbilə 15 milyon ağac aşdı və meşələrin böyük bir qismi yox oldu. 16 adamın öldüyü fırtınada binalar böyük ziyan gördü, gəmilər sahilə çıxarıldı.

20 mart, 1998-ci ildə Corciyada meydana gələn tornado səbəbilə 12 adam ölmüşdür.

27 may, 1997-ci ildə Teksasda meydana gələn tornado səbəbilə ölənlərin sayı 27-dir.

13 may, 1996-cı ildə Banqladeşin qərbində meydana gələn fırtınalarda təxminən 500 - 1000 adam ölmüşdür. Eyni fırtınalar 30.000 nəfərin yaralanmasına və 100.000 nəfərin evsiz qalmasına səbəb olmuşdur.

1992-ci ildə Endryu qasırğasının səbəb olduğu ziyan yalnız Meksika körfəzində təxminən 0.50 milyard dollardır. Endryu qasırğası Bahamalarda isə təxminən 0.25 milyard dollar ziyana səbəb olmuşdur. ABŞ-ın şərqində 2 milyona yaxın insan qasırğa səbəbilə evlərindən çıxarılmışdır.

2002-ci ilin avqustunda Avropanın orta və şərq bölgələrində sellərdə ölənlərin sayı 114-ə çatmışdır. 21 sentyabr, 2003-cü ildə Cənubi Koreyada son 40 ildə meydana gələn ən şiddətli qasırğada isə 2 gündə təxminən 200 adam ölmüşdür.

2005-ci ilin avqustunda meydana gələn Katrina qasırğası Misisipinin 8 şəhərini məhv etmiş, Nyu-Orleansın 80 faizi yerlə bir olmuş, təxminən 2000 nəfər ölmüşdür. Bu Amerika tarixinin ikinci ən böyük qasırğası olaraq qəbul edilir. Verdiyi zərər 81.2 milyard dollardır. Bu qasırğanın diqqət çəkən bir xüsusiyyəti isə şəhəri seldən qoruması üçün tikilən bəndin yıxılması ilə Nyu-Orleansın demək

olar ki, tamamilə sular altında qalmasıdır. Hədisdə bildirilən "İnsanları dənizə atan qasırğa" tərifinin bir təcəllisi də bu ola bilər.

2007-ci ilin noyabr ayında Banqladeşi təsiri altına alan və 250 km sürətlə əsən Sidr qasırğası isə 3200 adamın ölümü və böyük bir dağıntı ilə nəticələnmişdir. Qasırğanın təsirilə 6 metr olan dalğalar minlərlə evi yerlə bir edərkən minə yaxın insanın da itməsinə səbəb olmuşdur. Beş milyon insana təsir edən bu qasırğa əsrin ən böyük fəlakətləri arasında sayılır.

**53. Şiddətli yağışların yağması:**

Salamat ev və daxma buraxmayan şiddətli yağışlar yağana qədər qiyamət qopmaz. (Qiyamət əlamətləri, səh. 253)

Yağışın çoxalması, otların azalması... qiyamətin yaxınlaşmasındandır. (Qiyamət əlamətləri, səh. 137)

Göydən şiddətli yağış yağıb daş binalar xaric, bütün kərpic evlər yıxılmadıqca qiyamət qopmaz. (Əhməd bin Hənbəl, Müsnəd 13/291, hədfis nömrə 7554)

Xüsusilə son vaxtlarda sel basqınları, dünyanın müxtəlif bölgələrində əhəmiyyətli nisbətdə can və mal itkisinə səbəb olmuşdur. Keçdiyimiz illərdə Avropada meydana gələn sel basqınları bunun bir nümunəsidir. Haradasa bütün Avropanı təsiri altına alan şiddətli yağışlar çayların daşmasına səbəb olmuş, böyük Avropa şəhərlərində də bir çox bölgə sular altında qalmışdır.

2002-ci ildə Hindistan, Nepal və Banqladeşdə iki ay təsirini davam etdirən musson yağışlarının səbəb olduğu fəlakətlərdə ölənlərin sayı isə təxminən 900 olmuşdur. Çində isə 2002-ci ilin avqust ayında şiddətli yaz yağışları, sel və torpaq sürüşməsi nəticəsində ölənlərin sayı 1000-ə çatmışdır. 2002-ci ildə Avropada yaşanan sel basqınlarının ardından 2006-cı ildə də sellər Macarıstanda 32000 adamın ölümünə səbəb olmuş, Ruminya, Serbiya, Çex Respublikası, Slovakiya kimi bir çox Avropa ölkəsini təsiri altına almışdır. İndoneziyanın paytaxtı Cakartada 2007-ci ildəki sellər minlərlə adamı evsiz qoyarkən, İngiltərədə 2007-ci il iyulda yağan yağışlar 1 milyon insanın zərər çəkdiyi sel fəlakətinə çevrilmişdir.

**54. İldırımların çoxalması:**

Qiyamətin yaxınlaşdığı zamanda ildırımlar o qədər çoxalacaq ki, insanlar (bir-birlərinə belə) deyəcəklər: "Dünən kimi ildırım vurdu?" Onlar da (belə) cavab verəcəklər: "Dünən filan (kəsləri) ildırım vurdu". (əl-Hakim, Müstədrək, 4/444)

... heyvanlarınızı ildırımlar yandırıb kömürə çevirəcək. (Naim bin Həmmad; Gələcəyin tarixi 4, səh. 69)

Hədisdə ifadə edildiyi kimi, ildırım düşməsi səbəbilə can və mal itkisinin artmasına son illərdə tez-tez rast gəlinir. Bu itkilər çox vaxt xəbərlərdə verilmir. 1998-ci ildə Konqoda futbol sahəsinə düşən ildırım nəticəsində sahədə oynayan 11 futbolçunun ölümü bu nümunələrdən biridir. Oxşar bir şəkildə 2001-ci ildə Meksikada futbol sahəsinə düşən ildırım səbəbilə də 6 nəfər həyatını itirmişdir. Bunların xaricində də ildırım düşmələri bir çox insanın həyatını itirməsinə və heyvanların tələf olmasına səbəb olmuşdur.

Çindəki məlumatlar isə ildırımların hər il diqqətə çarpan bir nisbətlə artdığını göstərir. 2003-cü ildə 7.625, 2004-cü ildə 8.892, 2005-ci ildə 11.026, 2006-cı ildə 19.982-ə yüksəlmiş və Çində yalnız 2006-cı ildə 717 adam ildırım vurması ilə həyatını itirmişdir.

**55. Yer çökmələrinin olması:**

(Qiyamət) əlamətlərinin ilki yer çökmələridir. (Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, səh. 518)

**56. Evlərin məzar olması:**

"İnsanlara ölüm gəlib evlər məzar olduğu zaman halın nə olar.", - deyə buyurdu. (Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, səh. 392, nömrə 726)

**57. Epidemioloji xəstəliklərinin artması:**

Vəba kimi epidemik xəstəliklər, yəni qoyunqıran deyilən heyvan xəstəliyi; ki, o sizi tutacaq... (Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, səh. 417, nömrə 761)

"... Qiyamət əvvəli altı (əlamət) sayımmı?" Dedim ki: "Onlar nələrdir, ya Rəsulullah?" O da belə buyurdu: "... Sizin aranızda xolera və şarbon kimi ölümcül iki xəstəlik yayılacaq". (Səhih Buxari; Gözlənən Mehdi, 3-cü nəşr, səh. 147)

Hazırki dövrdə tez-tez yeni və bilinməyən epidemik xəstəliklər ortaya çıxır. Son 20-30 il içində ən çox eşidilən epidemik xəstəliklərindən bir neçəsi AİDS, Sarsıt, Ebola, dəli dana və quş qripi kimi xəstəliklərdir. Bunların insanlar üçün nə qədər böyük təhlükə törətdiyi məlumdur.

**58. İnsanların bir-birindən qaçması:**

"Ey Allahın elçisi, Ahlas fitnəsi nədir?" "Qaçışmaq (yəni insanlar arasındakı həddindən artıq düşmənliklərdən ötrü bir-birlərinə etibar edə bilmədikləri üçün bir-birlərindən qaçışmaları) və insanların mallarının talan edilməsidir", - buyurdu. (Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, səh. 386, nömrə 714)

Hədisdə insanların etibarsızlıq və qorxu səbəbilə bir-birlərindən qaçmalarına diqqət çəkilir. Bununla, yurdlarından köç etmək məcburiyyətində qalan insanlara işarə edilir. Həqiqətən də qarşıdurmalar səbəbilə evlərini tərk edən, müharibələr üzündən torpaqlarından çıxarılan insanların sayı 20-ci əsrin başlarından etibarən çox artmışdır.

Xüsusuilə son 20-30 ildə bu artım diqqət çəkici bir rəqəmə çatmışdır. 2001-ci ildə təxminən 23 milyon olan dünyadakı mühacirlərin sayı 2002-ci ildə demək olar ki, 30 milyona çatmışdır.

**59. "Yaxşılığı əmr edib pislikdən çəkindirmək" ibadətinin tərk edilməsi:**

Yaxşılıq tərk edilib əmr edilmədiyində, pislik işləndiyində qiyamət yaxınlaşmış olacaq. (Ölüm, qiyamət və diriliş, səh. 480)

Qiyamət yaxınlaşar, xeyirli işlər azalar. (Qiyamət əlamətləri, səh. 264)

**60. Aclıq və kasıblığın artması:**

Aclıq və bahalıq çox yayılacaq. (Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, İmam Şarani, səh. 440)

Kasıblar çoxalacaq. (Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, səh. 455)

Dəccalın zühurundan üç il əvvəl son dərəcə böhranlı günlər olacaq, aclıq hökm sürəcək. (Qiyamət əlamətləri, səh. 220)

Bu gün dünyanın dörd tərəfində yemək-içməkdən məhrum, çətin şəraitdə yaşayan, sığınacaq tapa bilməyən insanlar var. Belə hallara Afrika, Asiya və Cənubi Amerika başda olmaqla Amerika və Avropa ölkələrində də çox rast gəlinir. İnsanların kiçik hissəsi rifah içində yaşayarkən, 2 milyarda yaxın insan acdır. Birləşmiş Millətlər qaynaqları göstərir ki, 1960-cı ildə dünya əhalisinin ən kasıb 20%-i ilə ən zəngin 20%-i arasındakı gəlir nisbəti 1-ə 30 ikən, 1995-də 1-ə 82 olmuşdur. İctimai ədalətin azalmasına bir nümunə də dünyada ən varlı 225 nəfərin sərvətinin dünya əhalisinin 47%-nin illik gəlirinə bərabər olmasıdır.

**61. Zəkatın tərk edilməsi:**

Zəkat (ibadət kimi deyil) cəza kimi alındığı zaman. (Tirmizi, Fitən: 39, 2211)

O zaman zəkat cəza olaraq və xərac da qənimət olaraq məcbur alınacaq. (Fəraidu-fəvaidil-fikir fil İmam əl-Mehdi əl-Müntəzər; Gözlənilən Mehdi, 3-cü nəşr, səh. 146-147)

Kasıbların və ehtiyac içində olanların qorunması din əxlaqının gərəklərindən biridir. Allah iman edənlərə ehtiyac içində olanlara sədəqə verməyi, onların ehtiyaclarını qarşılayıb aradan qaldırmağı və onları qorumağı əmr etmişdir. Din əxlaqının yaşandığı cəmiyyətlərdə bu əxlaqın gərəyi olan ictimai köməkləşmə yaşandığı üçün kasıblıq problemi təbii olaraq ortadan qalxır. Axır zamanda isə insanların din əxlaqından uzaqlaşmalarının nəticələrindən biri olaraq zəkat və sədəqə vermək demək olar ki, tamamilə ortadan qalxar.

**62. Cinayətlərin çoxalması:**

... Cinayətlər çoxalmadıqca qiyamət qopmaz. (Buxari, İbni Macə, Qiyamət əlamətləri, səh. 108)

... İnsanlar elə günlər görəcək ki, qatil nə üçün öldürdüyünü, ölən də nə üçün öldürüldüyünü bilməyəcək. (Müslim, Fitən: 56, (2908))

... Fitnələr və cinayətlərin çoxalması. (Kitabül-bürhan fi əlamətil-Mehdiyyil-axır zaman, səh. 39)

**63. İntihar hadisələrinin artması:**

İnsanlar öz canlarına qıyarlar və dünyanı bəlalar bürüyər. (Ölüm-Qiyamət-Axirət və axır zaman əlamətləri, səh. 482, nömrə 901; Kitabi-Nihayə, İbn Kəsir, 1/131)

**64. Əxlaqsızlığın olması:**

Rəsulullah (s.ə.s.) (bir gün): "Gəncləriniz fisqə düşdüyü zaman halınız nə olar?", - deyə soruşmuşdu. (Kutubi-Sittə, hədis nömrə: 4752; Heysəmi, Məcmaus-Zəvaid də qeyd etmişdir. (7, 281))

Fahişəlik açıq olmadan... qiyamət qopmaz. (Ramuz əl-hədis, 91/7)

İnsanlar üzərinə elə bir zaman gələr ki, onların üzləri insan üzü, ürəkləri şeytan ürəyidir. Qan tökərlər, çirkin əməllərdən qaçmazlar. Əgər sən onlara tabe olsan, səni güdərlər. Əgər sən onlara etibar etsən, sənə xəyanət edərlər. Onların uşaqları əxlaqsız, gəncləri arsız olar. Yaşlıları isə bilinəni (yaxşılığı) əmr etməz, münkəri (pisliyi) nəhy etməz (çəkindirməz). (Xatib; Gələcəyin tarixi 1, səh. 23)

**65. Zinanın artması:**

Zinanın çoxalması qiyamət əlamətlərindəndir. (Buxari, Təcrid: 1/16)

**66. İqtisadiyyatda pozulma və ictimai ədalətsizliklər olması:**

İnsanlar 95-ci ilə qədər malik olacaq, yəni işləri yaxşı gedəcək, 97 və ya 99-cu ildə mülkləri zail olacaq... (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 545)

Hədisdəki "95-ci il" şəklindəki ifadə ilə 1995-ci ilə diqqət çəkilə bilər. 1995-ci il insanların nisbətən daha xöşbəxt yaşadıqları, həyat imkanlarının çox çətinləşmədiyi dövrdür. Necə ki, hədisdə bu il içində "işlərin yaxşı gedəcəyi" xəbər verilir. Yəni bu dövrdə insanlar həyatlarını gözəl yaşaya biləcək gəlirə sahibdirlər və hələ mülk əldə edə biləcək qədər zəngindirlər. Ancaq 1997-1999-cu illər iqtisadiyyatın çox pisləşdiyi, kasıblığın və yoxsulluğun artdığı dövrdür. Bu illər arsında malın və mülkün dəyəri qalmamışdır. Yaxın keçmişdə Argentina nümunəsində də (2001-ci ildə Argentina iqtisadiyyatı müflisləşmişdir) göründüyü kimi, hədisdə bildirilən bu hadisə reallaşmışdır.

Axır zamandakı iqtisadi vəziyyətlə əlaqədar verilən xəbərlərdən biri də qazancın azalmasıdır:

Hər kəsin az qazancdan şikayətlənməsi... Pulları üçün zənginlərə hörmət edilməsi... (Qiyamət əlamətləri, səh. 146)

Bazarın durğun olması, qazancların azalması... (Qiyamət əlamətləri, səh. 148)

Hədislərdə bildirildiyinə görə, axır zamanda iqtisadi pozulmalarla birlikdə ictimai ədalətsizliklər də yaşanacaq, milli sərvətlər bərabər çəkildə paylanmayacaq:

"... On beş şeyi etməyə başlayınca ona böyük bəlanın gəlməsi vacib olar!", buyurmuşlar. (Yanındakılar:) "Ey Allahın elçisi! Bunlar nələrdir?", - deyə soruşdular. Allah Rəsulu saydı: "Qənimət (yəni milli sərvət, kasıblara çatmadan yalnız zəngin və mövqe sahibi olanlar arasında) tədavül edən (gəzən) bir əmtəə halına gələrsə". (Tirmizi, Fitən: 39, (2211))

Peyğəmbərimizin (s.ə.s.) qiyamət əlaməti olaraq xəbər verdiyi bu vəziyyət hazırda dünyada geniş şəkildə yaşanır. Bu gün dünyanın ən zəngin insanları dünyadakı zənginliklərin böyük bir qismini idarə edərkən milyardlarla insan da kasıblıq və aclıq içində yaşayır. Afrika qitəsindəki milyonlarla insanın yaşadığı aclıq və səfalət bütün dünyanın gözləri önündədir.

**67. İctimai pozulmaların olması:**

"... İnsanların ixtilaf və sarsıntılar içində olduqları zaman..." (Ramuz əl-hədis, 7/7)

İctimai pozulmanın ən əsas göstəricilərindən biri də qanunlara zidd davranışlardakı böyük artımdır. Cinayət nisbətlərindəki artım son dərəcə böyük

ölçülərə çatmışdır. Birləşmiş Millətlər Beynəlxalq Cinayət Tədbir Mərkəzinin hazırladığı "Universal Cinayət və Ədalət Hesabatı" bütün dünya ölkələrini əhatə edən bu ümumiləşdirmələri ehtiva edir:

-Təxmini olaraq, cinayət nisbətləri 1980-ci ildə olduğu kimi, 1990-cı ildə yüksəlməyə davam edir. Dünyanın harasında olursa olsun, beş illik bir periodda böyük şəhərlərin sakinlərinin üçdə ikisi ən az bir dəfə cinayət sayılan hərəkətlərin hədəfi olur.

- Ciddi cinayətlərin hədəfi olma ehtimalı (soyğun, cinsi cinayətlər, hücum) beşdə birdir.

-Bölgə ayrı-seçkiliyi olmadan gənclər kateqoriyasındakı mülkiyyətə və insanlara yönəlmiş cinayətlər hər ikisi də iqtisadi problemlərlə əlaqədardır.

-Son illərdə qeyri-qanuni narkotik maddə növləri artmış və xüsusiyyət olaraq da növlərə ayrılmışdır.

**68. Ömürlərin uzanması:**

Onun zamanında... ömürlər uzanacaq. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 43)

Dövrümüzdə uzun ömür yaşayanlar keçən dövrlərə nisbətən artmışdır. Hətta 20-ci əsrin əvvəlləri ilə sonları arasında da böyük fərq vardır. Məsələn, 1995-ci ildə doğulan uşağın 1900-cu illərdə doğulmuş birinə görə təxminən 35 il daha uzun yaşayacağı təxmin edilir.

**69. Çöllərin yaşıllaşdırılması:**

Ərəbistanda da çaylar və bağçalar meydana gəlmədikcə qiyamət qopmaz. (Əhməd bin Hənbəl, Müsnəd, 17/22, hədis nömrə: 8819)

Hazırki dövrdə suyun səmərəsiz səhra torpaqlarına qədər çatdırılması ilə ən quraq torpaqlarda belə məhsul istehsal olunur. Bunun üçün, ən səmərəli texnologiyalardan biri kompyuter sistemi ilə aparılan sulamadır. Bu texnologiya ilə suyun istiqaməti bitkilərin köklərinə yönləndirilir, tək bir damla su belə israf edilmir. Hər cür suyun təmizlənərək istifadəyə verilməsi də çöl əkinçiliyində çox əhəmiyyətli bir məsələdir. Sel və dəniz sularının sürətli bir şəkildə istifadəyə verilməsi əkinçilik texnologiyasının təməlini təşkil edir. Bu şəkildə çox geniş su qaynağı təmin edilir və ölkə iqtisadiyyatlarına böyük dəstək verilir. Peyğəmbərimiz (s.ə.s.) hədislərində suyun məhsuldar şəkildə istifadə edilməsinə də işarə etmişdir:

... ümmətin istər yaxşıları və istərsə də pisləri misli əsla görünməmiş şəkildə bir çox nemətlərə sahib olacaq. Çox yağış yağmasına baxmayaraq, bir damlası belə boşa getməyəcək, torpaq toxum istəmədən məhsuldar və bərəkətli olacaq. (Əl-qövlül-müxtəsər fi əlamətil-Mehdiyyil-müntəzər, səh. 23)

**70. İnsan qamçısının ucu ilə və öz səsi ilə danışması:**

İnsana qamçısının ucu danışmadıqca qiyamət qopmaz. (Ölüm, qiyamət və diriliş, səh. 471)

Qamçı bilindiyi kimi, qədim əsrlərdə xüsusilə at, dəvə kimi minik heyvanlarını sürərkən geniş şəkildə isitifadə edilmiş bir vasitədir. Yuxarıdakı hədis araşdırıldığında Peyğəmbərimizin (s.ə.s.) bu sözləri ilə bir bənzətmə etdiyi aydın olur. Müasir dövrdə "qamçının şəklinə bənzədə biləcəyimiz və danışan obyekt nədir?", - deyə soruşsaq, bu sualın ən məntiqli cavabı antenaları ilə diqqət çəkən kabelsiz telefonlar, cib telefonu və ya buna bənzər ünsiyyət vasitələri olacaq. Müasir texnologiyanın məhsulu olan bu cihazlar sahib olduqları qamçıya bənzər antenalarla diqqət çəkirlər.

İnsana (öz) səsi danışmadıqca... qiyamət qopmaz. (Ölüm, qiyamət və diriliş, səh. 471)

Şübhəsiz, insan öz səsini eşitmək üçün əvvəlcə səsini yazmalı və sonra da dinləməlidir. Səsyazma və reproduksiya texnologiyası da 20-ci əsrin kəşflərindəndir. Bu, elmi dönüş nöqtəsi olmuş, xəbərləşmə və media sektorlarının yaranmasına vəsilə olmuşdur. Səsyazma xüsusilə kompyuter və lazer texnologiyalarının inkişafı ilə ən mükəmməl vəziyyətdədir.

Qısası, müasir elektronik alətlər, mikrofon və dinamiklər səsin yazılması və dinlənməsinə imkan yaradır və bizlərə yuxarıdakı hədisin verdiyi xəbərin təcəlli etdiyini göstərir.

## Nəticə:

## Allah vədindən dönməz

Hz. Mehdinin gəlişi ibrahimi dinlərin tarixində hər zaman əhəmiyyətli bir yer tutmuşdur. Hər dinin öz müqəddəs qaynaqlarında xüsusiyyətləri, köməkçiləri, dövrünün xüsusiyyətləri və görəcəyi işlərlə ətraflı şəkildə təsvir edilən hz. Mehdinin gəlişi iman edənlər arasında müjdə səbəbidir.

Mehdinin (ə.s.) ortaya çıxmasının çox yaxın olduğunu isə bu əlamətlərin davamlı olaraq bir-birinin ardınca yaşanmasından anlaya bilirik. Fitnə-fəsadın, qarşıdurma və müharibələrin, əxlaqsızlıq və dinsizliyin heç bir dövrdə olmadığı

qədər yayılması və sanki son nöqtəsinə çatması hz. Mehdinin çıxışının an məsələsi olduğunu göstərir. Yaşanan bütün bu mənfi hallar suyun alovu söndürdüyü kimi hz. Mehdinin çıxışı ilə sona çatacaq və Allah, şübhəsiz, möminləri **"... dünyada güc və iqtidar sahibi edəcək, özləri üçün seçib bəyəndiyi dinlərini özlərinə məskun edib sağlamlaşdıracaq". (Nur surəsi, 55)**

Hz. Mehdi ilə eyni dövrdə dünyaya ikinci dəfə gələcək olan hz. İsa isə xüsusilə xristian və yəhudi dünyasına xitab edəcək, onları içində olduqları xurafatlardan çəkindirib Quran əxlaqını yaşamağa dəvət edəcək. Xristianların hz. İsaya tabe olması ilə islam və xristian aləmi islam inancında birləşəcək və insanlar hər üç ibrahimi dinin müqəddəs kitablarında (Quranda, Tövrat və İncildə) vəd edildiyi kimi, dünyanın hər yerinə hakim olacaq iman, sülh, etibar və rifah mühitində yaşayacaqlar.

Bu dəyişikliyə qarşı mübarizə aparanlar isə qədərlərindəki məğlubiyyətə şahid olacaqlar.

**(Allah bununla) günahkarların xoşuna gəlməsə də, haqqı bərqərar etmək və batili yox etmək istəyirdi. (Ənfal surəsi, 8)** ayəsində bildirdiyi kimi, qəti şəkildə Allahın istədiyi olacaq. Din əxlaqının yayılmasına müqavimət göstərənlərin vəziyyəti Quranda belə açıqlanır:

**Kafirlərin əməlləri ucsuz-bucaqsız çöldəki ilğıma bənzər ki, susuzluqdan ürəyi yanan onu su bilər. Nəhayət, gəlib ona yetişdiyi zaman onun heç nə olduğunu görər. O, öz əməlinin yanında ancaq Allahın cəzasını tapar. (Allah da) onun cəzasını verər. Allah tezliklə haqq-hesab çəkəndir. (Nur surəsi, 39)**

Hz. Mehdinin vəsiləsilə imana yönələcək və onun liderliyində Qızıl əsri yaşayacaq insanlar Allahın iznilə şərəfli bir dövrə şahid olacaqlar. Bolluğu, bərəkəti, rahatlıq və hüzurlu mühiti ilə hər müsəlmanın yaşamaq istədiyi bu dövr iman edənlər üçün dünya həyatında üstün mükafatdır. Qızıl əsrdə anarxiya, terror, qarışıqlıq və düşmənçiliyin tamamilə ortadan qalxması nəticəsində yaşanacaq rahat həyatla insanlar dünyada cənnətə bənzər bir mühitə qovuşacaqlar.

Allahın möminlərə bu lütfü, Quranda **"Hər kəs Allahı, Onun peyğəmbərlərini və iman gətirənləri özünə dost tutarsa, (hər iki dünyada işləri yaxşı gedər). Şübhəsiz ki, qələbə çalanlar məhz Allahın firqəsidir. (Maidə surəsi, 56)** ayəsi ilə bildirdiyi kimi, Rəbbimizin bir vədidir. Və digər bir ayədə belə deyilir: "**... Allah vədindən geri dönməz..." (Rum surəsi, 9).** Bir başqa Quran ayəsində isə Rəbbimiz belə buyurur: **Şübhəsiz, sizə vəd edilən reallaşacaq. (Mürsəlat surəsi, 7)**

## Təkamül yalanı

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini rədd etmək məqsədi ilə ortaya atılan, lakin müvəffəqiyyətli ola bilməyən və elmdən kənar olan mənasız fikirdən başqa bir şey deyil. Canlının cansız maddələrdən təsadüfən meydana gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çoxlu möcüzəvi nizam olduğunun elm tərəfindən isbat edilməsilə dəlilsiz hala gəlmişdir. Beləcə, Allahın bütün kainatı və canlıları yaratdığı həqiqəti elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsinə dəstək olmaq üçün dünya səviyyəsində aparılan təbliğat yalnız elmi həqiqətlərin təhrif edilməsinə, tərəfli şərh olunmasına, elm adı altında deyilən yalanlara və  edilən saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti  gizləyə bilmir. Təkamül nəzəriyyəsinin elm tarixinin ən böyük yalanı olduğu son 20-30 ildə elm dünyasında getdikcə daha yüksək səslə dilə gətirilir. Xüsusilə  1980-ci illərdən sonra aparılan araşdırmalar darvinist iddiaların tamamilə səhv olduğunu ortaya qoymuş və bu həqiqət bir çox alim tərəfindən də dilə gətirilmişdir. Xüsusilə  ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrdən olan çoxlu sayda tədqiqatçı alim darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılış həqiqəti ilə açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutunu və yaradılışın dəlillərini digər bir çox əsərlərimizdə bütün elmi detalları ilə göstərdik və göstərməyə davam edirik. Ancaq mövzunu daşıdığı böyük əhəmiyyət səbəbilə burada da yekunlaşdırmaqda fayda vardır.

### Darvini yıxan çətinliklər

Təkamül nəzəriyyəsi tarixinin qədim yunanlara qədər gedib çıxan bir nəzəriyyə olmasına baxmayaraq, əhatəli olaraq 19-cu əsrdə ortaya atıldı. Nəzəriyyəni elm dünyasının gündəliyinə gətirən ən əhəmiyyətli yenilik Çarlz Darvinin 1859-cu ildə nəşr olunan "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı fərqli canlı növlərinin Allahın ayrı-ayrı yaratdığı həqiqətinə qarşı çıxırdı. Darvinə görə, bütün növlər ortaq bir atadan gəlirdilər və zamanla kiçik dəyişmələrlə fərqliləşiblər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, yalnız bir "məntiq irəli sürmək" idi. Hətta Darvinin kitabındakı "Nəzəriyyənin çətinlikləri" başlıqlı uzun hissədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox əhəmiyyətli suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin önündəki çətinliklərin inkişaf edən elm tərəfindən aşılacağını, yeni elmi tapıntıların nəzəriyyəsini gücləndirəcəyini ümid edirdi. Bunu kitabında tez-tez ifadə etmişdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin təməl iddialarını bir-bir əsassız etmişdir.

Darvinizmin elm qarşısındakı uduzması üç təməl başlıqda araşdırıla bilər:

1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını heç cür açıqlaya bilmir.

2) Nəzəriyyənin qarşıya qoyduğu "təkamül mexanizmləri"nin, həqiqətdə təkmilləşdirici bir təsirə sahib olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

3) Fosil (qalıq) qeydləri təkamül nəzəriyyəsinin nəzərdə tutduqlarının tam əksi olan bir cədvəl ortaya qoyur.

Bu hissədə bu üç təməl başlığı ana xətləri ilə araşdıracağıq.

**Keçilə bilməyən ilk pillə:**

**Həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl ibtidai dünyada ortaya çıxan tək bir canlı hüceyrədən gəldiyini iddia edir. Tək bir hüceyrənin necə oldu ki, milyonlarla kompleks canlı növünü meydana gətirdiyi və əgər həqiqətən bu cür təkamül reallaşmışdırsa, niyə bunun izlərinin fosil qeydlərində olmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül müddətinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Haqqında danışılan o "ilk hüceyrə" necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı rədd etdiyi və heç bir fövqəltəbii müdaxiləni qəbul etmədiyi üçün, o "ilk hüceyrə"nin heç bir məqsəd, plan və tənzimləmə olmadan təbiət qanunları içində təsadüfi olaraq meydana gəldiyini iddia edir. Yəni nəzəriyyəyə görə, cansız maddə təsadüflər nəticəsində ortaya canlı bir hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən fundamental biologiya qanunlarına zidd bir iddiadır.

**"Həyat həyatdan gəlir"**

Darvin kitabında həyatın mənşəyi mövzusundan heç danışmamışdı. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə bir quruluşa sahib olduğunu fərz edirdi. Orta əsrlərdən bəri insanların inandığı "öz-özünə törəyən nəsil" adlı nəzəriyyəyə görə, cansız maddələrin təsadüfən bir yerə gəlib canlı bir varlıq meydana gətirə biləcəyinə inanırdılar. Bu dövrdə böcəklərin yemək artıqlarından, siçanların da buğdadan meydana gəldiyi məşhur bir düşüncə idi.

Bunu isbat etmək üçün  maraqlı təcrübələr aparılmışdı. Çirkli bir əskinin üzərinə bir az buğda qoyulmuş və bir az gözlədikdə bu qarışıqdan siçanların meydana gələcəyi zənn edilmişdi.

Ətlərin qurdlanması da həyatın cansız maddələrdən törəyə bildiyinə bir dəlil sayılırdı. Halbuki daha sonra aydın olacaqdı ki, ətlərin üzərindəki qurdlar öz-özlərinə meydana gəlmirlər, ağcaqanadların gətirdiyi gözlə görünməyən sürfələrdən çıxırdılar.

Darvinin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən meydana gəldiyi inancı elm dünyası tərəfindən qəbul edildi.

Halbuki Darvinin kitabının nəşr olunmasından beş il sonra məşhur fransız bioloq Luis Pastor təkamülə əsas təşkil edən bu inancı qəti olaraq təkzib etdi. Pastor apardığı uzun təcrübələr nəticəsində aldığı nəticəni belə yekunlaşdırmışdı:

Cansız maddələrin həyat meydana gətirə biləcəyi iddiası artıq qəti olaraq tarixə basdırılmışdır.[1]

Təkamül nəzəriyyəsinin müdafiəçiləri Pastorun tapıntılarına qarşı uzun müddət müqavimət göstərdilər. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin kompleks quruluşunu ortaya çıxardıqca həyatın öz-özünə meydana gələ biləcəyi iddiasının əsassızlığı daha da aydınlaşdı.

**20-ci əsrdəki nəticəsiz səylər**

20-ci əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə ortaya atdığı bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini isbat etməyə çalışdı. Ancaq bu işlər müvəffəqiyyətsizliklə nəticələnəcək və Oparin bu etirafı etmək məcburiyyətində qalacaqdı:

Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamını əhatə edən ən qaranlıq nöqtəni meydana gətirir.[2]

Oparinin yolunu izləyən təkamülçülər həyatın mənşəyi mövzusunu həll edəcək təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stanley Miller tərəfindən 1953-cü ildə təşkil edildi. Miller ibtidai Yer atmosferində olduğunu iddia etdiyi qazları bir təcrübə qurğusunda birləşdirib və bu qarışığa enerji əlavə edib proteinlərin quruluşunda istifadə edilən bir neçə orqanik molekul (aminoasid) sintez etdi.

O illərdə təkamül adına əhəmiyyətli bir mərhələ kimi tanıdılan bu təcrübənin əsaslı olmadığı və təcrübədə istifadə edilən atmosferin həqiqi dünya şərtlərindən çox fərqli olduğu növbəti illərdə ortaya çıxacaqdı.[3]

Uzun sürən səssizlikdən sonra Millerin özü də istifadə etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi.[4]

Həyatın mənşəyi problemini açıqlamaq üçün 20-ci əsr boyu aparılan bütün təkamülçü səylər davamlı olaraq müvəffəqiyyətsizliklə nəticələndi. San Diego Scripps institutundan məşhur geokimyaçı Jefrey Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə nəşr olunan bir məqalədə bu həqiqəti belə qəbul edir:

Bu gün 20-ci əsri geridə qoyarkən hələ 20-ci əsrə girdiyimizdə sahib olduğumuz ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: Həyat yer üzündə necə başladı.[5]

**Həyatın kompleks quruluşu**

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi mövzusunda belə böyük çətinliyə düşməsinin başlıca səbəbi ən sadə zənn edilən canlı quruluşların inanılmaz dərəcədə kompleks quruluşlara sahib olmasıdır. Canlı hüceyrəsi insanların düzəltdiyi bütün texnoloji məhsullardan daha kompleksdir. Belə ki, bu gün dünyanın ən inkişaf etmiş laboratoriyalarında belə cansız maddələr bir yerə gətirilərək canlı bir hüceyrə çıxarıla bilmir.

Bir hüceyrənin meydana gəlməsi üçün lazım olan şərtlər əsla təsadüflərlə açıqlana bilməyəcək qədər çoxdur. Hüceyrənin ən fundamental quruluş maddəsi olan proteinlərin təsadüfi olaraq sintez edilmə ehtimalı 500 aminoasidlik orta hesabla bir protein üçün 10950/1-dir. Ancaq riyaziyyatda 1050/1-dən kiçik ehtimallar praktik olaraq qeyri-mümkün sayılır. Hüceyrənin nüvəsində yerləşən və genetik məlumatı saxlayan DNT molekulu isə inanılmaz bir məlumat bankıdır. İnsan DNT-sinin ehtiva etdiyi məlumatın kağıza köçürüldüyü təqdirdə 500 səhifədən ibarət 900 cildlik bir kitabxana meydana gətirəcəyi hesablanmışdır.

Bu nöqtədə çox maraqlı bir dilemma əlavə var: DNT yalnız bəzi xüsusiləşmiş proteinlərin (fermentlərin) köməyi ilə cütləşə bilər. Amma bu fermentlərin sintezi də ancaq DNT-dəki məlumatlar yönündə reallaşır. Bir-birindən asılı olduqlarından cütləşmənin meydana gəlməsi üçün ikisi də eyni anda mövcud olmalıdırlar. Bu isə həyatın öz-özünə meydana gəldiyi ssenarisini çarəsiz vəziyyətə salır. San Diego California universitetindən məşhur təkamülçü professor Lesley Orqel "Scientific american" jurnalının oktyabr, 1994 tarixli sayında bu həqiqəti belə etiraf edir:

Son dərəcə kompleks quruluşlara sahib olan proteinlərin və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfi olaraq meydana gəlmələri

həddindən artıq ehtimaldan kənardır. Amma bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Dolayısı ilə, insan həyatın kimyəvi yollarla ortaya çıxmasının əsla mümkün olmadığı nəticəsinə gəlmək məcburiyyətində qalır.[6]

Şübhəsiz, əgər həyatın təbii amillərlə ortaya çıxması qeyri-mümkündürsə, bu vəziyyətdə həyatın fövqəltəbii bir şəkildə yaradıldığını qəbul etmək lazımdır. Bu həqiqət əsas məqsədi yaradılışı rədd etmək olan təkamül nəzəriyyəsini açıq şəkildə əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvin nəzəriyyəsini əsassız edən ikinci böyük nöqtə nəzəriyyənin "təkamül mexanizmləri" olaraq qarşıya qoyduğu iki anlayışın həqiqətdə heç bir təkmilləşdirici gücə sahib olmadığının aydınlaşmasıdır. Darvin ortaya atdığı təkamül iddiasını tamamilə "təbii seleksiya" mexanizminə bağlamışdı. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə aydın olurdu: Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...

Təbii seleksiya təbii seçmə deməkdir. Təbiətdəki həyat mübarizəsində təbii şərtlərə uyğun və güclü canlıların həyatda qaldığı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhdid edilən bir maral sürüsündə daha sürətli qaçan marallar həyatda qalır. Beləcə, maral sürüsü sürətli və güclülərdən meydana gəlir. Amma, əlbəttə, bu mexanizm maralları təkmilləşdirməz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Dolayısı ilə, təbii seleksiya mexanizmi heç bir təkmilləşdirici gücə sahib deyil. Darvin də bu həqiqətin fərqində idi və "Növlərin mənşəyi" adlı kitabında: "faydalı dəyişikliklər meydana gəlmədiyi müddətdə təbii seleksiya heç bir şey edə bilməz",- demək məcburiyyətində qalmışdı.[7]

### Lamarkın təsiri

Bəs bu "faydalı dəyişikliklər" necə meydana gələ bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı içində bu sualı Lamarka əsaslanıb cavablandırmağa çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar yaşayış dövrlərində keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə köçürürlər və nəsildən nəslə yığılan bu xüsusiyyətlər nəticəsində yeni növlər ortaya çıxırdı. Məsələn, Lamarka görə, zürafələr ceyranlardan törəmişdir, yüksək ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən nəslə boyunları uzanmışdı.

Darvin də bənzəri nümunələr vermiş, məsələn, "Növlərin mənşəyi" adlı kitabında yemək tapmaq üçün suya girən bəzi ayıların zamanla balinalara çevrildiyini iddia etmişdi.[8]

Amma Mendelin kəşf etdiyi və 20-ci əsrdə inkişaf edən genetika elmi ilə dəqiqləşən irsilik qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə köçürülməsi əfsanəsini qəti

olaraq rədd etdi. Beləcə, təbii seleksiya "özbaşına" və dolayısı ilə, tamamilə təsirsiz bir mexanizm olaraq qalırdı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər bu vəziyyətə bir həll tapa bilmək üçün 1930-cu illərin sonlarında "Müasir sintetik nəzəriyyə"ni və ya daha məşhur adı ilə desək, neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seleksiyaya "faydalı dəyişiklik səbəbi" olaraq mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici təsirlər və ya köçürmə səhvləri nəticəsində yaranan pozulmaları əlavə etdi.

Bu gün də hələ dünyada təkamül adına əsaslılığını qoruyan model neodarvinizmdir. Nəzəriyyə Yer üzündəki milyonlarla canlı növünün bu canlıların qulaq, göz, ağciyər, qanad kimi saysız kompleks orqanlarının "mutasiyalara", yəni genetik pozulmalara əsaslanan müddət nəticəsində meydana gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz duruma salan açıq bir elmi həqiqət vardır: Mutasiyalar canlıları inkişaf etdirməzlər, əksinə, həmişə canlılara zərər verərlər.

Bunun səbəbi çox sadədir: DNT çox kompleks bir quruluşa malikdir. Bu molekul üzərində yaranan hər hansı bir təsadüfi təsir ancaq zərər verər. Amerikalı genetik B.G.Ranganathan bunu belə açıqlayır:

Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir hallarda meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamüli inkişaf meydana gətirə bilməyəcəyini göstərir. Onsuz da yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələ biləcək təsadüfi bir dəyişmə ya təsirsizdir, ya da zərərlidir. Bir qol saatında meydana gələn təsadüfi dəyişmə qol saatını inkişaf etdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsirsiz olar. Bir zəlzələ bir şəhəri inkişaf etdirməz, onu dağıdar.[9]

Necə ki, bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı inkişaf etdirən mutasiya nümunəsi müşahidə edilməmişdir. Bütün mutasiyaların zərərli olduğu görülmüşdür. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin "təkamül mexanizmi" olaraq göstərdiyi mutasiyalar həqiqətdə canlıları yalnız korlayan, şikəst edən genetik hadisələrdir. (İnsanlarda mutasiyanın ən çox görünən təsiri xərçəngdir). Əlbəttə, korlayıcı bir mexanizm "təkamül mexanizmi" ola bilməz. Təbii seleksiya isə Darvinin də qəbul etdiyi kimi, "özbaşına heç bir şey edə bilməz". Bu həqiqət bizlərə təbiətdə heç bir "təkamül mexanizmi"nin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə də təkamül deyilən xəyali müddət yaşana bilməz.

**Fosil qeydləri:**

**Ara nümunələrin izi yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin yaşanmadığının ən açıq göstəricisi isə fosil (qalıq) qeydləridir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəmişlər. Əvvəldən var olan bir canlı növü zamanla bir başqasına çevrilmiş və bütün növlər bu şəkildə ortaya çıxmışlar. Nəzəriyyəyə görə, bu çevrilmə yüz milyonlarla il davam edən uzun zaman kəsiyini əhatə etmiş və addım-addım irəliləmişdir.

Bu vəziyyətdə iddia edilən uzun çevrilmə müddətində saysız "ara növlər" meydana gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən xüsusiyyətləri qazanan yarı balıq, yarı sürünən canlılar yaşamalıdır. Yaxud sürünən xüsusiyyətlərini daşıyarkən bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanan sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçiş müddətində olduqları üçün şikəst və qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadıqlarına inandıqları bu nəzəri varlıqlara "ara keçid nümunəsi" adını verirlər.

Əgər həqiqətən bu cür canlılar keçmişdə yaşamışdırsa, bunların sayı və növləri milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların fosillərinə mütləq fosil qeydlərində rast gəlinməldir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birinə bağlayan saysız ara keçid növləri mütləq yaşamalıdır... Bunların yaşadıqlarının dəlilləri də yalnız fosil qalıqları arasında ola bilər.[10]

**Darvinin puç olan ümidləri**

Ancaq 19-cu əsrin ortalarından bu yana dünyanın dörd tərəfində çoxlu fosil araşdırmaları aparıldığı halda, keçiş nümunələrinə rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və araşdırmalarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə qüsursuz və nöqsansız şəkildə ortaya çıxdığını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek W.Ager bir təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

Problemimiz budur: Fosil qeydlərini detallı olaraq araşdırdığımızda istər növlər, istərsə də siniflər səviyyəsində olsun davamlı olaraq eyni həqiqətlə qarşılaşırıq; pilləli təkamüllə inkişaf edən deyil, birdən-birə yer üzündə yaranan qruplar görürük.[11]

Yəni fosil qeydlərində bütün canlı növləri arasında heç bir keçiş nümunəsi olmadan qüsursuz şəkilləri ilə birdən-birə ortaya çıxırlar. Bu, Darvinin nəzərdə tutduğunun tam əksinədir. Əlavə də bu canlı növlərinin yaradıldıqlarını göstərən

çox güclü bir dəlildir. Çünki bir canlı növünün öz-özünə təkmilləşən heç bir atası olmadan bir anda və qüsursuz olaraq ortaya çıxmasının tək izahı o növün yaradılmış olmasıdır. Bu həqiqət məşhur təkamülçü bioloq Douglas Futuyma tərəfindən də qəbul edilir:

Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında verilə biləcək yeganə iki açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və qüsursuz bir şəkildə ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişmə müddəti sayəsində özlərindən əvvəl var olan bəzi canlı növlərindən təkmilləşərək meydana gəlməlidirlər. Amma əgər qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxmışlarsa, o halda, sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmış olmalıdırlar.[12]

Fosillər isə canlıların yer üzündə qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin zənn etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsini müdafiə edənlərin ən çox gündəliyə gətirdikləri mövzu insanın mənşəyi mövzusudur. Bu mövzudakı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər bəzi varlıqlardan gəldiyini fərz edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu müddətdə müasir insanla ataları arasında bəzi "ara nümunə"lərin yaşadığı iddia edilir. Həqiqətdə tamamilə xəyali olan bu ssenaridə dörd təməl "kateqoriya" sayılır:

1-*Australopithecus*

2-*Homo habilis*

3-*Homo erectus*

4-*Homo sapiens*

Təkamülçülər insanların sözdə ilk meymunabənzər atalarına "cənub meymunu" mənasını verən *australopithecus* adını verirlər. Bu canlılar həqiqətdə soyu tükənmiş bir meymun növündən  başqa bir şey deyil. Məşhur ingilis və amerikalı iki anatomiyaçı Lord Solly Zuckerman və prof. Charles Oxnardın *australopithecus* nümunələri üzərində apardığı çox geniş əhatəli tədqiqat bu canlıların yalnız soyu tükənmiş bir meymun növünə aid olduğunu və insanlarla heç bir bənzərliklərinin olmadığını göstərmişdir.[13]

Təkamülçülər insan təkamülünün bir sonrakı mərhələsini də "homo", yəni insan olaraq sinifləndirirlər. İddiaya görə, "homo" ardıcıllığındakı canlılar *australopithecus*lardan daha çox inkişaf etmişlər. Təkamülçülər bu fərqli canlılara

aid fosilləri ard-arda düzərək xəyali bir təkamül sxemi meydana gətirirlər. Bu sxem xəyalidir, çünki həqiqətdə bu fərqli siniflər arasında təkamüli bir əlaqənin olduğu qətiyyən isbat edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin 20-ci əsrdəki ən əhəmiyyətli müdafiəçilərindən biri olan Ernst Mayr "“Homo sapiens”ə uzanan zəncir həqiqətdə itmişdir", -deyərək bunu qəbul edir.[14]

Təkamülçülər "*australopithecus > homo habilis > homo erectus > homo sapiens*" sıralamasını yazarkən bu növlərin hər birinin bir sonrakının atası olduğu təəssüratını verirlər. Halbuki paleoantropoloqların son tapıntıları *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın fərqli bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir.[15]

Bundan başqa, *homo erectus* sinifləməsinə aid insanların bir hissəsi müasir dövrlərə qədər yaşamış, *homo sapiens, neandertalensis* və *homo sapiens sapiens* (müasir insan) ilə eyni mühitdə yan-yana olmuşlar.[16]

Bu isə, əlbəttə, bu siniflərin bir-birlərinin ataları olduğu iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stephen Jay Gould özünün də bir təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

Əgər bir-birilə paralel şəkildə yaşayan üç fərqli hominid (insana xas) xətti varsa, o halda, bizim soy ağacımıza nə oldu? Açıqdır ki, bunların biri digərindən gələ bilməz. Bundan başqa, biri digəri ilə müqayisə edildiyində təkamüli bir inkişaf tərzi göstərmirlər.[17] Qısa olaraq, mediya və ya dərs kitablarında yer alan xəyali bəzi "yarı meymun, yarı insan" canlıların şəkilləri ilə, yəni sırf təbliğat yolu ilə dəstəklənməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi təməli olmayan bir nağıldan ibarətdir.

Bu mövzunu uzun illər araşdıran, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il tədqiqat aparan İngiltərənin ən məşhur və hörmətli alimlərindən Lord Solly Zuckerman bir təkamülçü olmasına baxmayaraq, ortada meymunabənzər canlılardan insana uzanan həqiqi bir soy ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zuckerman bir də maraqlı "elm şkalası" tərtib etmişdir. Elmi olaraq qəbul etdiyi bilik sahələrindən elmdən kənar qəbul etdiyi bilik sahələrinə qədər bir yelpik hazırlamışdır. Zuckermanın bu cədvəlinə görə, ən "elmi" (yəni konkret məlumatlara əsaslanan) bilik sahələri kimya və fizikadır. Yelpikdə bunlardan sonra biologiya elmləri, sonra da ictimai elmlər gəlir. Yelpiyin ən aşağısında, yəni ən "elmdən kənar" sayılan hissəsində isə Zuckermana görə telepatiya, altıncı hiss kimi "duyğu sonrası qəbul etmə" anlayışları və bir də "insanın təkamülü" vardır! Zuckerman yelpiyin bu yerini belə açıqlayır:

Obyektiv həqiqətin sahəsindən çıxıb bioloji elm olaraq fərz edilən bu sahələrə (yəni duyğu sonrası qəbul etməyə və insanın fosil tarixinin şərh olunmasına)

girdiyimizdə təkamül nəzəriyyəsinə inanan bir adam üçün hər şeyin mümkün olduğunu görərik. Belə ki, nəzəriyyələrinə qəti inanan bu adamların ziddiyyətli bəzi qərarların eyni anda qəbul etmələri belə mümkündür.[18]

Budur, insanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bəzi insanların tapdıqları bəzi fosilləri birtərəfli şəkildə izah etmələrindən ibarətdir.

**Darvin düsturu!**

İndiyədək araşdırdığımız bütün texniki dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə axmaq bir inanca sahib olduqlarını bir də uşaqların anlaya biləcəyi qədər açıq bir nümunə ilə yekunlaşdıraq.

Təkamül nəzəriyyəsi həyatın təsadüfən meydana gəldiyini iddia edir. Dolayısı ilə, bu iddiaya görə, cansız və şüursuz atomlar bir yerə gələrək əvvəlcə hüceyrəni meydana gətirmişlər və sonra eyni atomlar bir şəkildə digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək: həyatın elementi olan karbon, fosfor, azot, kalium kimi elementləri bir yerə gətirdiyimizdə bir topa meydana gələr. Bu atom topası hansı əməliyyatdan keçirilsə də, tək bir canlı meydana gətirə bilməz. İstəyirsinizsə, bu mövzuda bir "təcrübə" hazırlayaq və təkamülçülərin əslində müdafiə etdiyi, amma yüksək səslə dilə gətirə bilmədiyi iddianı onlar adına "Darvin düsturu" adı ilə arşdıraq:

Təkamülçülər çoxlu sayda böyük bir qabın içinə həyatın quruluşundakı fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə olan ancaq bu qarışığın içində olmasını lazım gördükləri vəsaitləri də bu qablara əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də (tək birinin belə təsadüfi meydana gəlmə ehtimalı $10^{-950}$ olan) zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə istilik və nəmlik versinlər. Bunları istədikləri inkişaf etmiş cihazlarla qarışdırsınlar. Qabların başına da dünyanın ən öndə gələn alimlərini qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən nəslə köçürərək növbəti milyardlarla, hətta trilyonlarla il davamlı qabların başında gözləsinlər. Bir canlının meydana gəlməsi üçün hansı şərtlərin var olması lazım olduğuna inanılırsa, hamısından istifadə etmək sərbəst olsun. Ancaq nə etsələr də, o qablardan qətiyyən bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, rəngarəng kəpənəkləri və bunun kimi milyonlarla canlı növündən heç birini meydana gətirə bilməzlər. Yalnız burada bir neçəsini saydığımız bu canlı varlıqları deyil, bunların tək bir hüceyrəsini belə əldə edə bilməzlər.

Qısası, şüursuz atomlar bir yerə gələrək hüceyrəni meydana gətirə bilməzlər. Sonra yeni bir qərar verib, bir hüceyrəni ikiyə bölüb, sonra ard-arda başqa qərarlar alıb elektron mikroskopunu tapan, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında izləyən professorları meydana gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat tapar. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd bir mənasız sözdür. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az belə düşünmək üstdəki nümunədə olduğu kimi, bu həqiqəti açıq şəkildə göstərər.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən izah edə bilmədiyi bir başqa mövzu isə göz və qulaqdakı üstün qəbul etmə keyfiyyətidir.

Gözlə əlaqədar mövzuya keçməzdən əvvəl, "necə görürük?" sualına qısa cavab verək. Bir cisimdən gələn şüalar gözdə retinaya tərs düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beynin arxa hissəsindəki görmə mərkəzi deyilən kiçik bir nöqtəyə çatır. Bu elektrik siqnalları bir silsilə əməliyyatdan sonra beyindəki bu mərkəzdə görüntü kimi hiss olunur. Bu məlumatdan sonra indi düşünək:

Beyin işığa bağlıdır. Yəni beynin içi tamamilə qaranlıqdır, işıq beynin olduğu yerə girə bilməz. Görüntü mərkəzi deyilən yer qaranlıq, işığın əsla çatmadığı, bəlkə də heç qarşılaşmadığınız qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, tərtəmiz bir dünyanı seyr edirsiniz.

Üstəlik, bu o qədər dəqiq və keyfiyyətli bir görüntüdür ki, 21-ci əsr texnologiyası belə hər cür imkana baxmayaraq, bu dəqiqliyi təmin edə bilməmişdir. Məsələn, bu anda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Bu anda gördüyünüz dəqiqlik və keyfiyyətdəki bu görüntünü başqa bir yerdə gördünüzmü? Bu qədər dəqiq bir görüntünü sizə dünyanın bir nömrəli televizor şirkətinin çıxardığı ən inkişaf etmiş televizor ekranı da verə bilməz. 100 ildir ki, minlərlə mühəndis bu dəqiqliyə çatmağa çalışırlar. Bunun üçün fabriklər, nəhəng təsisatlar qurulur, araşdırmalar aparılır, plan və dizaynlar inkişaf etdirilir. Yeni bir televizor ekranına baxın, bir də bu anda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük bir dəqiqlik və keyfiyyət fərqinin olduğunu görəcəksiniz. Üstəlik, televizor ekranı sizə iki ölçülü bir görüntü göstərir, halbuki siz üç ölçülü, dərin bir perspektivi izləyirsiniz.

Uzun illərdir ki, on minlərlə mühəndis üç ölçülü ekran düzəltməyə, gözün görmə keyfiyyətinə çatmağa çalışırlar. Bəli, üç ölçülü bir ekran sistemi düzəldə bildilər, amma onu da eynək taxmadan üç ölçülü görmək mümkün deyil, qaldı ki, bu süni bir üç ölçüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiyası kimi durur.

Heç bir zaman gözün gördüyü qədər dəqiq və keyfiyyətli bir görüntü meydana gəlməz. Kamerada da, televizorda da mütləq görüntü itkisi meydana gəlir.

Təkamülçülər bu keyfiyyətli və dəqiq görüntünü meydana gətirən mexanizmin təsadüfən meydana gəldiyini iddia edirlər. İndi biri sizə "otağınızdakı televizor təsadüflər nəticəsində meydana gəldi, atomlar bir yerə gəlib bu görüntünü meydana gətirən aləti meydana gətirdi", -desə, nə düşünərsiniz? Minlərlə adamın bir yerə gəlib edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha primitiv olan bir görüntünü meydana gətirən alət təsadüfən meydana gələ bilmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gələ bilməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulaq üçün də etibarlıdır. Xarici qulaq ətrafdakı səsləri qulaq çanağı vasitəsilə qəbul edib orta qulağa çatdırır; orta qulaq aldığı səs titrəyişlərini gücləndirib daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri beyindəki eşitmə mərkəzinə verir.

Gözdəki vəziyyət qulaq üçün də etibarlıdır, yəni beyin işıq kimi səsə də bağlıdır, səs keçirməz. Dolayısı ilə, çölü nə qədər gurultulu olsa da, beynin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən dəqiq səslər beyində qəbul edilir. Səs keçirməyən beyninizdə bir orkestrin simfoniyalarını dinləyirsiniz, izdihamlı bir mühitin bütün səs-küyünü eşidirsiniz. Amma o anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada iti bir səssizliyin hakim olduğu görüləcək. Dəqiq bir görüntü əldə edə bilmək ümidi ilə texnologiya necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdir davam etdirilir. Səs yazma cihazları, musiqi mərkəzləri, bir çox elektronik alət, səs qəbul edən musiqi sistemləri bu işlərdən bəziləridir. Ancaq bütün texnologiyaya, bu texnologiyada çalışan minlərlə mühəndisə və mütəxəssisə baxmayaraq, qulağın meydana gətirdiyi dəqiqlik və keyfiyyətdə bir səs əldə edilməmişdir.

Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi yazdıqda mütləq səsin bir qismi itir və ya az da olsa, mütləq əngəl meydana gələr və ya musiqi mərkəzini açdığınızda hələ musiqi başlamadan bir xışıltı mütləq eşidərsiniz. Ancaq insan bədənindəki texnologiyanın məhsulu olan səslər son dərəcə dəqiq və qüsursuzdur. Bir insan qulağı heç vaxt musiqi setində olduğu kimi, xışıltı və ya əngəl qəbul etməz; səs necədirsə, tam və dəqiq bir şəkildə onu qəbul edir. Bu vəziyyət insan yaradıldığı gündən indiyədək belədir. İndiyə qədər insanların düzəltdiyi heç bir görüntü və səs cihazı, göz və qulaq qədər həssas və müvəffəqiyyətli bir qəbul edici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunlardan başqa böyük bir həqiqət yenə vardır.

***Beynin içində görən və eşidən şüur kimə aiddir?***

Beynin içində rəngli dünyanı seyr edən, simfoniyaları, quşların civiltisini dinləyən, gülü iyləyən kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn xəbərdarlıqlar elektrik siqnalı olaraq beynə gedir. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə meydana gəldiyinə dair bir çox məlumat oxuyubsunuz. Ancaq bu mövzu haqqındakı ən əhəmiyyətli həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: Beyində bu elektrik siqnallarını görüntü, səs, qoxu və hiss hesab edən kimdir? Beynin içində gözə, qulağa, buruna ehtiyac duymadan bütün bunları qəbul edən bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyni meydana gətirən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruh görüntünü seyr etmək üçün gözə, qulağa, buruna ehtiyac duymaz. Bunlardan əlavə düşünmək üçün beynə ehtiyac duymaz.

Bu açıq və elmi həqiqəti oxuyan hər insanın beynin içindəki bir neçə kub santimetirlik qaranlıq məkana bütün kainatı üç ölçülü, rəngli, kölgəli və işıqlı olaraq sığdıran uca Allahı düşünməli, Ondan qorxmalı, Ona sığınmalıdır.

***Materialist bir inanc***

Bura qədər araşdırdıqlarımız təkamül nəzəriyyəsinin elmi tapıntılarla açıq şəkildə ziddiyyət təşkil edən bir iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, qarşıya qoyduğu təkamül mexanizmlərinin heç bir təkmilləşdirici təsiri yoxdur və fosillər nəzəriyyənin tələb etdiyi ara formaların yaşamadığını göstərir. Bu vəziyyətdə, əlbəttə, təkamül nəzəriyyəsinin elmə zidd bir düşüncə olaraq bir kənara atmaq lazımdır. Necə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə elmin gündəmindən çıxarılmışdır. Amma təkamül nəzəriyyəsi israrla elmin gündəmində tutulmaqdadır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid olunmasını "elmə hücum" kimi göstərməyə belə çalışırlar. Yaxşı, bəs niyə?...

Bu vəziyyətin səbəbi təkamül nəzəriyyəsinin bəzi çevrələr üçün özündən əsla imtina edilə bilməyəcək doğma bir inanc olmasıdır. Bu çevrələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiətə gətirilə biləcək yeganə materialist izah olduğu üçün mənimsəyirlər. Bəzən bunu açıq şəkildə etiraf da edirlər. Harvard Universitetindən məşhur bir genetik və eyni zamanda öndə gələn bir təkamülçü  Richard Lewontin "əvvəl materialist, sonra alim" olduğunu belə etiraf edir:

Bizim materializmə bir inancımız var, "a priori" (əvvəldən qəbul edilmiş, doğru fərz edilmiş) bir inancdır bu. Bizi dünyaya materialist bir izah gətirməyə məcbur edən şey elmin üsulları və qaydaları deyil. Əksinə, materializmə olan "a priori"yə bağlılığımız səbəbi ilə dünyaya materialist bir izah gətirən araşdırma üsullarını və anlayışları hazırlayırıq. Materializm mütləq doğru olduğuna görə də ilahi bir izahın səhnəyə girməsinə icazə verə bilmərik.[19]

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğruna yaşadılan bir doqma olduğunun açıq ifadələridir. Bu doqma maddədən başqa heç bir varlığın olmadığını fərz edir. Bu səbəblə də cansız, şüursuz maddənin həyatı yaratdığına inanır. Milyonlarla fərqli canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, böcəklərin, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz içindəki qarlılıqlı təsirlərlə, yəni yağan yağışla, çaxan şimşəklə cansız maddənin içindən meydana gəldiyini qəbul edir. Həqiqətdə isə bu, həm ağıla, həm də elmə zidd bir qəbuldur. Amma darvinistlər öz deyimləri ilə "ilahi bir izahın səhnəyə girməməsi" üçün bu qəbulu müdafiə etməyə davam edirlər.

Canlıların mənşəyinə materialist zehniyyətlə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: Bütün canlılar üstün bir güc, bilik və ağıla sahib olan bir Yaradıcının əsərləridir. Yaradıcı bütün kainatı yoxdan var edən, qüsursuz şəkildə təşkil edən və bütün canlıları yaradıb şəkilləndirən Allahdır.

***Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli cadusudur***

Burada bunu da ifadə etmək lazımdır ki, zehniyyətsiz, heç bir ideologiyanın təsiri altında qalmadan, yalnız ağıl və məntiqindən isitifadə edən hər kəs elm və mədəniyyətdən uzaq cəmiyyətlərin xurafatlarını xatırladan təkamül nəzəriyyəsinin inanılması qeyri-mümkün bir iddia olduğunu asanlıqla anlayacaq.

Yuxarıda da ifadə edildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir qabın içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman içində düşünən, bir çox tapıntının müəllifi olan professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi alimlərin, Frank Sinatra, Charlton Heston kimi sənətçilərin, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Üstəlik, bu axmaq iddiaya inananlar alimlər, professorlar, mədəni və təhsilli insanlardır. Bu səbəblə, təkamül nəzəriyyəsi üçün "dünya tarixinin ən böyük və ən təsirli cadusu"-ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin önünə sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan bir başqa inanc və ya iddia yoxdur. Bu, qədim misirlilərin günəş tanrısı Raya, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə ibadət etməsindən, hz. İbrahim qövmünün əlləri ilə düzəltdikləri bütlərə, hz. Musa qövmünün qızıldan düzəltdikləri buzova ibadətlərindən daha dəhşətli və ağıla sığmaz bir korluqdur. Həqiqətdə bu vəziyyət Allahın Quranda işarə etdiyi bir ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlanacağını və həqiqətləri görməkdə aciz duruma düşəcəklərini bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur.**

**Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! ("Bəqərə" surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! ("Əraf" surəsi, 179)**

Allah "Hicr" surəsində isə bu insanların möcüzələr görsələr belə, inanmayacaq qədər ovsunlandıqlarını belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və onunla durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütlənin üzərində bu cadunun təsirli olması insanların həqiqətlərdən bu qədər uzaq tutulması və 150 il bu cadunun təsirini itirməməsi isə sözlə izah edilə bilməyəcək qədər heyrət verici bir vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, axmaqlıq və məntiqsizliklərlə dolu iddialara inanmaları başa düşülə bilər. Ancaq dünyanın dörd tərəfindəki insanların şüursuz və cansız atomların ani bir qərarla bir yerə gəlib fövqəladə bir təşkilat, intizam, ağıl və şüur göstərib qüsursuz bir sistemlə işləyən kainatı, həyat üçün uyğun olan hər cür xüsusiyyətə sahib olan Yer planetini və saysız kompleks sistemlə təchiz edilmiş canlıları meydana gətirdiyinə inanmasının "cadu"dan başqa bir izahı yoxdur.

Necə ki, Allah Quranda inkarçı fəlsəfəni müdafiə edən bəzi adamların etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa və firon arasında keçən bir hadisə ilə bizlərə bildirir. Hz. Musa firona haqq dini izah etdiyində firon hz. Musaya öz "bilikli sehrbazları" ilə insanların toplandığı bir yerdə qarşılaşmasını istəyir. Hz. Musa sehrbazlara əvvəlcə onların bacarıqlarını göstərməyini deyir. Bu hadisənin açıqlandığı ayə belədir:

**(Musa: ) "Siz atın", – dedi. Onlar atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. ("Əraf" surəsi, 116)**

Göründüyü kimi, fironun sehrbazları öz "hiylə"ləri ilə (hz. Musa və ona inananlar xaricində) insanların hamısını ovsunlaya bilmişlər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə "uydurduqlarını udmuş", yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!", – deyə vəhy etdik. Bir də (baxıb gördülər ki) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, olanların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. ("Əraf" surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, daha əvvəl insanları ovsunlayaraq təsir edən bu adamların etdiklərinin bir saxtakarlıq olduğu başa düşülmüşdür. İndiki dövrdə də bir sehr təsiri ilə elm adı altında son dərəcə axmaq iddialara inanan və bunları müdafiə etmək üçün həyatını həsr edənlər əgər bu iddialardan imtina etməsələr, həqiqətlər tam mənası ilə ortaya çıxdığında və "sehr pozulduğunda" pis vəziyyətə düşəcəklər. Necə ki, təxminən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist fəlsəfəçi olan, ancaq daha sonra həqiqətləri görən Malcolm Muggeridge təkamül nəzəriyyəsinin yaxın gələcəkdə süqut edəcəyi vəziyyəti belə açıqlayır:

**Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq olunduğu sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük zarafat vəsaitlərindən biri olacağına inandım.** Gələcək nəsil bu qədər səhv və naməlum bir fərziyyənin inanılmaz bir saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaq.[20]

Bu gələcək uzaqda deyil, əksinə, yaxın zamanlarda insanlar "təsadüflər"in ilah ola bilməyəcəklərini anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən şiddətli sehri olaraq təyin olunacaq. Bu şiddətli sehr böyük sürətlə dünyanın dörd tərəfində insanların üzərindən qalxmağa başlamışdır. Təkamül yalanının sirrini öyrənən bir çox insan bu yalana necə aldandığını heyrətlə düşünürlər.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur! Həqiqətən, Sən Bilənsən, Müdriksən!"**

**(Bəqərə Surəsi, 32)**

**Haşiyə:**


1. Sidney Fox, Klaus Dosə, Molecular Evolution and The Origin of life, New York: Marcel Dekker, 1977, səh. 2

2. Aleksandr I. Oparin, Origin of Life, (1936) New York, dover Publications, 1953 (Yeni nəşr), səh. 196

3."New Evidence on Evolution of Early Atmosphere and Life", *Bulletin of the American Meteorological Society*, c. 63, Kasım 1982, səh. 1328-1330.

4. Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)

5. Jeffrey Bada, Earth, Fevral 1998, səh. 40.

6. Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, səh. 271, oktyabr 1994, səh. 78

7. Charles Darvin, The Origin of Species: A Facsimile of the first Edition, Harvard University Press, 1964, səh. 189

8. Charles Darvin, The Origin of Species: A Facsimile of the first Edition, Harvard University Press, 1964, səh. 179

9. B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988

10. Charles Darvin The Origin of Species: A Facsimile of the first Edition, Harvard University Press, 1964, səh. 179

11. Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133

12. Douglas J. Futuyuma, Science on Trial, New York: Pantheon Books, 1983. səh. 197

13. Solly Zuckerman, Beyond The İvory Tower, New York: Toplinger Publications, 1970, səh. 75-94; Charles E. Oxnard, “The Place of Australopithecines en Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389

14. J. Rennie, “Darwins Current Bulldog: Ernst Mayr”, Scientific American, Dekabr 1992

15. Alan Walker, Science, c. 207, 1980, səh. 1103; A. J. Kelso, Physical Antropology, 1-ci nəşr, New York: J. B. Lipincott Co., 1970, səh. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272

16. Time, Noyabr 1996

17. S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30

18. Solly Zuckerman, Beyond The Ivory Tower , New York: Toplinger Publications, 1970, səh. 19

19. Richard Lewontin, “The demon-Haunted World”, The New York Review of Books, 9 Yanvar 1997, səh. 28

20. Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43